

## ƏMİNƏ ÖZKAN ŞƏNLİKOĞLU

Əminə Özkan Şənlikoğlu 1953-cü il may ayının 27-də anadan olub. Uşaqlıq illəri Adapazarının Saloğlu və Karaçalı kəndlərində keçib. İstanbula 9 yaşında gəlib. Uşaqlığı çox böyük bir mübarizə içində keçən Şənlikoğlu bəzi ədalətsizlikləri kiçik yaşlarında sezməyə başlayıb. Hələ gənclik illərindən müxtəlif dini elmləri öyrənməklə məşğul olur, dinləri araşdırmağa başlayır və İncili oxuyur. Daha sonra İslama yönəlir və İslam təhsili alır. Fiqh və Əqidə kimi bütün islami elmləri həyat yoldaşı Rəcəb Özkandan və xüsusi müəllimlərdən öyrənib.

Əminə Şənlikoğlu adı dillər əzbəri olan bir yazardır. Xalq xüsusilə onu qara çarşablı geyimi ilə televiziya kanallarında dinsizlərlə mübahisələrindən tanıyır. «Bize nasıl kıydınız» («Bizə necə zülm etdiniz») adlı kitabı əsasında film yarandıqdan sonra onun adı daha çox çəkilməyə başladı. İstiqlal məhkəmələrinə toxunduğu üçün filmi, hətta yasaq etmək istədilər.

O, «Gencliyin İmanını Sorularla Çaldılar» («Gəncliyin İmanını Suallarla Oğurladılar») adlı ilk kitabına görə məhkəməyə verilir. 15 il həbs cəzası ilə mühakimə olunaraq iki il yarım həbs həyatı yaşayır. Dəfələrlə məhkəməyə verilən, nəzarət altına alınan Şənlikoğlu 1985-ci ildən etibarən «Mektub» jurnalı, «Genel Yayın Yönetmenliyi»nə rəhbərlik etməkdədir. Bəli, öyrənmə və öyrətmə yolunda irəliləyən Əminə Şənlikoğlu 48 kitaba imzasını atıb. Əminə Şənlikoğlu iki övlad anasıdır.

## BU KİTABIN HEKAYƏSİ

**Rəhman, Rəhim Allahın adı ilə!**

Dəyərli oxucularım, bu kitab haqqında bəzi məqamlara bir aydınlıq gətirmək istəyirəm.

Almaniyada rastlaşdığım Mariyanın maraqlı həyat hekayəsini dinlədim. Çox maraqlandırdı məni Mariya. Mariyanın anlatdıqlarını düz bir il idi ki, araşdırırdım. Xüsusilə, Fikriyə mövzusunu (Fikriyə Mustafa Kamal Atatürkün məşuqəsi olmuşdur) arxivlərdən araşdırdım. Qəzet, İncil və Qurandan götürdüyüm bölümlərin hamısı əslindən götürülmüşdür.

Mənə deyirlər ki: «Nə üçün romanlarda eşqə yer verirsiniz?» Dərhal cavab verirəm: «Allah-Taala da Quran-kərimdə Vəzirin xanımı Züleyxanın eşqini dilə gətirmişdir.

İnsanların yüzdə doxsanı mütləq birini sevmişdir. Madam ki insanların yüzdə doxsanı bu duyğuya dalmaqdadır, nə üçün biz də ona yer verməyək? Əgər siz gənclərə bu mövzuda bir yol göstərməsəniz, gənclik – özü də Allahı sevən gənclik – tutub Allaha küfr edən birinə aşiq olar. Necə ki mən bunun nəticələrini görmüşəm. Əgər, həqiqətən, şüur sahibiyiksə, insanın mədəsi və beyni ilə maraqlandığımız qədər qəlb dünyası ilə də maraqlanmağa məcburuq. Allah-Taala insanların şəhvətləri ilə də maraqlanmışdır».

Bu kitabı romandan daha çox bir fikir kitabı olaraq oxumağınızı tövsiyə edirəm. Sonradan başa düşdüyüm bir xətamı etiraf edirəm. O da budur: Romanda təmiz niyyətli, insan kimi düşünməyi bacaran xristianlardan birini vermədim. Mövzunu yaşanmış həyatdan götürdüyüm üçün bu hekayə mənə gözəl niyyətli bir xristian haqqında danışılmamışdı. Mən də ayrıca bir araşdırma apararaq romana yaxşı bir xristian əlavə etməyi düşünmədim. Belə hesab edirəm ki, bu səhvimin yeri «Xristian Gülü» adlı romanımla dolacaqdır. Əgər buna görə məndən inciyən bir xristian varsa, ondan üzr istəyirəm.

Allaha əmanət olun, dostlar.

Allahın əmanət aldığı qul ölümə gedər, lakin əbədi olaraq Cəhənnəmə getməz.

**Əminə Şənlikoğlu**
**1.9.1992 /İstanbul**

## MARİYA

Sizə həyatımın dönüş nöqtəsi olan yerdən başlayaraq anladıram.

Lopa-lopa qar yağır. Avtobus dayanacağında insanlar avtobus gözləyirlər.

– Bax, yenə də o gənc. Yenə həmin dayanacaqda avtobus gözləyir. Bu gəncin duruşu nə üçün fərqlidir? Yəqin ki, afrikalı bir gəncdir... Hər halda ailəsinin ac qalmasından narahatdır? Bunu maşınıma götürsəm, görəsən, gələr?

Bu düşüncələrimdən sonra gəncin yanında əyləci basdım. Almanca bilib-bilmədiyini soruşdum. Kübarcasına: «Bir az bilirəm» – dedi.

– Buyurun, sizi istədiyiniz yerə aparım.

Gənc mənə baxdıqdan sonra dayanacaqda gözləyən iki gənc qızı göstərərək cavab verdi.

– Bu xanımları da götürərsinizmi?

Məcburən xanımlara da maşınıma əyləşmələrini təklif etdim.

Biri maşınıma minmədi... O biri gənc qız qabaqda, afrikalı da arxada oturdu. Mən bir sual vermək istəyirdim ki, o, məndən soruşdu:

– Nə üçün məni maşınınıza dəvət etdiniz? Məni haradansa tanıyırsınız?

– Sizi hər gün bu dayanacaqda görürəm. Afrikalılara xüsusi bir marağım var. Ən çox maraqlandığım yer də Afrikadır.

– Yaxşı, nə üçün məni seçdiniz? Ayrıca Afrikada sizi nə maraqlandırır?

– Yamyamlar! Ac insanlar.

– Maraqlıdır... Afrikada «yamyam» deyilən bir irq yoxdur. Bu iftiradır. Afrikanı istila edənlər tərəfindən uydurulan bir yalandır. Mən də misirliyəm. Biz heç kimi yemirik, lakin bizi yeyənləri görür və seyr edirik. Bütün günahımız da budur.

– Çox maraqlıdır. Almanca gözəl danışırsınız. Almaniyaya nə üçün gəlmisiniz?

– Şərtlər məni buna məcbur etdi.

– Adınız nədir?

– Əbdülvəhhab.

– Mənim adım Mariyadır. Mən Fransa vətəndaşıyam. Doğrudan, indi ağlıma gəldi. Sizlər nə üçün bizim dilimizi öyrənirsiniz, axı biz sizin dilinizi öyrənmirik?

– Önəmli bir mövzuya toxundunuz. İmperialist olan sizlərsiniz. Müsəlman ölkələrini müstəmləkə zülmü altına saldığınıza görə hər məsələdə özünüzə təşviq etdiyiniz üçün belə olur.

– Yəni demək istəyirsiniz ki, müsəlmanlar düşüncəsizdir? Nə üçün özlərini istismar etdirmişlər?

Bu sualım ərəb gənci heyrətləndirdi. Bir xeyli düşündü, gözləri yaşardı.

– Bəli, onların təmiz hisslərindən istifadə edərək təsir altına saldınız.

– O halda nə üçün bizim ölkəmizə gəlirsiniz?

– Bu sualları vermək üçünmü məni maşınınıza götürdünüz? O halda deyim... Əlindən balası alınan ana hər zaman balasını əlindən alan ayının yuvası ətrafında fırlanar. Biz də dəyərlərimizi Qərbin, xüsusilə də, İngilislərin sayəsində itirdik. Bizdən çox şey aldınız və indi bizləri də arxanızca sürükləyirsiniz... Bax, sənin altında maşın var, mənsə bu qarlı havada avtobus gözləyirəm. Bunu bil ki, sənin maşınının bir təkəri mənim, başqa təkəri qardaşımın, üçüncü təkəri isə o biri qardaşımındır. Əlimizdən aldıqlarınızı texnika ilə müxtəlif cür modelləşdirib bizə naz edirsiniz. Səhv başa düşməyin, şəxsən sizə demirəm, xanım Meri.

– Meri yox, Mariya... Lakin İngiliscəyə üstünlük verirsinizsə, o başqa.

– Fikir vermədim, bağışlayın.

Yanımda oturan xanım bir müddət susduqdan sonra göncə tərəf dönüb soruşdu:

– Siz demək istəyirsiniz ki, biz qəsbkarıq?

– Qurtarın bu söhbətləri. Sizinlə mübahisə etməklə sanki sizi ittiham edəcək bir vəziyyətə düşdüm. Mövzunu bağlayaq...

– Şey... Mənim adım Monikadır. Mən Misirlə bağlı bəzi mövzularla maraqlanıram. Məsələn, piramidalar... Doğrudan da, bizim kitablarımızda necə yazılmışsa, elədir? Necə tikilməsi haqqında mübahisələr gedirmi?

– Bəli. Lakin Misir piramidaları özləri ilə birlikdə tikilişindən daha çox önəmli olan bir müraciəti də gətirir. Qərb bu müraciətin üzərində heç dayanmır.

– Məsələn.

– Məsələn, piramidalar imperialist ruhun təzahürüdür. İstismarçı Fironun əsirləri necə işlətdiyini və onların əməyini necə istismar etdiyini göstərir. Qərb bu yolla piramidalarda eyni vəziyyəti nümayiş etdirir. Piramidalar da, Qərbin gözqamaşdırıcı yüksəkliyi də, əzilənlərin alın tərindən, canlarından yığılıb yüksəldilmişdir...

– Amaaan, siz də fürsət tapan kimi Qərbi günahlandırırsınız, lakin yenə buradasınız.

– Bizim dinimiz düşmən ölkəyə getməyi, ondan yararlanmağı yasaq etmir. Yasaq olan: Ona səni istismar etməyə imkan verməkdir, lakin biz ikinci əmri tamamilə unutduq. Birinci söylədiyim icazəni də Allahın əmri kimi çox nizamla icra edirik.

Universitetə yaxınlaşmışdıq. Mövzunun dəyişməsini istəyirdim. Gənc danışdıqca özümü böcəyə bənzədirdim.

Məni maraqlandıran məsələlərdən biri də gəncin ailə vəziyyəti idi. Hiss etdirmədən soruşdum:

– Evlisinizmi?

– Xeyr... Adaxlıyam.

– Adaxlınız haradadır?

– Misirdə.

– Siz yox ikən onun sədaqətinə, sizi heç kimə dəyişmədiyinə əminsinizmi?

– O nə sözdür? Biz qərblilər kimi deyilik. Həyat yoldaşımızın, adaxlımızın başqa kişilərlə gəzməsinə icazə vermirik. Bizdə bu günah sayılır, lakin bu günahı şüurlu müsəlmanlar bilirlər.

– Yaxşı, bəs kişilər? Sizdə, sadəcə qızlarmı namuslu olur, kişilər namuslu olmurlar?

– Əlbəttə, olmalıdırlar... Əqidəmiz, namus barəsində qadına da, kişiyə də eyni ölçüdə hüquq vermişdir. «Harama baxmayın» – deyərkən qadın-kişi ayrımına getməmişdir. Zina edənlərin cəzaları da eynidir. Lakin təəssüflər olsun ki, bu gün İngilis istismarı altında olan Misir qızları da, oğlanları da aldatmışdır. Lakin mənim adaxlım müstəsna bir müsəlmandır. Nə dininə xəyanət edər, nə də mənə.

Etimad nə gözəl bir keyfiyyətdir. Özünə aid bir sevgidən danışırdı. Kaş ki Hans da belə olaydı... Lakin Hans müasir bir gəncdir. Belə fikirlərə gülünc bir şey kimi baxır.

Qibtə etdim bu gəncə... Hansın da belə olmasını istərdim... Maraqlı söhbətlər bitmədən ikinci prospektə gəldik. Bir azdan ayrılacağıq. Müsəlmanları heç sevməzdim, lakin bu gənc çox kübardır. Məhzun və qərarlı duruşu diqqətimi çəkir. Sınamaq üçün soruşdum.

– Yəqin ki, oxuduğun yer fakültədir. Alman qızları sizə ilişmirlərmi?

– Əlbəttə, ilişirlər... Lakin mən namuslu bir gəncəm. Namus anlayışımda güzəştə getmirəm.

– Boş sözdür!.. Hansı əsrdə yaşayırıq? Belə bir zamanda insanın dosta ehtiyacı vardır.

Gənc bir az dayanıb cavab verdi:

– Diqqət edin, xanım Meri. Ehtiyac duyduğunuz bu əlaqələrə görə, yarım milyon uşaq anasız və atasız olaraq uşaq evlərində sürünür. Siz insan kefinə zərər verməyəcək ehtiyacı düşündüyünüz qədər, bu uşaqları düşünə bilsəydiniz nə gözəl olardı elə deyilmi?

Yenə mənə Meri dedi. Axmaqdı, nədi? Yoo!... Təəccüblüdür... Bacarıqsız müsəlmanlardan belə gözəl danışanı var idimi? Halbuki atam onlardan danışarkən iyrənirdim.

O gün onu oxuduğu fakültənin önünə qədər apardım. Mənə təşəkkür etdi. Mən də söz ataraq cavab verdim.

– Bir şey deyil. Necə olsa, maşınımın bir təkəri sənin, o biri təkəri qardaşının, üçüncü təkər də digər qardaşınınmış(!) Yəni öz maşınınızla gəldiniz, təşəkkürə ehtiyac yoxdur.

Gülərək oradan uzaqlaşdı... Axşam evə gələndə, atamın illik toplantı üçün hazırlıq gördüyünü, təlaşlı olduğunu anamdan öyrəndim.

Yenə çox əsəbiləşmişdim.

– Ana, atam və dostları hər il toplanıb nədən danışırlar? İnan mənə, çox maraqlanıram.

Anam qatı bir katolik olduğu üçün dinsiz atama qarşı çox qəzəbli idi. Ona görə də cavabı kin və nifrətlə dolu idi.

– Atan və dostları dünyanı dinsizləşdirməyə çalışırlar, qızım. Ona görə də, demək olar ki, kilsəni məhv etdilər.

– Ana, atamın söhbətlərinə qulaq asa bilərəmmi?

– Eşitsə ikimizi də öldürər. Ayrıca atanın təsiri altına düşməyindən də qorxuram.

– Bəsdir, ana... Mən artıq böyük bir qızam. Gələn il jurnalist olacağam, hələ də mənə inanmırsan?

Anam dinsiz olmağımdan, atam kimi düşünməyimdən qorxurdu. Ah! Kaş biləydiniz ki, xristian bir ana ilə dinsiz bir atadan dünyaya gəlmək insana nə qədər sıxıntı verir...

Hərçənd ki iyirmi illik qonşumuz olan Cənab Mişeldən də bir az şübhələnirəm. Mən haradasa beş yaşımda olarkən Cənab Mişel yolumu kəsib:

– «Bilirsənmi, Mariya? Sənin atan mənəm. Bunu anandan da soruşa bilərsən» – demişdi.

O gündən sonra atama hər zaman şübhə ilə baxıram. Anamdan da soruşa bilmədim. İndi də şübhələr içindəyəm. Əlbəttə, yenə də Peter atamı sevirəm.

Atam Fransada zabit imiş. İşi ilə əlaqədar buraya gəlib... Atamın nə iş gördüyünü heç cür başa düşə bilmirəm. Lakin öyrənəcəyəm. Bu qədər zənginlik... Təxminən iyirmi min mark maaş alır. Anam atamın casus olduğunu söyləyir... Məni də yaxşı saxlayır atam. Hər şeydən əvvəl məni çox sevir. Əlbəttə, qızı olub-olmadığım haqqında bir şübhəsi yoxdur. Bilsə də, belə fikir verməz.

Evimiz böyük bir villadır... Beş otağı və yüz əlli adamlıq salonu var... Kinoteatr salonu kimi xüsusi düzəldilib... Atam bir əkinçi oğlu olduğu halda, bu qədər mala necə sahib olub? Maraqdan ürəyim partlayacaq.

Anamdan güclə icazə alıb atamın toplantısını dinləmək üçün qapıya yaxınlaşdım. Bircə söz belə eşidə bilmirəm... Lakin eşitməliyəm... Nə edər atam?

Anam mətbəxdə idi, yanına getdim.

– Bilirsənmi, ana? Yenə də heç bir şey eşidə bilmədim. Doğrudan da, qardaşım Bil haradadır?

Anam acıqlı və qaşqabaqlı halda üzünü yana çevirərək cavab verdi:

– Bil də toplantı salonundadır. Daha nə olacaq , atan onu da özü kimi dinsiz elədi.

Mən də atamın bu hərəkətinə çox qəzəbləndim. Atam nə üçün mənim salona girməyimə icazə vermir? Üstəlik, sevdiyim oğlan və qardaşım da oradadır.

Axşamüstü dağıldılar. Maraqla atamın yanına qaçdım. Boynuna sarılaraq pıçıldadım.

– Atacan, and olsun ki, səndən çox inciyirəm. Nə üçün məni toplantıya buraxmırsan?

Həyəcanlı gözlərimi atamın üzünə dikdim. Görəsən, nə deyəcək? Gur və qərarlı səsi ilə cavab verdi.

– Sən də Hans və Bil kimi fanatik düşüncələrindən vaz keçsən və mənim əmrlərimi dinləsən, vəzifələndiriləcəksən.

Bu cavabdan sonra üst mərtəbəyə çıxdı. Salonun ortasında donub qalmışdım. Birdən ağlıma gəldi ki, Hans və Bildən bu sirri öyrənməliyəm.

Üçümüz də bir-birimizə baxdıq. Sonra orta salona keçdik. Var gücümlə Bilin üstünə qışqırdım.

– Nədir mənim bilmədiyim sirlər? Niyə məndən gizlədilir? Bəs mən yaxşı bir missioner olacaqdım?

Bil asta bir səslə cavab verdi.

– Sən hələ İsanın bütlərindən yardım gözləyən bir zavallısan. Müasirləşmənin nə olduğunu bilmirsən. Sənə sirr vermək olarmı?

Birdən qan beynimə vurdu. Masanın üzərindəki vazanı götürüb Bilə tərəf atdım.

Alçaq! Yaltaq!!! Bir qarış boyunla sən sirr söylənəcək bir insan oldun, hələ bir danışırsan da? Özünü atama qəbul etdirmək üçün Noel babaya bənzər mərhəmət timsalı kimi göründün...

Mən hələ sözlərimi bitirməmiş Bil qəhqəhə çəkdi.

– Hans, görürsən?... Sevgilin Mariya misalları belə, kilsə xəyallarından vurur. Mən hələ də başa düşə bilmirəm ki, nə üçün bu qızı monastıra vermədin. Başımızın üstündə ikinci Tereza Rahibə olardı.

Sonra Bil mənə tərəf döndü:

– Ay qız, bu işlər mərhəmətlə yox, ağılla olur. Sən hələ uşaqsan, uşaq. Hələ də başa düşmürsən. Artıq xristianlıq öldü... İslam dini də can verməkdədir... Bu yaxınlarda İslam dinini də öldürəcəyik... Bütün bunlar üçün əqli yaxınlaşma lazımdır. Sən get jurnalistlik məktəbini bitir. Keşişlərin necə dinləndiyini yazar, sonra onlardan cənnətin açarlarını alarsan. Haa... Bir də rica edib mənim üçün də al... Sənə zəhmət verdim.

Bilin bu danışıqları məni dəli edirdi. Birdən anamın bizə qulaq asdığını gördüm. Ağappaq olmuşdu. Ağlamalı bir səslə Bilin üstünə qışqırmağa başladı:

– Südüm sənə haram olsun, Bil! Vəftiz olduğun müqəddəs məbədimizi, ruhanilərimizi təhqir edirsən. Atanız, atanız qoydu sizi bu günə. Kilsəyə gedib sizi oradan qovduracağam.

Bil kobud-kobud cavab vermədən keçinə bilmədi:

– Get, anacan, get. Məndən də müqəddəs ataya salam de.

Anam bağırıb-çığırıb yenə mətbəxə getdi. Mən bütün hirsimi Hansdan alacaqmış kimi bağırdım.

– Sən nə üçün bir şey demirsən, Hans? İnandığın dəyərləri təhqir edirlər, görmürsənmi?

– Mən nə deyə bilərəm ki, Mariya? Hər kəsin öz fikri var. Mən fikir azadlığının tərəfdarıyam. Hər kəs fikrini deyə bilər.

– Amma burada fikirlər deyilmir. Mənim fikrim təhqir olunur. Kilsə təhqir olunur və sən susursan.

– Bax, Mariya, bilirsən ki, mən dinsizəm. Bu mübahisələrə qarışmıram. Həm də bu dövrdə din yox, elm lazımdır. Bu söhbətləri qurtarın. Gəlin viski içək... Bu gün barış günü olsun.

Mübahisələr fayda vermirdi. Onlar atamla eyni fikirdə idilər. Ona görə də atamla dil tapa bilirdilər.

Bir az sonra atam salona düşdü. Bilə əmr verdi:

– Bil! Bilirsən ki, sabah toplantının son bölümünü keçirəcəyik. Qulluqçuya deyərsən hazırlaşsın. Bu dəfə də iyirmi beş mühüm şəxs olacaq.

Deməli, toplantı sabah da davam edəcək... Sabah bazar günüdür... Deməli, bunların içində xristian olan heç bir kəs yoxdur. Bugünkü toplantıda da yəhudi yox imiş, çünki xristianların çoxu bazar günü kilsəyə getdikləri üçün işləmirlər. Yəhudi də şənbə günü işləmir... Deməli, bunların hamısı dinsizdir.

Çox kədərləndim. O gecə İsaya, Məryəmə və Rahibə Terezaya dua etdim. Anamla mənə yardım etmələri lazım idi. Əks təqdirdə bunlar bizi yıxardılar.

Birdən ağlıma bir fikir gəldi. Yatağımdan yavaşca qalxıb mətbəxə getdim... Salonda başımı qarışdırdım. Sabahkı toplantını mütləq eşitməliyəm. Lakin bunu necə edəcəkdim? Anama deyib onunla əməkdaşlıq etsəm, toplantı salonuna əvvəlcədən girib gizlənə bilərdim. Necə olsa həm fransızca, həm də ingiliscə bilirəm. Bir az da türkcə. Danışdıqları sözlərin çoxunu başa düşə bilərəm.

Birdən nərdivanlardan ayaq səsi eşitdim. Qorxdum... Sanki atam içimə bir mikrofon qoyub məni eşitdiyi üçün yatağından qalxıb pilləkənləri düşürdü. Kim bilir, mənə nə cəza verəcəkdi.

Ayaq səsi salona doğru gəlirdi. Qorxunc bir şeydi bu. Atamdan qorxurdum. Birdən ayaq səslərinin anamın ayaq səsləri olduğunu gördüm.

Anam da yatmamışdı... Yavaşca yanıma yaxınlaşdı. Pıçıltı ilə:

– Mariya, sən də yatmamısan?

– Yata bilmədim, ana. Fikirləşdikcə dəhşətə gəlirəm.

– Mən də qardaşının üsyanına görə yata bilmədim. Bir çarə tapmalıyıq. Bunların toplantılarının nə olduğunu öyrənməliyik.

– Mən də bunu fikirləşirəm, ana. Sabah məni toplantı salonunda gizlədə bilərsənmi? Söhbətlərinin hamısını dinləyib bunların planlarını öyrənərik. Bilirsənmi, ana, İngiltərədən, Misir və Amerikadan belə iştirak edənlər var bu toplantıda.

– Bəli, nələrsə baş verir... İllərdir atan haradan maaş aldığını mənə demir. İçimdən atanı öldürmək gəlir. Bu gecə az qalmışdı ki onu öldürüm. Həm də öz silahı ilə. Sonra kilsədən qovulmaqdan qorxdum.

– Ehtiyatlı ol, ana!... Atamı öldürmə.

Anam bir ara:

«Amma o sənin ...» – deyib dayandı. «Sənin atan deyil» – deyəcəkdi, lakin mən bu sözü eşitmək istəmirdim. Sözü dəyişdirdim.

– Bax, anacan. Deyərsən ki, Mariya Meri ilə kinoya getdi.

– Çox gözəl fikirdir. Oldu, razılaşdıq.

O gecə gedib rahat bir yuxu yatdım. Necə olsa, sabah hər şeyi öyrənəcəkdim.

## II BÖLMƏ

### Bu gün bazar günüdür

Anamla yerimi müəyyənləşdirib saat on birdə evdən çıxdım.

Atam və Billə vidalaşdım. Atam çox anlayışlı biri idi. Mənə heç bir şeyi yasaq etmirdi.

Günortadan sonrakı toplantı üçün indidən salona girməliydim. Onlar salonda oturduqları vaxt mən artıq arxa qapıdan gizlincə toplantı salonuna girmişdim.

Ürəyim ağzıma gəlmişdi. Bir-iki saatdan sonra hər şeyi öyrənəcəyəm.

Nəhayət, gözlədiyim an yaxınlaşırdı. Salonun ön hissəsindəki çıxış edənlərin olduğu səhnənin altında dayandım... İndi atamın ayaq səsləri başımın üstündə idi. Mikrofonu tənzimləyir, Bil də ona yardım edirdi.

– Bil, oğlum. Salonun bu küncündən qulaq as görüm səs rahat eşidilirmi?

Bil deyilən küncə gedib, güman ki, atama işarə verirdi. Atam:

– Bir-iki... Yoxlama... Məni yaxşı eşidirsənmi, Bil?

Əməliyyat sona çatmışdı. Aman Allah. İsa Məryəm xatirinə dayan, nə olar sürətlə döyünmə, ürəyim!.. Məndən xəbər tutsalar, yanaram.

Bil atama suallar yağdırırdı.

– Ata, yüz adam olmasına baxmayaraq, nə üçün Mariyaya iyirmi beş şəxs dedin?

– Bir yerdə çox qələbəlik olduğunu ağzından qaçırtsa, bizim üçün yaxşı olmaz. Biz həmişə gizli şəkildə və ustalıqla çalışmalıyıq... Nə üçün arxa çıxış qapısından müsafirləri beş-beş çıxardıram?!

– Ata, Mariya bu gizliliyə çox qəzəblənir. Bu gedişlə aramız pozulacaq. Ona da bildirsən nə olar?

– Haqlısan, lakin başa düşə bilmədiyim bir məqam var. Mariya qatı dindar bir qızdır. Səni ananın təsirindən qurtardım, lakin Mariyanı qurtara bilmədim. Mariya vəziyyəti öyrənərsə, gedib bir qatı dindara deyər. Bizim planlar da pozular. Bir az səbir et. Bir gün Mariya da qatı dindarlıqdan vaz keçəcək... O zaman ona da bir vəzifə verəcəyik, əlbəttə. Onu boş-boşunamı oxutdum? Sivil və mədəni dünya üçün o da fəaliyyət göstərəcək.

Bu danışıqları eşitmək mənim üçün çox yaxşı idi. Deməli, atam buna görə məndən gizlədirdi... Əcəba, görəsən, gizlətdiyi nə idi?

Budur, düz vaxtında salon dolmuşdu... Bu kiçicik taxta arası dəliklərdən salonu görürəm. Heyrət! Necə də səssizlikdir. Güman ki, səviyyəli bir toplantıdır... İştirak edənlərin adı, soyadı, doğulduğu yer, tarix və başqa məlumatları bir-bir deyildi. İngiltərə, Fransa, Amerika, Əlcəzair, Almaniya, Misir, Koreya, hətta Səudiyyə Ərəbistanından belə var!! Suriya, İraq, Türkiyə... Ölkələr və təmsilçilər bir-bir sayıldı. Çox təəccüblüdür, sivil ölkələrlə geridə qalmış ölkələr də bir yerdədirlər, nə üçün?

Toplantını Fransa təmsilçisi açdı. Çox səviyyəli bir alqışla kürsüdən endi.

Dediklərini çox başa düşə bilmədim, lakin bir neçə sözü yadımda qaldı.

– «Dostlar! 1789-cu ildə bizim üçün əsl renessans hərəkatı ilə böyük məsafə qət etdik. Bu proqramlı və nizamlı fəaliyyəti heç ara vermədən davam etdirsək, Ərəb və Türk cəmiyyətləri artıq bir olacaq... Bizim üçün həqiqi renessans olan 1789-cu il üsyanı sayəsində Kilsəni devirmiş sayılırıq.

İslam dinini də yıxdıq, lakin İslam dinində məbədi yıxmaq kifayət etmir. «Quran» adlı kitabı aradan götürməliyik.

Bu mövzuda Əlcəzair, Misir, Suriya və Türkiyədə böyük irəliləyişlər var. Mustafa Kamal çox zəkalı bir prezidentdir. Çox yaxın gələcəkdə Türkiyəni Avropa səviyyəsinə çatdıracaqdır. Eyni ilə Pakistanda da irəliləyişlər var. Bu ölkələrdə prezident, ya da baş nazir olanların çoxu bizim dostlarımızdır... Görəcəksiniz, iyirmi beş-otuz ildən sonra sərhədlər götürüləcək və biz tək ölkə olacağıq. ...»

Yavaş-yavaş mövzunu başa düşürdüm. Doğrusu, çox da zərərli bir şey deyildi bu, lakin kilsəyə düşmənçilikləri işi pozurdu.

Nəhayət, atam kürsiyə qalxdı. Dərin bir nəfəs aldıqdan sonra danışmağa başladı:

– «Dostlar, müasir dünya üçün apardığımız fəaliyyətlər, dostlarımızın da bildirdiyi kimi böyük nailiyyətlərdir.

Çox şükür... Artıq müəllimlər və rəhbərlər arasında rahatlıqla «Mən dinsizəm, fikir azadlığının tərəfdarıyam» – deyənlərin sayı artdı. Mənə elə gəlir ki, bu vəziyyət sizin ölkələrdə də eyni şəkildə irəliləyir. ... Əlcəzairli dost! Bu barədə Əlcəzairdə vəziyyət necədir? Bir neçə cümlə ilə açıqlama verə bilərsinizmi?»

Boğunuq bir səslə ingiliscə danışmağa başlayan Əlcəzairlini çətin eşidirdim. Amma yenə də dedikləri başa düşülürdü...

– «Bizdə vəziyyət fərqli deyil. Bilirsiniz, fransızlar ölkəmizi xilas etmək üçün təzə-təzə fəaliyyətə başlayıblar. Xalqımız, xüsusən, gənclər fransızlara heyrandırlar. Əgər bu fransız heyranlığı nifrətlə əvəz olunmasa, çox qısa zamanda Əlcəzair fransız mədəniyyəti ilə bəzənəcək. Yalnız bir təhlükə var. Bəzi qatı dindarlar «Bu fransızlar dost deyil, gözümüzü açmalıyıq. Qurana inanmayan, müsəlman olmayan bizim dostumuz ola bilməz» – deyə xalqa öz fikirlərini təlqin edirlər. Lakin onların təlqini çox təsirli deyil. Gənc nəsildə dindar müsəlmanlara qarşı nifrət yaratmağı bacardıq. Gələcəkdə Əlcəzairdə Ərəb Mədəniyyəti deyilən bir şey qalmayacaq. Dindarları əməlli-başlı yatızdırdıq».

Yenə də bir alqış səsi doldurdu salonu. Bu pis Ərəb ölkəsini satırdı. Bu Quran da lap düz deyirmiş. Əlbəttə, müsəlmanlardan başqası onlara dost olmaz. Əcəba, bu kitabı kim yazıb? Təhlili nə qədər yerindədir.

Atam bu dəfə misirlidən soruşdu:

– Sizdə vəziyyət necədir?

– «Bizdə heç kim «Mən dinsizəm»-deyə bilməz, demir də. Lakin xalq sadəcə dindən ayrıldı. Dillərinə gətirməsələr də İslamın ruhu çox da qalmadı... Artıq məscidlərin sayı qədər kilsə tikilir... Xalqın heç bir şeydən xəbəri yoxdur».

Növbə Türkiyəyə çatmışdı.

– «Bizdə İngilis təzyiqi, bağışlayın yardımı yoxdur... Lakin xalqımız Qərbə dəhşətli şəkildə etimad edir. Baxın bu qəzetə, yarımçılpaq qızlar yarışa girirlər. Buyurun, Milliyyət Qəzeti... Quran hərflərinin arasından yaxası və qolu açıq bir qadının bu gün qəzetə çıxa bilməsi bir müjdə deyildirmi?

Prezidentimiz Atatürk qəti əmr verdi: «Şəriəti harada görsəniz, əzin» – dedi. Xalq şəriətlə İslamı ayrı şeylər zənn edib şəriəti yox etmək üçün əlindən gələni edir. Çox zəkalı atamız var. Jurnalistlərimiz də müasir olmaq, Türkiyəni qərbli etmək üçün əllərindən gələni edirlər».

Yenə bir alqış qopdu salonda. Qərbli olmaq üçün çalışan bütün Türk jurnalistlər alqışlandılar.

Atam yenə danışmağa başladı:

– «Həqiqətən, Türkiyədə böyük işlər gördük. Bir böyük vəzifəmiz də var. Mustafa Kamala ingilislər tərəfindən böyük mükafatlar verilməlidir. Beləcə, ingilislərə simpatiya duymaları üçün Türk xalqı təlatümə gətirilməlidir. Bunlar planlarımız arasındadır.

Ən böyük mövzumuz. Günün məruzəsini oxumaq istəyirəm sizlərə. Bu məruzə istiqamətində çalışsaq, dinə aid bütün toxunulmazlıqlarını yıxacağıq. Xüsusilə də, İslam dininə aid toxunulmazlıqlar yıxılmalıdır. O toxunulmazlıqlar qaldıqca biz istəyimizə nail ola bilmərik.

Söhbətlər saatlarca davam etdi... Bəli, başa düşmüşdüm... Dinlərin aradan getməsi üçün çalışırdılar... İslam dini buddizm dini kimi aradan getsin... Lakin bizim dinimizdən nə istəyirlər? Kilsənin nə zərəri var. Nankor insanlar.

Atam yüz ildir necə fəaliyyət göstərdiklərini, İngilis, Fransız, Türk və Ərəb kimi irqlərin çağdaş tərəfdarları ilə birlikdə necə fəaliyyət göstərib hökmranlıq etdiklərini anlatdı.

Hamı atamı sayqı ilə dinləyirdi. Başa düşdüm ki, atam böyük bir insandır. Lakin gizli saxlanılan böyük... MKİ-nin başı, yaxud yardımçılarından biri ola bilər.

Bax yenə də atam danışır.

– «Xüsusilə zəkalı gəncləri qiymətləndirməliyik. Ölkənizdə ağıllı və düşüncəli bir uşaq tapdıqda, dərhal onunla maraqlanın. Yoxsuldursa təqaüd, zəngindirsə uğur mükafatı verək. Lakin bunu unutmayın, çalışqan şagirdləri ələ gətirə bilmək üçün öncə onun məktəbini, rəhbərlərini ələ keçirməliyik. Bunun üçün ən gözəl metod müxtəlif dərnəklər qurmaq və o rəhbərlərə bir-bir mükafatlar verməkdir. Şəxsiyyətləri formalaşmamış insanlara

«mükafat» deyə bir tənəkə parçası verdinizsə, işi tamamdır. Bir də mərasim təşkil edib bir neçə əl şaqqıldadıb alqışladınızsa, o şəxs, ölkənin ən qabaqcıl şəxslərindən olsa da, mükafat aldığı dərnək tərəfindən maraqlanmasını istəyəcək... Bax bundan sonra o şəxsi idarə etməklə irəliləyəcəyik. Bu mükafatdan sonra şagirdini də, məktəbini də sizə təslim edəcəkdir. Ağlını soruşsanız, artıq onu da bizə görə işlədəcəkdir. Siz nə edirsinizsə edin, mükafatları artırın».

Vay,Vay! Atam nə qədər zəkalı imiş. Mükafatlandırmaq... Bəli, son illərdə Almaniyada mükafat mərasimləri artmışdı.

– «İkinci və çox əhəmiyyətli məsələ... Avropalı dostlar, ölkələrinizdən tez-tez idarəçi dəvət edəcək. Kimi dəvət etmək lazımdırsa, onu siz təyin edəcəksiniz.

Görsəniz ki, bir professor, jurnalist, həkim hər necə... Fikrən bizə yaxın gəlirsə, onun hər hansı bir xüsusiyyətini bəhanə edib Avropaya dəvət edəcəyik. Burada sivilizasiya görəcək. O da məktəbində, xəstəxana-sında gördüklərini danışacaq. ... Mümkün olduğu qədər onları dinləri haqqında xəbərdar edəcəyik. İyirminci əsrdə dinə ehtiyac olmadığına inandıracağıq. Hər ölkədən yüz insan dəvət etsək, başlanğıc üçün kifayətdir. Sonra şəxslərə bir-bir uğur mükafatı verərik və bununla iş tamamlanar. Ya da ölkəmizdə bir fəxri doktorluq, yaxud bir medal versək tamamdır... Kəklik çantaya girdi deməkdir».

Bu nə dəhşətli plan! Aman, Allahım! Bu sükut nədir, əcəba? Dayandığım yerdən sağ tərəfdəki ən son oturacağı görə bilmirəm. Hamı ora baxır. Yenə atamın səsi.

– «Siz bu mövzuda nə işlər gördünüz, bizə bir neçə misal deyə bilərsinizmi?»

– «Əlbəttə ki... İnqilablar sadəcə yazmaq və danışmaqla olmur. Xalqın içindən örnəklər çıxartmalıyıq. Məsələn, keçən il sinəsini bir jurnalistə göstərən rahibəyə, mətbuat dərnəyi tərəfindən bir cəsarət mükafatı verdiniz. Qəzetlər, «cəsur rahibə» – deyə öydülər onu.

Bu aralarda minlərcə gənc qıza cəsarət verdiniz. Biz də həmin yolla gedirik. Qadın haqları filmində oynayan və qadın sənətkarlara «lüt soyundu» – deyə kinoşünaslar dərnəyi tərəfindən mükafat verdik. Əlbəttə, yalnız mükafat deyil. «Cəsur», «bravo», «vücudunu açıb göstərməkdən qorxmur» kimi öyücü şüarlar da verdik. Bununla da, yüzlərcə artistə soyunma cəsarəti verdik.

«Keşişlə eşq» romanının müəllifinə də bir jest edildi. Keşişlər qiyam etməsin deyə ona da bir çarə tapdıq. «Müasir Keşişlər» keşişlə eşq romanına mədənicə yaxınlaşdılar, – deyə bir məqalə yazdırdıq.

Bax, bu ifadə ilə keşişləri ələ almağı bacardıq. Bundan sonra hansı keşiş qarşı çıxa bilər ki. Qarşı çıxınca ona kobud və qaba deyiləcəyindən qorxar... Müsəlman din adamlarına da həmin psixoloji metod tətbiq oluna bilər... Hər şeydən əvvəl bir ölkəyə iki qavramı oturtduğumuz zaman zəfərin ucu görünmüş olur. Ziyalı din adamı ilə sərt din adamı. Bütün din adamları eyni cür görünmək üçün çox çalışacaq, bu yolda əlindən gələni edəcəkdir.

Hər sahədə örnəkləri artırmaq mümkündür. Ən təsirli örnəklərdən biri də, heç şübhəsiz, atasız uşaq doğan qadının öyülməsidir. Xalqa bunu qəbul etdirdiyiniz zaman zəfər bizim, hamımızın olacaq... Şərqli, qərbli... Sərhədlər götürüləcək... Və hamımız bir olacağıq. Bunun üçün də əvvəl inqilabları yerində bərqərar etmək lazımdır... Xalqı öyrədə-öyrədə yerimək lazımdır.

Qısacası dostlar... Yer üzündə heç bir din qalmayacaq... Qərb düşüncəsinə əsaslanan dostluq və qardaşlıq yer üzünə hakim olacaq. Beşinci və çox əhəmiyyətli maddə.

Üçüncü dünya ölkələrinə ağır sənaye fürsəti verməməliyik. Hər zaman montajla idarə etməliyik. Baxın, Türkiyədə tikilməsi planlaşdırılan təyyarə düzəldən zavoda Amerika mane oldu. Bizim üçün Amerikanın etdikləri də mənfəətlərimizə zidd deyildir.

Xalq qətiyyətlə buna inanmalı, «Bizim ölkəmiz geri qalmışdır. Din bizi geridə qoydu. Biz əsla təyyarə, maşın kimi ağır sənaye istehsalı ilə məşğul ola bilmərik» – deməlidirlər. Onlar istehlak maddəsi istehsal etmələri üçün işləməlidirlər. Düşünün, yüzlərcə pambıq istehsalçısı insan, illərcə işlədikdən sonra yalnız bir ədəd təyyarə ala bilər. Xalqın enerjisini istifadə etdirmək lazımdır. Bu arada inkişaf etmiş ölkələr daha çox inkişaf etdikcə, sosialist, müasir və qabaqcıl qərb ölkələrinə heyranlıq artacaq. Biz də heç dayanmadan onların tənəzzülünü İslamla əlaqələndirdikdə, işimiz tamamdır. Zatən bütün qadınları çılpaqlaşdırma fəaliyyətlərimiz də yaxşı nəticə verdi. Unutmayın, sivilizasiya adına başını açmağı bacardığınız qadının alt paltarlarını da çıxaracaqsınız bir gün... Hər şey bizə bağlıdır. Möhtərəm müsafirlərimiz inciməsinlər. Öncə biz nümunə olaraq inkişaf etsək, hər halda sizin ölkə bizim, bizimki də sizin olacaq...»

Bu cür danışıqların ardı-arası kəsilmirdi. Artıq təngnəfəs oldum. Atamın planları qurtarmır. Kim tərəfindən idarə olunursa, mükəmməl bir şəkildə tənzimlənmişdir. Onlar toplantıya ara verib yeyib-içdilər. Mənimsə qarnım quruldayırdı.

* * *

Of, nəhayət toplantı dağıldı.

Gələn il bu toplantı İngiltərədə, ondan sonra Əlcəzairdə, on il sonra isə Türkiyədə keçiriləcəkmiş... Elə bir gün gələcək ki, toplantılar gizli keçirilməyəcək, iştirakçılar fikirlərini açıq söyləyəcəklər.

Mən hələ də səhnənin altındayam. Salon bom-boş... Lakin çıxmağa cəsarət edə bilmirəm...

Bax, anam gəlir. Elə bil, onun gəlişi ilə üstümdən dağı götürürlər.

– Mariya, artıq çıx... Atan yuxarı mərtəbəyə çıxdı. Çox yorulub, qəhvəsini içir.

Sürətlə konfrans salonundan çıxdıq. Dərhal qonaq otağına keçdik. Bil və Hans hava almaq üçün çölə çıxmışdılar. Anamsa təlaş içində soruşurdu:

– Mariya! Nələr baş verdi, danış görüm.

– Ana, əvvəl qarnımı doyuzdurum... Çox acmışam.

Mən divana uzanıb, anamın gətirəcəyi yeməyi gözlərkən eşitdiklərimi beynimdə təkrarən canlandırıb nəticə çıxarmağa çalışdım.

«Din aradan götürüləcək, çoxlu mükafat veriləcək, lüt poz verən öyüləcək, din adamları ələ alınacaq...»

Başım zoqquldayır. Yeməyimi yeyərkən anam başımın üstündən ayrılmır və məni sıxışdırır.

– Tez danış, atanın sirləri nədir?

– Soruşma, ana. Atam bir casusdur. Lakin kimlərə xidmət etdiyini başa düşə bilmədim. Başa düşdüyüm bir şey var, dünyaya hakim olmaq istəyən güclər atamı idarə edirlər.

Dəhşətli bir din düşməni... «Din Avropada aradan götürülərsə, İslam ölkələri də arxamızca gələr»-deyir. İslamdan mənə nə; onu mən düşünən deyiləm ki, İslamı müsəlman qızlar düşünsün. Mən öz dinimizə görə çox narahat oldum, qəhr oldum, ana. Sabah dərs olmasaydı, müqəddəs atanın yanına gedib günahımı yuyardım. İsa Məryəm eşqinə bu nə rəzalətdir, ana. Mən dinsiz olaramsa, atam mənə də vəzifə verəcəkmiş. Mən onun verdiyi vəzifəni heç alarammı? Mənə elə vəzifə lazım deyil, ana. Mənə kömək et...

– Afərin mənim qızıma. Rahibə Tereza sənə kömək olsun.

– Ana! Gör ağlıma nə gəldi. Atamı aldadıb kilsə əleyhinə işləməyimizə hazırsanmı? Atama «Mən də ateist oldum, mən də sosialist bir dünya qurmaq üçün işləyəcəyəm» – deyib onu arxayın edərəm. Onsuz da hər sirri dərhal vermirlər. İlk dəfə səthi planları verirlər.

– Canım Mariyam!!! Səninlə fəxr edirəm. Böyük bir missioner olacaqsan. Kilsə səni mükafatlandıracaq. Bu casusluğu bacara biləcəyindən əminsənmi?

– Əlbəttə, ana, sən narahat olma. Görəcəksən, atamı inandıra biləcəyəm.

Artıq qərarı vermişdik. Mən atama dindən uzaqlaşdığımı söyləyib, onun qəlbini ələ almalı idim. Atamın etimadını qazanmağa çalışacağam.

Aradan bir həftə keçdi. Atamın aylarla davam edən təlaşı sona çatmışdı... Biz də vəziyyəti müqəddəs ataya danışdıq... Müqəddəs ata buna çox məmnun oldu. Mən də hər gün fakültəyə gedib gəlirdim...

Hansla gəzirdik... Parkda atamla qarşılaşdıq.

– Salam, Mariya.

– Salam, ata.

Atam birdən-birə başqa bir mövzuya keçdi.

– Mariya, bilirsənmi, bu gün Hansla gəzməyə çıxa bilirsən, bunu ateizmin fəaliyyətlərinə borclusan... Yəni müasir dünyagörüşünə...

– Ata, birdən-birə bu hardan çıxdı?

– Gəl bu parkda oturub bir az söhbət edək. Fanatik görüşlərini at, məni dinlə.

Kölndə, kilsəyə yaxın parkda oturduq.

– Bax, qızım... Dində azadlıq olmadığını sənə başa salım. Xristianlığın orijinalı deyilən üç yüz il öncəki İncildə bir qadının kişi ilə əylənməsi, beləcə sənin kimi bir kişi ilə gəzməsi əsla normal sayılmadığı kimi, qorxunc cəzalar da vardı. Hətta bir qadın işgəncə görsə belə, katoliklərə görə qəti hökmdür ki, ərindən ayrıla bilməz. Başqa kişi ilə ola bilməz.

Dində elə basqı vardır ki, sən xristianlığın namus anlayışını bilsən belə əminəm ki, fanatiklik deyərsən. Ateist görüş... Yəni müasir görüş, din fəlsəfəsindəki o cəfəngiyatları yıxdı. Sən bu gün bir kişi ilə əylənməyə yaxşı baxırsan, mən də buna görə özümü xoşbəxt sayıramsa və sənə təzyiq etmirəmsə, bunu dinsiz bir görüşə, yəni mədəni, modern görüşə borclusan. Bütün dünyada eyni şeyi həyata keçirəcəyik. Niqab taxan barbarların ölkəsindəki müsəlman qızlar belə bir gün gələcək sənin kimi olacaqlar. Kişi ilə əylənməyə izn verməyən dini məsxərə edəcəklər. Bu din istər İslam dini olsun, istərsə də başqa bir din.

Ağlıma hiyləgərcəsinə rola girmək gəldi. Dərhal atamın sözünü kəsdim.

– Atacan! Günlər keçdikcə sənin haqlı olduğuna inanıram. Yəqin mən də dinsizlərdən olub sənin qəlbinə girməyi bacaracağam. O toplantılara mən də girəcəyəm. Doğrusu, Bili qısqanıram. Hans belə sənə məndən daha yaxındır.

– Afərin mənim ağıllı qızıma. Bir gün sənin həqiqətləri görəcəyinə inanırdım.

Atamın qəlbinə ilk təməli atmışdım. Axşam evdə sevinclə anama olanları anlatdım.

– Bacarırıq, ana, bacarırıq. Atam yaman inandı. Xristianlıq üçün hər şey edərəm. Gözümü qırpmadan atamın casusluğunu etməkdən zövq alacam.

– Səninlə nə qədər öyünsəm azdır, qızım. Rahibə Tereza sənə kömək olsun. Məryəm kömək olsun... Atan da Cəhənnəmə atıldıqda hər şeyi başa düşər.

Anamla günlərimiz anlaşıqlı keçirdi. Bil də həyatından çox məmnun idi. Artıq böyük bacısının hər keçən gün dinsizləşdiyinə inanır, «Azad dünyaya  xoş gəldin, Mariya» – deyirdi.

Bir gün Hans gözlənilmədən gəldi. Təlaş içində idi. Məni qapıya çağırdı. Birdən:

– «Mariya, mən Amerikaya getməliyəm» – dedi.

Çox üzülmüşdüm.

– Haradan çıxdı indi bu Amerika, Hans?

– Narahat olma. Bir türk ayısı tapıb əylənə bilərsən. Mənə bədəninlə xəyanət edə bilərsən, lakin qəlbinlə xəyanət etsən, səni bağışlamaram. İnciyərəm səndən.

– Necə yəni, sən yox ikən mənim kişi ilə əlaqə qurmağıma icazəmi verəcəksən?

– Haa haa!!! Nə üçün olmasın, Mariyam? Mən də orada birini tapacam.

– Necə! Məndən sonra bir gənc qızmı?

– Üzülmə, canım. Mavi də ola bilər. Amerikada dindar da çoxmuş, mavi də.

– Səndən iyrənirəm, Hans. Rədd ol və bir daha gözümə görünmə!

– Deyəsən, namus timsalı olmusan. Bir az da türklə gəzsən, nə olar ki. Bu bizim marketdə işləyən türk həmişə zarafatla səni soruşur məndən. İstəyirsənsə, mən gələnə qədər o uşaqla bir az fırlan.

Hansın çirkin üzünü sanki ilk dəfə görürdüm. Artıq dinsizliyin acı tablosunu görürdüm. Bu Hans hansı dindən olursa-olsun, həqiqi dindar olsaydı belə azad olmazdı... Var gücümlə qışqırdım.

– Rədd ol!.. Rədd ol, donuz!!. Səni görməkdənsə, ilan görsəm daha yaxşıdır.

Hans getdikdən sonra villamızın önünə çıxdım. Halım tamam dəyişmişdi... Öz-özümə pıçıldadım... Dinsizlik... Bəli, dinsizlik qoydu Hansı bu günə... Lənət olsun sənə!.. Lənət olsun!!! Necə olub ki, sənin kimi alçağı tanıya bilməmişəm.

Bir az ağladıqdan sonra özümə gəldim. Deməli, mən sevdiyimə aid olmayacağam... Mənə bir əşya kimi baxır. Lənətlik Hans! Sənə rast gəldiyim günə daş düşəydi. Aman, ya Rəbbim, özün mənə səbir ver.

O gecəni çox yorğun keçirdim. Ertəsi gün fakültəyə gec qalmamaq üçün qəhvəaltı yemədim. Universitetin bufetində bir şey yeyəcəkdim.

Hava çox soyuq idi. Maşınımı güclə işə salıb yola çıxdım... Yol boyu gedərkən Əbdülvəhhabın sözləri ilə atamın etdikləri arasındakı həqiqəti düşündüm. Həqiqətən, biz müsəlmanların varlıqlarını istismar edərək bugünkü hala gəldik. Sonra birdən-birə xristianlığım tutdu.

– Amaan, gəbərsin müsəlmanlar!!. Onları yox etmək üçün işə başlamadıqmı, səlib yürüşləri etmədikmi? Üç dəfə onları yox etmək istədik, alınmadı.

Belə düşündüyüm halda məni narahat edən bir şey vardı içimdə... Nə üçün? Nə üçün biz onları istismar etmək istəyirik, lakin onlar bizi istismar etməyə çalışmır?

Ziddiyyətli düşüncələr içimdə Vəhhabı gördüyüm dayanacağa gəldim. Bu dəfə Vəhhab bir kişi ilə birlikdə avtobus gözləyirdi. Onlara yaxınlaşdım.

– «Buyurun... Sizi gedəcəyiniz yerə qədər aparım» – dedim.

Vəhhab bir az nazlandı:

– Təşəkkür edirəm, Mariya. Bizim avtobus indi gələr.

– Gəl, gəl... Qorxma səni yemərəm... Dostun da gəlsin.

İki gənci zorla maşınıma götürdüm. İkinci gənc çox səmimi bir tərzdə salam verdi:

– Aaa! Mariya, sənsənmi... Mərhəba!

Birdən dönüb arxaya, danışanın üzünə baxınca tanıdım.

– Aaa! Sən, nə idi sənin adın? Mehmet deyilmi? Türkiyəli idin. Lakin ingiliscə çox gözəl danışırdın...

– Hafizən çox güclü... Lakin bizi bir daha axtarmadın...

Mehmetin mənimlə maraqlanması, mənim onu axtarmağımı gözləməsi məni çox təəccübləndirdi. Qeyri-ixtiyari bir hisslə Mehmetə bir yaxınlıq hiss etdiyimi sezdim.

Əbdülvəhhab mövzunu dəyişdirdi:

– Siz harada yaşayırsınız, Mariya?
– Porzda... Bir ucunda siz, bir ucunda bizik. Eyni universitetin fakültələrinə gedirik.
Mehmet o gün mənimlə görüşmək istədiyini söyləyərək görüş istədi. Razılaşdım, çünki Mehmet xoşuma gəlirdi.
Həftənin sonunda görüşdük. Məni çox bəyəndiyini söylədi. «Lakin» – deyə əlavə etdi.
– Sən bir katoliksən. Mən dindar bir katoliklə evlənə bilmərəm. Sənin hisslərinlə də oynamaq istəmirəm. Ən yaxşısı bir daha görüşməyək. Əslində bu görüşümüz belə səhv idi.
– Rica edirəm, Mehmet. Dost olaraq qalaq. Yoxsa, sən də Əbdülvəhhab kimi konservatorsan?
– Əbdülvəhhab gözəl bir dostdur. Lakin mənim gerçək tərəfimi bilmir. Daha doğrusu, danışmağa vaxt olmadı.
– Mənə bir az özün haqqında danış, Mehmet. Ölkən, ailən, məqsəd və görüşlərin haqqında danış.
– Mənim ölkəm yenidən qurulur. Bambaşqa bir ölkə olacaq. İnsan haqlarına ehtiram, ədalət, bərabərlik, dürüstlük – hər şey çox başqadır mənim gələcəyimdə. Ölkəmin təməl daşları arasında bir daş olmaq üçün çalışıram. Gəlib Türkiyəmizi görsən, təəccüb içində qalarsan. Deyərsən ki, xəyaldır, yuxudur.
Mehmet danışarkən, Türkiyəni dərhal görmək istədim. Bambaşqa bir nizam, başqa bir dünyagörüşü haqqında danışırdı. Lakin mənim fikrim Mehmetdə idi. Sevdiyi bir qızın olub-olmadığını düşünürdüm.
Artıq hər gün bərabər gedib-gəlirdik. Ona yaxşıca alışmışdım. Onu görmədən qala bilmirdim. Lakin onun fikrini tam anlaya bilməmişdim... Bu da məni çox narahat edirdi. Bilirdim ki, mən Mehmetin xoşuna gəlirəm. Lakin aramızda dini problem vardı... Ya o katolik olmalı idi, ya da mən müsəlman. Artıq dözə bilməyib vəziyyəti anama danışdım. Anam bunları eşitcək xeyli sarsıldı. Eşitdiyi müdhiş xəbərə inanmaq istəmədi.
– Nəə! Yəni sən müsəlman olacaqsan?
– Eşq olsun, anacan. Mən heç müsəlman olaram? Çalışıb onu xristian edəcəyəm. Lakin necə edəcəyimi bilmirəm.
– Heç dayanma, qızım. Bir müsəlmanı xristian etməkdən daha böyük bir xoşbəxtlik tanımıram, yer üzündə belə bir xoşbəxtlik vardırmı? Yəhudilərlə, buddistlərlə lazım olduqda anlaşıb birlikdə qərara gələ bilirik. Lakin müsəlmanlar donuz kimidirlər!! Ayy, onlardan iyrənirəm! Görüm Mehmeti xristian edə biləcəksən, ya yox? Elə et ki, zəfər bizim olsun.
– Sən qətiyyən narahat olma, ana. Onu mütləq xristian edib kəbinimizi də kilsədə kəsdirəcəyəm.
Mehmetlə əlaqədar bütün xəyallarım evlilik üzərində yaranırdı. Artıq üç ay idi ki, Mehmetsiz bir günüm belə olmurdu.
– Səni xoşbəxt edəcəyəm, Mariya. Səni röyalar aləmi ölkəmə aparacağam. Yeni bir dünya qurduğumuzu sənə göstərəcəyəm.
Bu mənə bir evlənmə təklifi idi. Artıq yaxşıca inanırdım ki, Mehmet mənsiz yaşaya bilməz. Məni sevirdi, mənə aşiq idi Mehmet. «Səninlə evlənə bilməsəm, ölərəm, yaşaya bilmərəm. Lakin aramızda maneələr var. Bu maneələr bizim qovuşmağımızı istəmir», – deyərdi. Bax yenə onunla birlikdəyəm. Gəzirik. Bu gün kilsəyə belə getmədim. Aman Allah, mən nə üsyankar bir qızam. Artıq ilk gündən güzəştə getdim. Xeyr, Mehmet üçün bu güzəştə getməməliyəm.
Birdən saatı soruşdum, sonra təlaş içində:
– Mehmet, tez kilsəyə getməli, ayinə çatmalıyam. Sən də gələ bilərsənmi? Məni çöldə maşında gözləyərsən.
– Əlbəttə, gözləyərəm, Mariyam. Yetər ki sən istə. İstəsən kilsəyə girib ayini də izləyə bilərəm.
Az qalmışdı ki, sevincdən dəli olum. Qışqıracaqdım ki, ağlım başıma gəldi. Sakit olmalıydım. Özümü elə aparmalıydım ki, onun kilsəyə gəlməsi sanki məni maraqlandırmır...
– Əlbəttə, məmnun olaram. Sənin üçün də bir dəyişiklik olar.
Birlikdə kilsəyə getdik. Mən oxunan dini nəğmələri eşitmirdim... Fikrim-zikrim Mehmetin yanında idi. Məni yalnız Mehmet düşündürürdü. Ondan başqa heç kimi düşünə bilmirdim. Xristian olduğum halda, bir çox cəhətdən müsəlman kimi davranırdım.
Axşam evə gələndə baş verənləri anama danışdım. Anam da çox sevindi.
– Sənin ilk dəfə aşiq olduğunu görürəm... Arzum budur ki, könlünün istədiyinə qovuşasan.
– Ana, sən də aşiq oldunmu?
– Mən... Mən də aşiq oldum, lakin o başqasını məndən üstün tutdu. Bilirsənmi, biz tez-tez oğlan dəyişdirdiyimiz üçün aşiq olmazdıq... Kişilər də belə idi. Anam danışardı. Əvvəllər qərb dünyasında qadın-kişi əylənmələri yox imiş. İndi zaman dəyişdi. O cür kişi-qadın əylənmələri arasında yenə də aşiq olmuş, bir daha da heç kimi sevə bilməmişdim. Lakin sən özünə məndən də çox zülm edirsən. Dəyməz, qızım, dəyməz. Müsəlmanlara dəyməz. Daha doğrusu, onların sədaqətinə inanmaq olmaz.

– Lakin onlar sevdiklərini başqa kişilərə vermirlər. Hansın etdiklərini düşünsənə. Mənə «Əylənmək üçün birini tap» – dedi. Lakin bir müsəlman heç vaxt belə bir söz deməz.

– Qızım, sənin söylədiyin müsəlman Quran kitabında qaldı. İslam ölkələri, rəqs edərkən, arvadını başqa kişinin qollarına verən kişilərlə doludur.

– Lakin onlara rəqsi biz apardıq. Hər rəqsin də öz psixologiyası var. İnsanlar kimi.

– Orası önəmli deyil. Önəmli olan bizim apardıqlarımızı sinələrinə həzm etdirmələridir... Donuzları necə də özümüzə tabe etdik. Məni narahat edən öz dinimizin kökündən uzaqlaşması oldu. Kaş ki onlara hər mədəniyyəti verəydik, amma dinimiz pozulmayaydı. Biz onları pozduq, lakin bu arada əvvəla özümüzün pozulduğumuzu görə bilmədik. İsa bizə kömək olsun. Bu gediş heç də xoş deyil.

– Ana, keçmişi buraxaq. Mən Mehmetə təsir edib onu necə xristian edə bilərəm? Sən mənə onu başa sal.

– Bu mövzuda müqəddəs atadan kömək istəməlisən.

– Çox gözəl düşündün, sağ ol, anacan.

O gecə yata bilmədim. Dayanmadan Mehmeti xristian etməyin yollarını axtardım. Gecəmdə də, gündüzümdə də Mehmet vardı. Mehmetsiz bir dünya düşünə bilmirdim.

Aylar keçdi... Mehmet bizim evə gələndə ona donuz əti yedizdirir, dana əti olduğunu deyirdim. Bu işi görərkən böyük bir zövq duyurdum. Onu öz dinimdə hiss edirdim.

Mehmetin İslamın bəzi əmrlərinə səhlənkar yanaşması xoşuma gəlirdi. İslamın bəzi əmrlərindən çıxdığını görürdüm. Bu da mənə cəsarət verirdi. Mehmet on beş gündən sonra Türkiyəyə getdi. Anasına mənim haqqımda danışacaq deyə sevinirdim... Məni məktubsuz qoymayacaq, sonra da məni oraya dəvət edərək röyalar aləmi olan ölkəsini göstərəcəkdi.

Vəziyyəti atama danışdım.

Gecəyarı olmuş, biz hələ də danışırdıq.

– Deməli, Mehmet getdi. Narahat olma, qızım, başqa Mehmetlər taparsan.

– Amma, ata... Mən başqasını istəmirəm. Onu xristian...

Birdən yadıma düşdü. Axı mən atama dinsiz kimi görünəcəkdim. Sözü dəyişdirib davam etdim:

– Mən onu əsl sosial demokrat edəcəyəm. Əlbəttə, din etiqadı da qalmaz...

– Sənin bir türklə gəzdiyinə sevindim. Səni Türkiyəyə təmsilçi göndərərik. Bizim vəzifələrimizi yerinə yetirər, inqilabların Türkiyədə yerinə yetirilməsi üçün fəaliyyət göstərərsən.

– Yəni mən Türkiyədə qalacam?

– Əlbəttə ki, həmişəlik yox. Altı ay orada, altı ay da burada qalarsan. Onsuz da səni jurnalist olaraq Türkiyəyə göndərməyi planlaşdırırdım. Gözəlsən, cazibədarsan. Mustafa Kamalı ələ alsan, iş tamamdır.

– Lakin mən Mehmetə xəyanət edə bilmərəm, ata. Dünyasında bunu edə bilmərəm.

– Əqidələrin üçün, mübarizən üçün kimisə fəda etməlisən. Yaxşı, Mariya. Kilsə ilə aran necədir?

– Yaman soyumuşam kilsədən. Öz aramızda qalsın, atacan, anam üzülməsin deyə gedirəm. Ayinlər mənə mənasız gəlir.

– Afərin, qızım... Ağıllı insanın dinə ehtiyacı yoxdur. Sonra sənin Allaha da ehtiyacın yoxdur. Nə üçün ona görə bəzi sıxıntılar çəkməlisən?

Buz kimi olmuşdum, donmuşdum. «Sənin Allaha ehtiyacın yoxdur» – demək nədir? Tənəffüs etdiyim hava, içdiyim su, ayaq basdığım torpaq, günəş, yediyim hər şey Allahın deyilmi? Allah verdiyi oksigeni geri alsa, görəsən, nə olar? «Ağıllı insanın dinə ehtiyacı yoxdur» – demək nədir? Ağıl daha yaxşı bilir, yoxsa Allah?

Atamdan buz kimi ürpərdiyimi hiss etdim. Lakin ona qarşı çıxmamalıydım. Onların dərnəyinə girmək üçün belə lazım idi.

Qardaşım Bil də sırtıq-sırtıq gülürdü...

– Mən sənə demədimmi, Mariya, sən dindar olacaq qədər axmaq ola bilməzsən.

Ertəsi gün vəziyyəti anama danışdım:

– Onlara tapşırdım ki, qətiyyən anama deməyin. Anamın xətrinə kilsəyə gedirəm, – dedim. Billə atamı kaş görəydin, ana! Sevinclərindən az qala uçurdular.

– Xain donuzlar... Zənn edirlər ki, qızım da onlar kimi dinsizdir.

Günlər, həftələr beləcə keçir, anamla atam arasında casusluq edirdim. Hər gün Mehmetdən məktub gözləməkdən də yamanca yoruldum. Görəsən, nə üçün məktub yazmır? Amma on beş günü qaldı. Harada olsa gələcək.

Birdən ağlıma Mehmeti İslamdan çıxarmanın bir yolu gəldi... İslamın ən məntiqsiz, zamanın ruhuna uyğun gəlməyən əmrlərini axtarıb tapacam, Mehmet gələndə ondan soruşacağam. Mehmet də cavab verə bilmədikdə İslamdan yavaş-yavaş ayrılacaqdı.

Bu fikrimlə öyünmüş, o gecə gözəl bir yuxu yatmışdım.

Ertəsi gün ilk işim kilsəyə getmək oldu. Proz Məryəm Ana kilsəsinin rahibi çox yaxşı bir insandı. Fikrimi ona da dedim. Məni müqəddəs ata otağına apardı ... Bir kreslo göstərərək:

– Otur görüm, övladım. Dərdin nədir?

– Möhtərəm, müqəddəs ata. Bir gənci sevirəm, o gənc müsəlmandır. Bilirəm müsəlmanla evlənməyimə kilsə icazə verməz. Kilsədən qovulmaq da istəmirəm. Ona görə də o gənci xristian edəcəm. İstəyirəm ki, mənə yardım edəsiniz.

– Necə yardım edə bilərəm ki?

– Mənə İslamın ən məntiqsiz qanunlarından birini öyrədin. Ona o mövzuda sual verim, o da cavab verə bilməsin. Verəcəyim sualın alternativi bizim müqəddəs kitabda olmalıdır. Mən də öyünərək onu deməliyəm. O, bizim dinimizə meyil etməlidir. Bu mövzu haqqında nə soruşa bilərəm?

Adolf ata bir az düşündü:

– Sualmı? Onların dini mənasızdır, məntiqsizdir.

– Məsələn, müqəddəs ata?

– Məsələn, ondan dörd qadınla evlənmək haqqında soruş. İnan mənə, sənə cavab verə bilməyəcək. Peyğəmbərləri belə çox qadınla evli idi. İndiki zamanda belə bir mənasız dinə inanmaq ağıllı bir iş ola bilərmi?

– Çox gözəl, müqəddəs ata. Bu sual çox gözəldir. Mehmet bu sualın qarşısında çaşıb qalacaq. Heç bir haqq qazandıra bilməyəcək, elə deyilmi, müqəddəs ata?

– Əsla. Bu sualın məntiqli açıqlaması yoxdur.

Sevinclə oradan ayrıldım. Maşınıma minib evə doğru gedərkən ağlıma gəldi ki, gedib bu sualı Əbdülvəhhaba verəcəm. Beləcə bir daşla iki quş vurmuş olaram.

Bir dəfə Mehmet onun qaldığı yataqxananı mənə göstərmişdi. Dərhal gedib onu tapdım. Bir az soyuq qarşıladı məni. Bu da, deyəsən, cazibəmin təsiri altında qalmaqdan qorxur? Mənimlə səmimi olmaqdan belə qaçır.

Məni yataqxananın gözləmə salonunda qarşıladı. Otağına aparmağa cəsarət etmədi. Elə bil ona təcavüz edəcəyəm, nədi?

Centlmencəsinə soruşdu:

– Buyurun, Mariya xanım. Eşidirəm sizi.

– İçimdə bir sual yaranıb, Əbdülvəhhab. Sizin dininiz haqqında bir az bilgi əldə etmək istəyirəm.

– Səndəki bu marağın səbəbini öyrənə bilərəmmi?

– Heeç... Birdən ağlıma gəldi. Sizin dininizdə birdən artıq evlilik var. Hətta dörd qadın. Belə mənasız bir dini necə qəbul edirsiniz? Üstəlik Peyğəmbəriniz də çox qadınla evlənmişdir. Belə bir Peyğəmbərin yolu ilə getmək olarmı?

– O halda sizin peyğəmbərin yolu ilə gedək, hə... Nə deyirsən?

– Əlbəttə, çox yaxşı olar.

– Bax, əgər bu işə məntiqi cəhətdən yanaşsaq, işin içindən çıxmaq olmaz. Sizin peyğəmbəriniz də heç evlənməyib. O halda dünyada heç kim evlənməməlidir, elə deyilmi? Qaldı ki, o sizin peyğəmbəriniz deyil. Ona iftira atırsınız. Mən fərziyyə ilə düşünürəm. Nə deyirsən; dünyadakı insanlar heç evlənməməlidir?

Çıxılmaz hala düşmüşdüm. Kəkələyərək cavab verdim:

– Xeyr, evlənməlidirlər. Onsuz da İsa evlənməyi yasaq etməmişdir.

– Bizim Peyğəmbərimiz də tək evliliyi yasaq etməmişdir. Hətta zina etməmək şərtilə kim istəsə, evlənməyə də bilər.

– Lakin istəyən, dörd qadınla evlənə bilər.

– Bax, burada dayan, görüm. Əvvəla bizim Peyğəmbərimizin çox evliliyi o zamana görə müxtəlif səbəblərlə bağlı idi. O vaxt kişilərin çoxunun əlli-altmış qadını vardı. İslam tamamlanmamış, yer üzünə yayılmamışdı. Həzrət Mühəmməd 53 yaşına qədər özündən on beş yaş böyük, iki ərdən ayrılmış qadınla, Həzrət Xədicə ilə evli idi. Həzrət Xədicə ona «Mən artıq qocaldım», – dedi və evləndikdən on beş il sonra «Sən bir də evlən», – dedi.

Lakin Peyğəmbərimiz ən gənc çağlarında belə ikinci dəfə evlənmədi, çünki o, şəhvani arzular üçün evlənən bir şəxs deyildi. Əgər şəhvani istəyinə görə evlənmiş olsaydı, ətrafında gənc qızlar fırlandığı halda, iyirmi beş yaşına qədər subay qalmazdı. Harama girərdi. Baxmayaraq ki, şəhvani istəyə görə evlənmək günah deyil. Lakin onun buna görə çox evlənmədiyinə dəlil gətirirəm. Daha sonra iyirmi beş yaşında ikən, iki ərdən ayrılmış olan qırx yaşındakı Xədicə anamızla evləndi. Həzrət Xədicə ölüncəyə qədər ikinci dəfə evlənmədi. Həzrət Xədicə anamız altmış yeddi-altmış səkkiz yaşında öldü.

Diqqət edin; yetmiş yaşına bir neçə il qaldığı halda, Peyğəmbərimiz də əlli yaşında olmasına baxmayaraq, ikinci dəfə evlənmədi.

Həzrət Xədicə öldükdən bir neçə il sonra Həzrət Aişəni aldı. Daha sonra şərtlərə görə birdən artıq qadınla evləndi. Düşmən qəbilələrdən qız alıb, o qəbilələrlə qohum oldu. Ərəblərdə də bu çox önəmli idi. Bir çox qəbilələr «Məhəmməd bizdən qız aldı, o bizim kürəkənimiz oldu», – deyə müsəlman oldular.

Anam belə deyərdi ki: «Amerikanın müsəlman olacağını bilsəm, ərimə Amerikan prezidentinin qızını alardım».

O müsəlman qadınlarının tək qayəsi ərləri deyil, əqidələri idi. Ərlərinin bu əqidə ilə çox evlənməsinə, əksinə yardım edirdilər.

– O halda indi hər kişi dörd qadın almamalıdır, elə deyilmi?

– Əslində Quranda dörd qadın alın əmri yoxdur. Sadəcə icazə var. O da şərtlərə görə dəyişən bir işdir. Elə kişilər vardır ki, nəinki iki qadın alması, hətta bir qadın alması belə icazəli deyildir. İlk mərhələdə bunu başa düşməyimiz çox çətindir, əlbəttə. Bunu başa düşmək üçün İslam təhsili almaq lazımdır.

İndi isə bu məsələnin alternativini ələ alaq. Allah Quranda «... Bir qadın sizin üçün daha xeyirlidir» – deyir. Hər bir kişi əslində birdən artıq qadınla evlənə bilməz. Bu məntiqə və riyazi qanunauyğunluğa da ziddir.

– Necə yəni?

– Baxın, sizin üçün bir misal deyim. Belə fərz edək ki, dünya əhalisi beş milyard oldu. Hər bir kişinin dörd qadın ala bilməsi üçün bir milyardı kişi, dörd milyardı da qadın olmalıdır. O halda bunu ümumi qayda kimi qəbul etmək olmaz.

Yəni İslama görə olarsa, hər kişi evlənməyə çox qadın tapa bilməz. Lakin Qərb mədəniyyətində, bir kişi evli qadınlarla da əlaqə yaratdığı üçün istərsə, kişilər onlarla qadınla belə əlaqə qurar və sizin mədəniyyətinizdə qurur da. Ən qəribəsi budur ki, on məşuqəyə bəli deyən mədəniyyəti mühakimə etmirsiniz, mində bir meydana gəlməsi ehtimal olunan İslamın verdiyi icazəni mühakimə edirsiniz. Üstəlik İslamda, doğan qadının uşağının bütün xərcləri ataya aiddir. İstər boşansınlar, istər boşanmasınlar. Lakin sizin mədəniyyətinizdə, uşaqların çoxu atasını tanımır. Nə üçün belə heyvanlıq aləmindən aşağılarda qalan mədəniyyətinizi mühakimə etmirsiniz? Müharibələri unutmayın. Bəzi ölkələrdə o qədər az kişi qaldı ki, qadınlar belə çoxevlilik istədilər.

Çaşıb qalmışdım, nə cavab verəcəyimi bilmirdim. Bəli, düz deyir. Hamı bir-birini aldadır, bir kişi, bəlkə də, yüz qadının həyatından keçirdi. Mənim atam belə məlum deyildi.

Müqəddəs ata məni yanıltmışdı. «Heç bir məntiqi izahı yoxdur» – demişdi. Lakin Əbdülvəhhab çox gözəl məntiqli dəlillər gətirirdi.

Yenə üzüntü içində müqəddəs atanın yanına getdim. Çox üzgün olduğumu bildirərək yalvardım.

– Müqəddəs ata, mənə daha məntiqli... Haqq qazandırılması mümkün olmayacaq bir şey söylə. Çoxarvadlılıq sualı baş tutmadı.

Müqəddəs ata başını qaşıdı... «O halda dayan, məni dinlə. İslamda zəkat müəssisəsi vardır. Biz deyirik ki, Peyğəmbər zəkatı öz çıxarı üçün ortaya qoymuşdur. Heç bir səbəb olmadan niyə belə bir şey ortaya çıxarsın ki? Əlbəttə, Xədicənin pulu qurtardı. Belə olduqda zəkalı Məhəmməd «Allah buyruğu» – deyib, özü üçün pul yığmanın yolunu tapdı».

– Bəli, bu çox gözəldir. Artıq bu mövzuda da o gənci sıxışdırım.

Müqəddəs ata bu gəncə görə bir az narahat olmuşdu.

– Mariya, getməsən, daha yaxşı olar.

– Yox, müqəddəs ata. Mehmet gələnə qədər çox məlumatlı bir şəkildə hazırlaşmalıyam. Onu xristian etməsəm, necə evlənə bilərəm?

Həyəcanla maşınımı işə saldım. Yenə Əbdülvəhhabı tapdım. Həmin salonda oturduq. Özümdən arxayın bir şəkildə sual verməyə başladım:

– Sizin Peyğəmbər dininizi çıxarı üçün istifadə etmişdir.

– Aaa, bu nə sözdür? Əslində Həzrət Məhəmməd deməklə İslam demək eyni mənanı daşıyır. Belə çıxır ki, özü özündən istifadə etmişdir?

– Xeyr, xeyr. Mən hələ sualımı verməmişəm.

Özümdən və sualımdan elə arxayın idim ki, yerimdə dayana bilmirdim.

– Nə üçün zəkat deyilən bir şey meydana çıxartdı Məhəmməd? Pulsuz qalmışdı, elə deyilmi?

Məni gözəlcə dinlədikdən sonra dərin bir nəfəs alıb danışmağa başladı:

– Ey İsanın və Məryəmin bütlərinə pərəstiş edən qız! Mənə yaxşı qulaq as. Bunu da unutma ki, İslam müqəddəs atanın söylədiyi kimi bir din deyildir. İslam Həzrət Məhəmmədin təbliğ etdiyi dindir.

Sənə yol göstərən xocan burada da bir səhvə yol verdi. İslama görə Peyğəmbərin zəkat alması haramdır. Hətta nəinki Peyğəmbərə, onun ailə üzvünə də haramdır.

Bir gün Həzrət Həsən zəkat olan xurmadan bir dənə xurma götürdü. Peyğəmbərimiz o bir xurmanı belə yedizdirmədi Həzrət Həsənə.

İkinci dəfə çıxılmaz vəziyyətə düşürdüm:

– Nə, nə... Nə dediniz? Zəkat Peyğəmbərə haramdır?

– Bəli, çox təəssüflər olsun ki, elədir, xanım qız. Lakin digər fəqir müsəlmanlara haram deyildir. Dinimiz insanlara comərdliyi, əliaçıqlığı tövsiyə edir.

Zəkat yalnız bir yardım fondudur. Zənginlərin zənginlik vergisidir. Hər zəngin vergi versə, dünyada fəqir qalmaz. Əsl məsələ o sistemi tam yerli-yerində tətbiq etməkdir.

Baxın görün Uca Allah bu ayəsində nə buyurur:

**«Allah tərəfindən bəxş olunmuş mal-dövləti sərf etməyə xəsislik edənlər heç də bunu özləri üçün xeyirli hesab etməsinlər. Xeyr, bu onlar üçün zərərlidir. Onların xəsislik etdikləri şey Qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur!»** («Ali-İmran», 180)

**«(Ya Mühəmməd!) O şəxsləri görmürsənmi ki, onlara: «(Müharibədən) əl çəkin, namaz qılın, zəkat verin!»-deyilmişdi. Onlara cihad etmək vacib olduqda isə, içərilərindən bir qismi Allahdan qorxan kimi və ya daha artıq insanlardan qorxuya düşərək: «Ey Rəbbimiz! Cihad etməyi nə üçün bizə vacib etdin, nə olardı ki, bizi yaxın zamana qədər yubandıraydın!» – dedilər. Onlara söylə: «Dünyanın ləzzəti və faydası azdır, lakin müttəqi üçün axirət daha xeyirlidir. Sizə (müttəqilərə) xurma çərdəyində olan nazik tel qədər belə zülm olunmayacaqdır!»** («Nisa», 77)

Bəli, bizim əqidəmiz budur. Namazı dopdoğru qılanlar, zəkat verib digər hökmləri yerinə yetirənlər azacıq belə zülm görməyəcəklər. Lakin Allahın Peyğəmbərinə iftira atanlar, dünyanı versələr belə, Cəhənnəm əzabından xilas ola bilməyəcəklər. Həm uca İslam dininə inanmırlar, inanmadıqları azmış kimi İslam dinində səhv axtarırlar. Bax, gör bu mövzuda Allah «İbrahim» surəsində nə deyir:

**«O kəslər ki, dünyanı axirətdən üstün tutur, (insanları) Allah yolundan döndərir və o yolu əyri hala salmaq istəyirlər. Onlar (haqq yoldan) azıb uzaq düşmüşlər»** («İbrahim», 3).

**«Kafirlər (Qiyamət günü), yəqin ki, müsəlman olmalarını istərdilər!»** («Hicr», 2)

İslam zəhmətsiz öyrəniləcək bir din deyildir. Sən də müsəlman olmadığın üçün o gün çox peşman olacaqsan.

Başım hərlənirdi. Özümü görürdüm Quranda... «O kəslər ki, dünyanı axirətdən üstün tutur, (insanları) Allah yolundan döndərir və o yolu əyri hala salmaq istəyirlər». Bəli, bəli məndən danışır.

Çox təsirləndim. Dərhal özümü ələ alıb, «Yox canım, bu bir təsadüfdür» – deyə özümə təsəlli verdim.

Müqəddəs ataya çox qəzəblənmişdim. Məni Əbdülvəhhabın qarşısında alçaltmışdı... Ağlaya-ağlaya kilsəyə gəldim. Müqəddəs ata getmişdi... Evə döndüm.

Qapını atam açdı. Kefimi soruşdu. Xəstəyəm deyib yola verdim. Düz yataq otağıma keçdim. Hıçqıra-hıçqıra ağladım. Bilmirdim, Mehmetin gəlməsinə on beş gün qaldığına görə üzülüm, yoxsa, belə rəzil olduğuma görəmi? Boş sözlərlə beş qəpik qiyməti olmayan müsəlmanların qarşısında rəzil oluram. Sabah baş keşişdən ən maraqlı, ən tutarlı sualı öyrənib o müsəlman töküntüsünün yanına gedəcəm.

## QƏLBİMLƏ ƏQİDƏM ÇARPIŞIRMI?

Birdən anamın başımın üstündə dayandığını gördüm. Ona sarılaraq ağlamağa davam etdim.

– Başa düşürsən, ana? Sadə bir müsəlmanın qarşısında necə əzildim. Gülməli vəziyyətə düşdüm. Bizim ruhanilər İslamı rədd edərkən bu naqis məlumatlara dayanırlarmı? Heyrətləndim, ana, nə edəcəyimi bilmədim. Mehmet xristian olmasa, məhv olaram. Ölərəm, ana, ölərəm.

Birdən ağlıma gəldi:

– Ya da kilsəyə üsyan edər, kilsədən qovulmağı da gözümün önünə alaram.

– Sən elə bir şey etməzsən, mən səni tanıyıram. Sən bir müsəlmana görə İsanı, Məryəmi narahat etməzsən. Allahı narahat etməz, İncili bir kişiyə görə satmazsan.

Bir az açılmışdım. Nə boş-boş danışırdım?

– Əlbəttə, satmaram, ana. Sən mənim çaşqınlığıma baxma. Boş-boş danışıram. Çox qəzəbləndim müqəddəs ataya.

– Tövbə et, Mariya! Müqəddəs ataya dil uzatma.

Səsimə nəzarət edə bilmədən bağırmağa başladım:

– Ana, müqəddəs ataya dil uzatmıram. Qəzəbimi dilə gətirirəm. Özümdən asılı deyil.

– Tərbiyəsizlik etmə. Qəzəblənsən də, müqəddəs atanı təhqir edə bilməzsən.

– Ana, söyərəm indi sənin müqəddəs atanı! Məni rəzil etdi. Qəzəblənə də bilmərəm? Başa düşürsən, bir müsəlmanın qarşısında alçaldır məni. Lakin sabah baş rahib...

Birdən atamı qapıda gördüm. Atamın mövzudan xəbəri yox idi, lakin mənim keşişə üsyan etdiyimi eşitmişdi.

– Haqlısan, qızım, haqlısan. Keşişlər və başqa din adamlarına ağıllı bir şey söyləsən, ən pis adam sən olursan. O saat üsyan olur. Sanki hər biri bir peyğəmbər, bir ilahdır.

Atamın danışıqları da canımı sıxırdı, amma səsimi çıxara bilmirdim.

O gecə yenə yuxum qaçdı... Yuxuya gedən kimi röyamda Əbdülvəhhabın qarşısında rəzil olduğumu görürdüm.

## BAŞ KEŞİŞ MAYKL

Nəhayət, baş keşişlə görüşəcəm. Ürəyim həyəcandan bərk döyünür. Görəsən, mənə necə ağıl verəcək, nə söyləyəcək?

Çox keçmədən baş keşiş gəldi. Ayağa qalxdım. «Otur!» – dedi. Kübarca oturdum. Hər şeyi əvvəldən danışdım. O da dinlədi. Məni dinlədikdən sonra bir qəhqəhə çəkdi və özündən çox arxayın bir şəkildə mənə cavab verdi:

– Nahaq yerə narahat olmusan, Mariya. Mən sənə elə mükəmməl bilgilər verəcəm ki, haqqında danışdığın uşaq qarşında bir saniyə belə dayana bilməyəcək.

– Ah, doğrudan, müqəddəs ata. Allah sizi qorusun. Məni çox sevindirdiniz. Əcəba, fikriniz nədir?

– Hər şeydən əvvəl sən onunla Quran haqqında mübahisə et. İncil varkən Allah nə üçün başqa bir kitab göndərməlidir ki? Mühəmməd Quranın təlimlərini İncildən götürmüşdür. Onlar buna ayə deyirlər. İlk görəcəyin iş budur. İkinci və çox əhəmiyyətli bir mövzu qadınlara olunan haqsızlıqdır. Bir düşün, qadın yarım, kişi isə bir miras alır. Ya da qadın bir, kişi isə iki miras alır.

Səbəbi də budur. Müsəlmanlara görə qadın yarım insan qəbul edilir. Ona görə də mirası yarım alır.

– Müqəddəs ata, əgər buna da bir açıqlama gətirərsə?

– Gətirə bilər. Amma bunun məntiqli açıqlaması ola bilməz.

– Bəli, çox haqlısınız. İncil ola-ola Allah nə üçün başqa bir kitab göndərsin ki? Miras mövzusu da çox əhəmiyyətlidir.

– Bir də şahidlik mövzusu var. Bir kişinin yanında iki qadını şahid olaraq göstərirlər. Mühəmməd fəlsəfəsi iki qadına bir kişini bərabər dəyərdə tutur.

– Aaa, doğrudan? Doğrudan, Quran belə deyir?

– Eyni ilə söylədiyim kimi. Qadınlarda maraqlı bir təzyiqə məruz qalma vardır ki, bu da onların haqqının tapdalanması deməkdir.

– Bax, indi Vəhhabı pərişan edəcəm. Mürtəce Vəhhab qadınlara belə xor baxılmasına necə göz yumur?

Baş keşişə necə təşəkkür edib, oradan ayrıldığımı xatırlaya bilmirəm. Maşınımı necə idarə etdiyimi bilməz bir şəkildə Vəhhabın yanına qaçırdım. Az qalmışdı ki, qəza törədim. Əl əyləcini belə çəkmədən maşınımı yerindən qaldırmışam.

Yataqxanaya gəldikdə Vəhhabı qapıda yaxaladım. Məni görüncə çaşqınlığa düşdü:

– Xeyir ola, xanım Mariya? Yenə nə olub?

– Bu dəfə sən çıxılmaz vəziyyətə düşəcəksən. İstəyirsənsə, gəl bir kafeyə gedib orada danışaq.

– Kafemi? Xeyr olmaz. Gəl yenə yataqxananın salonunda danışaq.

İçimdə, «İndi sən baxarsan», – dedim. Sevincli idim. Belə bir naqislik əsla izah edilə bilməzdi.

– Əbdülvəhhab, Quran Allah kəlamı deyil, bunu bilirsənmi?

İstehzalı bir ifadə tərzi ilə:

– Ooo! Bunu necə kəşf etdiniz?

– Siz İncilin Allahdan gələn bir kitab olduğuna inanırsınızmı?

– Əlbəttə, inanıram. Lakin orijinal İncilə inanıram.

– Madam Allahdan gəldi, nə üçün Allah bir kitabı göndərdikdən sonra təkrarən Quranı göndərsin?

– Siz Tövrata inanırsınızmı?

– Əlbəttə.

– O halda Tövrat varkən nə üçün İncil gəldi?

Birdən başımdan şiddətli bir ağrı tutdu. Cavab verə bilmədim. O davam etdi:

– Tövrat varkən İncilin, İncil varkən Quranın gəlməsi sünnətullahdır (ilahi adətdir). Daha əvvəl, on əmr varkən əlli əmr, Zəbur varkən Tövratı göndərdi. Allah hər qövmü başqa bir şəriətlə imtahan etdi. Lakin təməl qanunlar Həzrət Adəmdən bəri eynidir. Beşinci sinfi bitirib orta məktəbə gedən şagird başqa dərslər oxuyub imtahan verir, lakin təməl prinsiplər eynidir. Bu mövzu haqqında ən azı beş kitab yazıla bilər. Burada bir neçə dəqiqə ərzində bunu anlatmaq olmaz.

– Bəs miras mövzusu? Nə üçün İslam dinində qadınlar kişilərin yarısı qədər miras alır? Deməli, qadını yarım insan hesab edir; elə deyilmi?

– Bax, məni diqqətlə dinlə. Bir neçə sözlə başa salmağa çalışacağam. İslam dinində qadın heç kimə baxmaq məcburiyyətində deyil. Nə uşağının nəfəqəsini, nə də ərinin nəfəqəsini verməyə məcburdur. Bir evdə iki bacı-qardaşın varlığını düşünək. Bunlar öz sevdikləri ilə evlənirlər. Fərz edək ki, hər birinin üç uşağı oldu. Hər iki tərəfin də yaşlı valideynləri var. Kişinin ailəsi belədir: 3 uşaq, 1 həyat yoldaşı, 1 özü, 2 də valideyni. Cəmi yeddi şəxs olur. Bu yeddi şəxsə oğul övladı baxmaq məcburiyyətindədir. Lakin həmin kişinin bacısı isə heç kimə baxmağa məcbur deyil. Əgər özü zəngin, valideynləri fəqirdirsə, yalnız o vaxt onlara baxması lazımdır.

Bu vəziyyətdə deyə bilərsənmi nə üçün kişi ilə qadın eyni bərabər miqdarda miras almalıdır? Bərabər alarsa, bərabərlik olar, lakin ədalət olmaz.

– Yaxşı, bəs şahidlik mövzusu?

– Nə var ki, şahidlik mövzusunda?

– Bir kişiyə qarşılıq iki qadın şərtmiş. Əlbəttə, qadını yarım insan qəbul etdiyiniz üçün belə olur, elə deyilmi?

– Doğrudan? Keşişləriniz elə deyirlər? Yazıqlar olsun sizə! Hey aldanırsınız.

Baxın, xanım Mariya. İslam nə sizin bildiyiniz kimi bir din, nə də bugünkü müsəlmanların bildiyi kimi bir dindir.

Bir şeyi Allahdan gözəl kim bilə bilər?

Bu mövzu haqqında Allah belə bir açıqlama gətirir:

**«... Əgər iki kişi olmazsa, razı olduğunuz bir kişi ilə iki qadının şəhadəti kifayətdir. Əgər qadınlardan biri unudarsa, o birisi onun yadına salsın. ...»** («Bəqərə», 282). Baxın, burada əsas yada salma mövzusudur. Qadın kişiyə nisbətən çox həssasdır. Uşaqları ilə də ən çox o məşğul olduğu üçün yadından çıxara bilər. Həm də iman mövzusunda bir imtahandır bu ayə.

Bəli, qadınlar çox həssasdır. Hissiyyatlıdırlar. Unuda bilərlər... Bu iş bir neçə mövzu haqqında belədir. Əgər sizin yarım insan iddianız doğru olsaydı, İslam dini, bir şəxs, başqa bir şəxsi öldürərsə, o şəxs ölümlə cəzalandırılardı. O halda kişini öldürənlə qadın öldürənə eyni cəza verilməz, «Necə olsa qadın yarım insandır, o halda cəzanı da yarım verək» – deyərdi.

Görürsünüz ki, hadisə başqa şəkillərdə göstərilir sizə. Hətta elə hallar vardır ki, orada yalnız qadının şahidliyi keçərlidir.

– Ola bilməz... Gör başıma nələr gəldi. Allahım, ölmək istəyirəm mən, ölmək!

Özümü saxlaya bilmədim, ağlamağa başladım. Əbdülvəhhab da mənim bu halıma təəccübləndi:

– Niyə ağlayırsan, xanım Mariya. Sizə kömək edə bilərəm.

– Kömək edə bilməzsiniz! Dinimi sizin qarşınızda müdafiə edə bilmirəm.

– Quranın qarşısında heç bir şey müdafiə oluna bilməz. Belə düşünməyin, xanım Mariya. Müsəlman olun, həm İncilə, həm İsaya yenə də inanın... Niyə özünüzü bu qədər üzürsünüz?

İndi də öz dini problemlərimi, mənim dinimə inanmayan bir şəxsə danışmaq məcburiyyətində qalırdım... Allahım, bu nə böyük alçaqlıqdır! Güclə bir neçə söz deyə bildim.

– Mən müsəlman olmaram, Əbdülvəhhab. Mən sənin qarşında əzildiyim üçün faciəvi şəkildə sarsıldım.

– Aa, burada narahat olacaq nə var, xanım Mariya? Yalnız siz deyil, Papanızı gətirsəniz, İslamı bilənlərin qarşısında məğlub olmağa məhkumdurlar, siz üzülməyin... Cavab verə bilməyən siz deyil, sizin dininizdir.

Ağlamaqdan güclə soruşa bildim:

– Sizi bizim keşişin yanına aparsam, onunla mübahisə edə bilərsinizmi?

– Əlbəttə, mübahisə edərəm. Lakin mənim də bilmədiklərim var. Bildiyim mövzuları soruşarsa, onu mütləq susduraram. Susmasa belə, danışdıqları mənalı cümlələr olmaz. Sadəcə etiraz etmək üçün danışar.

– Rica edirəm, bizim din adamlarımıza dil uzatma.

– Əslində mən rica edirəm. Dil uzatmaq nə deməkdir? Şübhəsiz, onların içində də dürüst insanlar var. Bizim sözümüz bu mövzuda məsum olan alman və ya ingilisə deyil. Dinimizə və İncilə iftira edənlərədir.

– Necə yəni.

– İncil «Zamana uyğun gəlmir», – deyə onu təhrif etdilər. Səhv başa düşməyin, biz alman xalqına, ya da bütün keşişlərə dil uzatmırıq. Xristianlara da bir sözümüz yoxdur. Xristian dünyasının imperialistləşməsi və İncilin hökmünün dəyişməsi bizi belə danışdırır.

– Rica edirəm... Artıq sizin boş-boş danışıqlarınıza dözə bilmirəm. Keşişlə görüş vaxtı təyin edim. Nə deyəcəksiniz ona deyin.

Razılaşıb ayrıldıq. Evə gələndə atamla danışmağı düşündüm... Xidmətçimiz Veraya iki qəhvə hazırlamasını tapşırıb atamın iş otağına getdim.

– Gəl, gözəl qızım, otur görüm. Səninlə ata-bala bir az dərdləşək. Son günlərdə səni kefsiz görürəm.

– Haqlısan, ata...

– Hansa görə narahatsan?
– Allah qorusun. Hans həyatımdan çıxdı, ata. Bilirsən ki, Mehmet var. Bu yaxınlarda gəlir.
– Hans Amerikaya getdiyinə görə belə edirsən, səni başa salım. Onu təcili mən göndərdim. Bir məktub aparmalı idi.
– Ata, özünü yorma. Hans məni zərrə qədər də olsun maraqlandırmır... Ata, yadımda ikən soruşmaq istəyirəm. Sən İncildən necə ayrıldın?
– Çox bəsit. Zamana uyğun gəlmədiyini gördüm.
– Yəni Allah tərəfindən gəldiyinə inanmırdınmı?
– Əlbəttə, inanmırdım.
– O halda sən Allaha inanmırsan.
– İnanıram, mütləq atomu elementə, elementi hüceyrəyə çevirən, xromosomları belə böyük bir ciddiyyətlə nizamlayan biri var.
– O halda onun səhv etdiyini necə fikirləşə bildin? O, bu zaman üçün lazımlı olan şeyin nə olduğunu bilmirdimi? Yoo... Sən İncilin Allahdan gəldiyinə inanmırsan. Allahdan gəldiyinə inansaydın, təbiətin səkkiz milyard illik nizamını həmin şəkildə idarə etməsi, bu xariqəladə hadisənin Allah tərəfindən nizamlanmış olması da sənə sübut olardı.
– Aaa, bax məni üzürsən. Sənin ateist olacağını gözlədiyim bir halda, sən gör necə danışırsan. İncil Allahdan gəlmişdirsə, Allah mütləq doğru danışırsa, keşişlər nə üçün bunu dəyişdirirlər. Onlar Allahdan yaxşı bilirlər?
– Ata, bəs Allah Öz müraciətini başqa bir kitabla bildirirsə, necə?
– Məsələn?
– Məsələn, Quran.
Böyük bir qəhqəhədən sonra atam cavab verdi:
– Məni güldürmə, qızım. Allahın müraciətini alan Quran tərəfdarlarını görürəm. Allahdan müraciət alanlar belə olarmı? Bax, Misir, Suriya, Əlcəzair, Albaniya, Azərbaycan, Türkiyə ... Ağlına hara gəlirsə gəlsin. Get görüm bu ölkələrdəki insanlar, xüsusən, gənclər kimin müraciətini dəstəkləyirlər?
– Fəqət bu dediklərin Quranı boşa çıxarmaz, Qurana qulaq asılmadığını isbat edər.
– Sən indi  müsəlman olmaq istəyirsənmi?
– Allah eləməsin, ata! O nə sözdür? Sadəcə böhran keçirdiyim üçün soruşuram. Keşişlər canımı sıxır. Sadə bir müsəlmanın, mürtəcenin qarşısında pərişan oldum. Sabah Rahibə Monikanın yanına gedib ondan bir az dərs alacam.
Birdən yadıma düşdü. Bəs mən atamın yanında dinsiz kimi görünəcəkdim. Birdən-birə sözü dəyişdirdim:
– Nə üçün gedəcəyimi bilirsənmi, ata, xristianlıq haqqında yaxşı məlumatım olarsa, ona qarşı içim daha çox rahat olar, deyə düşünürəm.
– Əminsənmi?
– Bəli, ata.
– Amma mənə elə gəlmir. Səni son günlərdə qəribə görürəm... Üzgünsən. İstəsən dinində qala bilərsən. Lakin «Mehmetə görə İslam dinini qəbul edim» – deyərsənsə, səni öldürərəm. Bilirsən ki, mən çox anlayışlı bir insanam. Amma İslamı qəbul etsən, məndən anlayış gözləmə.
– Aman, ataaa... Haradan çıxarırsan bunu? Doğrudur ki, mən Mehmeti çox sevirəm, amma bir Mehmetə görə mən əqidəmdən dönərəmmi?
– Yaxşı, anan hanı?
Qəhvələrimiz də gəlmişdi. Anamın evdə olmaması qəhvənin içində itdi. Biz atamla söhbətə davam etdik. Bir ara mövzu yenə Mustafa Kamala gəldi:
– Qızım... Canım övladım. Çox gözəl bir qızsan. Mustafa Kamal səni görən kimi özündən gedəcək. Həyatında çox qadın və qız var. Sən də onun həyatına girib, onun vasitəsilə müsəlman qadınına çimərlik kostyumu geyindirməyə nail olsan kifayətdir. Ah, hələ bir onunla evlənsən... Türkiyə biri gün bizim olacaqsa, o zaman sabah bizim olar. Sonra Atatürk çox yaraşıqlıdır haa... Onu görsən çox şeylər dəyişəcək.
– Ata... Rica edirəm məni başa düş. Mən Mehmetin sevgisini min Kamala dəyişmərəm. Onun yaraşıqlı olması məni maraqlandırmır.
– Qızım, axmaqlıq etmə. Bu, sənin üçün çox böyük fürsətdir... Bax, fransız jurnalisti Madam Qavlis istəyinə necə müvəffəq oldu... Türkiyə Böyük Millət Məclisinə ilk girən qadın o oldu. Lakin zənn etmirəm ki, Atatürklə yaxın əlaqəyə girmiş olsun. Həm də çox cazibədar bir qadın da deyil. Bir dəfə də Atatürk onunla maraqlanmamışdır. Amma səninlə maraqlanacaq...
Sən Allah, mənim qəlbimi sındırma, Mariya! Yeni mədəniyyətimizi, azad və müasir fikirlərimizi yaymalıyıq...

– Aman, ata... Türkiyədə gözəllik müsabiqəsi keçirilirmiş. Qadınlar çoxdan çimərlik kostyumu geyiniblər. Daha nə istəyirsiniz?

– Məsələ bu çimərlik kostyumu ilə bitməz. Müsəlmanların hamısını bu mədəni atmosferə sala bilirikmi? Atatürkü belə sevməyənlər var orada. İmkanları olsa onu asarlar. Bu ölkədə Atatürkü tək buraxa bilmərik. Hər bir işdə ona kömək etməliyik.

Atam danışdıqca beynim çaşqınlıqdan haldan-hala düşürdü. Və fikrimdə dörd şey vardı:

Mehmet.

Atamın dinsizliyi.

Hələ də bir maddəsinin boşa çıxarıla bilmədiyi İslam.

Və Əbdülvəhhabın, keşişin qarşısında nə edəcəyi.

Ay Allah, necə də hər tərəfdən şeytan dördbucağı ilə mühasirəyə alınmışam? Nə üçün hələ də məktub yoxdur? Allahım, onu nə üçün sevdim, belə bir sevgi olarmı, Allahım? Olarmı?

## HƏR KƏS GÖZƏL ÖYÜD VERƏ BİLMƏZ

Rahibə Monikanın yanına gedib dərdimi danışdım. Təmiz, namuslu bir qadındı Monika. Mənə çox gözəl təsəlli verirdi... İçimdəkiləri ona danışıb sakitləşdim, sonra onun evindən çıxdım.

Həyətin qapısına yaxınlaşmamışdım ki, köhnə dostum Veranı gördüm. Onu qucaqlayaraq ağlamağa başladım.

Məni evinə apardı. ... «Danış» – dedi, «nədir dərdin?» Baş verənləri bir-bir ona danışdım.

Vera mənə başqa məsləhət verdi.

– Sən axmaqsanmı, Mariya? Madam ki elə bir insanı sevirsən, təkcə dinə görə nə üçün onu rədd edirsən ki?

– Mən rədd etmirəm. O: «Sən qatı bir dindarsan, bu da aramızda problem yaradacaq» – dedi. Mən də onu xristian etməyə çalışıram. Hələlik isə buna müvəffəq olmamışam.

– Heç yoxladınmı?

– Xeyr, lakin hazırlaşıram. Amma keşişlər məni ümidsizliyə yuvarlandırdılar. Az qala dinimə şübhə edəcəkdim... Allah eləməsin! Bir anlıq böhran keçirdim.

– Sən Allah üzülmə, Mariya! O xristian olmazsa, sən müsəlman olarsan.

– Allah eləməsin! İsa kömək olsun mənə! Ölsəm də, müsəlman olmaram. Müsəlmanlar öz dinlərini bəyənmədikləri və İslamın əmrlərinə tabe olmadıqları halda, mənmi bəyənəcəyəm İslamı?

– Sən Allah, əl çək bu dini əfsanələrdən. Hansı olursa-olsun, heç bir fərqi yoxdur. Ya da heç olmasın, nə itirirəm ki?

– Aman Allah! Sən də ateistmi oldun?

– Bəli, canım. Müasir bir qadın olmaq istəyirsənsə, özün güclü olmalısan, o zaman dinə və Allaha ehtiyac duymayacaqsan.

Allahım!.. Eyni ilə atamın sözü. Nə olub, görəsən, insanlara. Nə üçün dinsizlik onları özünə çəkir?

Vera məni daha çox sıxmağa başlamışdı. Ən yaxşısı, yenə anamla danışım...

* * *

Axşam evə gələrkən anamı çox şən gördüm...

– Muştuluq istəyirəm, Mariya! Bir sürprizim var!!!

– Ana, Mehmetdən xəbərmi var?!

– Bəli, canım, bir məktub var. Bir müsəlman məktubuna əlim dəydiyi üçün iyrənirəm, amma hər şeyə səni xoşbəxt etmək üçün qatlanıram. Al məktubunu.

– Allah! Bu bir yuxudur. Mən haradayam, Allahım?!! Allahım!!!

Məktubu anamın əlindən necə aldığımı bilmirəm... Dəfələrlə öpdüm məktubu. Açmağa cəsarət edə bilmirdim. Elə bilirdim ki, Mehmet zərfin içindədir, zərfi açar-açmaz içindən uçub gedəcək. Bir insanı bu qədər sevmək nəyə lazımdır, Allahım? Mən bir manyakammı, əcəba? İnsanlar belə çox sevilməyə layiqdirlərmi?

Güc-bəla ilə əllərim titrəyərək məktubu açdım... İngiliscə, səliqəli və gözəl yazılmış bir məktub.

«Sevgili Mariyam, bilirəm ki, məni əsla bağışlamayacaqsan. Haqlısan... Səndən məni əfv etməni istəyəcək üzüm yoxdur.

Bilirsənmi sənə niyə məktub yazmadım? Səni unutmağa çalışdım... Səni unutmaq üçün də tək çarə səninlə əlaqəni kəsməkdi. Lakin bunu edə bilməyəcəyimi, səni çox sevdiyimi anladım... Ona görə də artıq dayana bilmirəm. On gündən sonra gəlirəm...»

Divanın üstündə yıxılıb qaldım. Deməli, məndən ayrılmağı düşünmüş, lakin bacara bilməmişdir. Bu, məni daha çox sevdiyini göstərir...

Artıq bayramım vardı... Birdən sevincim içimdə qaldı. Hələ mən onu xristian edəcək qədər hazırlaşmamışdım.

O gecə yenə atamla söhbət etdik. Hans zəng edibmiş. Atam da Mehmet məsələsini ona deyibmiş. «Eybi yox. Mariya bir az əylənsin. Mən gəlib həll edərəm, nə vaxt qayıdım?» – deyə atamdan soruşubmuş. Deməli, sırf məktub aparmamışdır. Böyük işlərlə məşğuldur.

«Gəlib həll edəcəkmiş... Axmaq Hans. Özünü nə sayır? Başa düşmür ki, mənim dünyam Mehmetə aiddir». Kaş gəlib mənə bir kəlmə deyəydi, mən də onun üzünə tüpürəydim. ...

Ertəsi gün tezdən qalxıb müqəddəs atanın yanına getdim...

– Müqəddəs ata, bu Əbdülvəhhab deyilən müsəlmana mən heç nə başa sala bilməyəcəyəm. Onu sizin yanınıza gətirimmi? Nə olar müqəddəs ata, çox böhran keçirdim. Dostumun gəlməsinə çox az qalıb, lakin mən hələ də bir bilgi sahibi ola bilmədim.

– Yaxşı, qızım... Get gətir onu. Səninlə mübahisə etməklə bizimlə mübahisə etmək eyni şey deyil.

– Mən də yanınızda ola bilərəmmi?

– Əlbəttə, yanımızda olacaqsan.

Sevinərək gedib vəziyyəti Əbdülvəhhaba anlatdım. Məni yenə soyuq qarşıladı.

– Siz nə üçün məni aparmağa tək gəldiniz?

– Ordu ilə gəlməli idim?

Bu sözüm Vəhhabı xeyli güldürdü.

– Əlbəttə, sən özünə görə haqlısan. Bir gənc qızla bir kişinin çox səmimi olması, tez-tez görüşməsi yaxşı bir şey deyil.

– Aman, canım, sən heç narahat olma. Sənə zərrə qədər meyil etmərəm. Mənim Mehmetim var, qorxma.

– Kim dedi ki, mən səndən qorxuram? Bağışlayın, sizdən... Bir hadisədə sadəcə bir tərəfdən qorxulmaz ki. Sənin adına söz çıxarmazlar ki?

– Allah, Allah! Bu nə sözdür belə? Sən adaxlını sevirsən, ona xəyanət etməzsən. Mən də Mehmeti sevirəm, ona xəyanət etmərəm. Eee, kimdən və nədən qorxursan?

– Siz başa düşə bilməzsiniz... Siz qorxmaya bilərsiniz. Mən iki şeydən qorxuram. Birincisi Allah.

– Aaa!.. Bizim bir yerdə olmağımıza görə Allah səni qorxudurmu?

– Sən bu işləri başa düşə bilməzsən. Keçək bunun üstündən.

– Bəs ikincisi?

– Onun da üstündən keçək.

– Onda gedək. Müqəddəs ata bizi gözləyir. Neçə gündür məni mars etmək nəymiş görəcəksən.

– Gələcəyəm, gələcəyəm... Gəlməsəm, mənim keşişin qarşısına qorxduğum üçün çıxmadığımı zənn edə bilərsiniz. Bir, ya da bir neçə xristianın bunu danışmasını istəmərəm. Dayan, bir taksi çağırım.

– Yoo, lazım deyil. Çöldə bir təkəri sizin, digər təkəri qardaşınızın, üçüncü təkəri də o biri qardaşınızın olan, dörddə üç maşınınız var.

– Görünür, o söz sənə çox təsir edib, elə deyilmi?

– Heç də elə deyil. Sadəcə mənim maşınımda haqq sahibi olduğunuzu zənn etməyiniz məni təəccübləndirdi.

Artıq maşına minmişdik. Arxa oturacaqda oturdu.

– Sizin ərəblər Avropa barlarından, diskotekalarından çıxmırlar... Sabahlarını fahişə qadınlarla açırlar. Onlar o qadınlardan qorxmadıqları halda, sənin məndən bu qədər qorxmağına təəccüb edirəm. Bax, qorxduğun üçün qabaqda belə oturmursan. Sən o neft zənginləri ərəbləri, bir gecədə rəqqasələrin başına mark tökən ərəblərinizi görmürsənmi? Onlardakı mədəni cəsarət nə üçün sizdə yoxdur?

– Birincisi, onlar bizim ərəblərdir, lakin bizim müsəlmanlar deyillər. İkincisi, quyruq sallayan dişi itin arxasınca düşən it çox cəsarətli görünür, naz edir, lakin itdir... Deməli, nəfsi müxtəlif əlaqələrə girmək istəyən insanlar dərhal bu arzularını heç bir hüdud tanımadan həyata keçirirlərsə, bu mədəni cəsarəti itlərdən almış olurlar. Mən insanam... İtlərin həyatı kimi bir həyat tərzinin deyil, insanların şəxsiyyətinə uyğun həyat tərzinin tərəfdarıyam.

– Yəni sən ərəblərə it deyirsən?

– Xeyr. «Ərəblərdə də itlər vardır» deyirəm. Doğrusu, hər millətin iti vardır, bunu bilirsənmi?

Nəhayət, müqəddəs atanın qarşısındayıq. Müqəddəs ata Əbdülvəhhabı səmimiyyətlə və sevinclə qarşıladı, «Xoş gəldiniz» – dedikdən sonra kübarcasına ona kreslonu göstərdi. Əbdülvəhhab oturduqdan sonra müqəddəs ata da oturdu. Masası üzərindəki kitabları göstərərək:

– Görürsən, masamda Quran da var. Quranı əvvəldən axıra qədər oxumuşam...

Əbdülvəhhab gülərək cavab verdi:

– Quranı oxumaqla, başa düşmək çox fərqli şeylərdir...

– Bəli, bilirəm. Lakin mən başa düşərək oxumuşam.
– O halda siz müsəlmansınız!
– Xeyr, mən xristianam.
– Lakin Quranın hikmətini müsəlmanlardan başqa heç kim başa düşə bilməz. Başa düşdüyünü zənn edər. Nə isə mövzumuz Quran deyildi, İncildir. İstəsəniz, sonra yenə Qurana qayıdarıq. Həm də Quranı oxumaq və öyrənmək istədiyiniz üçün təşəkkür edirəm. Allahdan istəyim budur ki, Quran yolunda gedənlərdən olasınız. Sizi İslamda gördüyümüzə görə sevinərik. Və siz də İslamla şərəflənmiş olarsınız.
– Çox zarafatcılsınız... Sizdən bəzi şeylər soruşacağam. Bu qızımızın qəlbdən arxayın olmasını istəyirəm.
– İnanın mən də eyni şeyi istəyirəm.
– Sizə ilk sualımı verirəm. Mühəmməd nə üçün özünü Peyğəmbər elan etdi?
– Səhviniz var. Həzrət Mühəmməd özünü Peyğəmbər elan etmədi. Onu Allah Peyğəmbər elan etdi. Baxın, sualınızın cavabını Allahdan alaq... «Mühəmməd Allahın elçisidir». «Fəth» surəsinin 29-cu ayəsinin düz başlanğıcıdır.
– Lakin mənə Qurandan ayə oxumağınız yersizdir. Mən Quranın Allahdan gəldiyinə inansam, müsəlman olardım.
– Təşəkkür edirəm, keşiş əfəndi. Açıq danışmağınız söhbətimizi asanlaşdırır. Birincisi, mən müsəlmanam, əlbəttə, dəlil gətirməliyəm, qaynaqlar da islami olmalıdır. Madam ki siz bunu qəbul etmədiniz, sizə İncildən misal gətirəcəyəm.
Hər şeydən əvvəl Allah Mühəmməd əleyhissəlamın gələcəyini İncildə bildirmişdir, lakin xristianların çoxu Həzrət Mühəmmədin gəlişini həzm edə bilmədilər. Yəhudilər də həmçinin. Hələ də bir elçi gələcəyinə inanırlar. Elçi gəldi, amma bu elçi yəhudi millətindən olmadığı üçün Peyğəmbərimizi qəbul edə bilmədilər. Xristianların çoxu da eyni şəkildə, gələn elçi onlardan olmadığı üçün inanmadılar. Lakin Keşiş Bəhira kimi şəxslər də olmuşdur.
Halbuki bizim əqidəmizdə hər dildən, hər qövmə peyğəmbər gəlmişdir. Bizim üçün önəmli olan Peyğəmbərin peyğəmbər olmasıdır, milliyyət, yaxud dili deyil.
– Siz indi onları deyil, İncildə işarət var dediniz, onu söyləyin, nəymiş o? İncili istədiyiniz kimi yozursunuz. Görəcəksiniz, İncildə belə bir şey olmadığını indi başa düşəcəksiniz.
Yaşasın! Müqəddəs ata gözəl bir şəkildə, həm də özündən çox arxayın halda meydan oxudu. Yaxşıca rahatlanmışdım. Deməli, Əbdülvəhhab gəlişi gözəl sözlər danışırdı. Mən İncili yaxşı bilmədiyim üçün onun qarşısında çaşırdım.
Müqəddəs ata bütün «İncil»ləri masanın üzərinə düzdükdən sonra Vəhhaba baxıb gülümsədi:
– Haydı görək, dəliqanlı. Bu, İncilin harasında yazılıb? «Məndən sonra bir xilaskar gələcək» ifadəsini tap və mənə göstər.
Az qalmışdı ki, ürəyim dayansın. Əbdülvəhhab xəfifcə gülümsəyərək əlini Matta İncilinə uzatdı.
– Al görüm, dəliqanlı... İddia etdiyin «İncil»dən bir dəlil göstər.
– Bəli, bəli... Verin göstərim.
Əbdülvəhhab əvvəl Matta İncilini əlinə aldı.
– Buyurun, Matta 3:11-i oxuyuram. Həzrət İsa deyir ki: «... Məndən sonra gələn isə məndən daha qüdrətlidir. Mən Onun çarıqlarını daşımağa belə layiq deyiləm. ...»
Bilirəm, Barnaba İncilindən sonra bu xəbərin Yəhya tərəfindən verildiyini iddia etdiniz... Həzrət İsanın sözünü dəyişdirdiniz. Baxın Markın İncili 1:7-də həmin məsələ necə yazılıb: «... Məndən sonra məndən daha qüdrətlisi gəlir. ...» Bu sözü də Yəhyaya nisbət verdiniz. Lakin xəbər bir vəhy yolu ilə gəlmirdi. Matta və Markın qeydləri olduğu üçün, istədiyiniz kimi dəyişdirdiniz.
İsanın Rəbb olduğuna, bəzən də insanların Rəbb ola biləcəyinə inanırsınız. Amma baxın Yəhyanın İncilinin girişində 1:18-də «Allahı heç bir zaman kimsə görməmişdir. ...» deyilir. Baxın görün necə dəyişdirmisiniz. Bu gün İsaya həm Allah, həm ata, həm də oğul deyirsiniz. Digər tərəfdən İncil deyir ki, «Allahı heç kim görməmişdir» ... Digər tərəfdən yenə Yəhyanın İncilində «Onlar nə qandan, nə bəşər iradəsindən, nə də kişi istəyindən, ancaq Allahdan doğuldular» (1:13) deyilir.
Sonra «İncil»i o qədər dəyişdirdiniz ki, həqiqi İncildən çox az hökmlər qaldı. Məsələn, İncildə içki haramdır, lakin siz deyirsiniz ki, «günah deyildir».
– Xeyr, İncil şərabı yasaq etmir.
– O halda buyurun Luka İncilinin 1:14,15-ni birlikdə oxuyaq.
Məni təəccüb bürümüşdü. Heyrətlənmişdim... Dizlərim titrəyirdi. Masanın üzərindəki İncili götürdü və oxumağa başladı:

– Buyurun, keşiş əfəndi, oxuyuram: «Sevinclə şifa tapacaqsan; və doğulmasına bir çoxları da sevinəcəklər, çünki o, Rəbbin qarşısında böyük olacaq, şərab və başqa içki içməyəcək; ...» Buna nə deyirsiniz?

Sonra diqqətinizi Mark İncilinin başqa bir maddəsinə çəkmək istəyirəm. ... Mark İncilindən oxuyuram: «... Tanrıdan başqa kim günahları bağışlaya bilər?»

Siz bu hökmün əksinə olaraq, günahları bağışlayır, Allahın adından hökmlər çıxarırsınız.

Uşaqların sünnət olunmasını yəhudilər belə inkar etmədikləri halda, siz inkar etdiniz. Belə zənn etməyin ki, bunu deməklə yəhudilərin sizdən yaxşı olduqlarını bildirmək istəyirəm. Sadəcə bu an sünnət məsələsini ələ alıram. Luka İncili 1:59-da yazılır: «Səkkizinci gün uşağı sünnət etməyə gəldilər». Həmin mövzunun ardınca «... İsrailin Allahı Rəbbə həmd olsun» deyilir. Bu boş sözlər Allahdan gələ bilərmi? Allah hamının Allahı deyilmi?

Dörd İncilin dördündə də Həzrət İsaya «Rəbb İsa» deyirsiniz. Hansını deyim ki?.. Ziddiyyətlər məntiqə sığmadığı üçün də çox cəfəngiyatlar uydurulmuşdur.

İndi sizdən soruşuram, möhtərəm keşiş əfəndi. İnsanlar Allahdan daha yaxşı bilə bilərlərmi?

– Əsla.

– O halda hər əsrdə «İncil» nə üçün dəyişdirilir?

– Zamanla ayaqlaşmaq lazımdır. Zaman səninlə ayaqlaşmasa, sən zamanla ayaqlaş.

– Yəni Allah bu əsrin problemlərini və ehtiyaclarını bilmirdimi?

– Amma sizdə də ziddiyyətlər var. Məsələn, dörd məzhəb.

– Burada diqqətinizdən qaçan bir mövzu var... Bizdəki məzhəblər bəzi hədisi-şəriflərin yozum fərqindən ibarətdir. Lakin dörd məzhəbin, ya da daha çox məzhəblərin ayrı-ayrı «Quran»ları yoxdur. Hamısının «Quran»ı eynidir. Heç birində bir ayə artıq, ya da əskik deyildir. Lakin sizdə dörd ayrı şəxs tərəfindən yazılan, əslində İsanın hekayələrini ehtiva edən «İncil»lər ayrı-ayrı şeylərdir, yəni bizdəki məzhəblər sizin vicdanınızda rahatlıq meydana gətirməsin. Din fərqi başqa, məzhəb fərqi başqa, yozum fərqi isə bambaşqadır.

Bir sözlə, keşiş əfəndi... Siz təmiz bir insana oxşayırsınız. Gəlin İslamı araşdırın. Allahın Öz qullarını nə ilə vəzifələndirdiyini öyrənin. İslama gəlin! Həm İsa əleyhissəlamdan, həm də Həzrət Məryəmdən yenə də ayrılmayacaqsınız. «İncil»in dəyişdiyini, həqiqi «İncil» Barnabanın yox edildiyini bilirsiniz.

«İncil» o qədər dəyişdirildi ki, insanlar zəngin olmağı günah görməyə başladılar. Fəqirlik «İncil»də öyüldü. Bu zaman yəhudilər dünyanın hər yerində zəngin olmaq üçün dayanmadan işlədilər. Sonra kilsənin bu əcaib davranışı 1789-cu ildə qərblilərə görə «əsl renessans budur» deyilən laiklik (dünyəvilik) sistemini meydana gətirdi. «Din işləri inkişafa mane olur» deyən inqilabçı demokratlar, din işi ilə dövlət işini bir-birindən ayırıb, «Tanrını kilsədə öldürdük» dedilər.

Bu din işini dövlətdən uzaq tutan sistemin adına «laiklik» dedilər. Vaxt gəldi, bu əqidə ilə «Quran»ı da mühakimə etməyə başladılar və müsəlmanların dinlərinin də «İncil»lə eyni olduğuna inandırdılar. ... Fransada din əleyhinə yazılan kitablar müsəlman ölkələrdə tərcümə edildi. Fransadakı yazıçı kilsəni nəzərdə tutaraq «Din bizi geridə qoydu» deyərkən Fransadakı oxucu xristianlığın nəzərdə tutulduğunu anladı. Lakin Türkiyədəki, yaxud da Misirdəki oxucu bu dinin İslam olduğunu zənn etdi. Bir sözlə, axmaqlıqları, müsəlmanların dini bilməməsindən qaynaqlanan uzlaşmacılığı bizi bu hallara saldı.

Gəlin, nə qədər ki, gec deyil, müsəlman olun. Dəyişə-dəyişə, cin-pəri, xəyal-röya əfsanələrinə çevrilən «İncil»dən sıyrılaraq «İslam»a dönün.

Bu dəqiqə evlənməyiniz yasaqdır... İnsan fitrəti pozula bilməz. Fitrətinizə dönün. Evlənin, övladlarınız və arvadınız olsun. Gözəl bir ruhani olmaq istəyirsinizsə, yenə də olun. Hər bir yaxşı və həqiqi müsəlman, əslində sizin sözünüzlə desək, «yaxşı bir din» adamıdır».

Aman Allah!! Çənəmin titrəməsindən dişlərim bir-birinə dəyirdi. Bu səhnəyə tab gətirə bilmirəm. Özümdən gedəcəkdim ki, müqəddəs ata soruşdu:

– «İncil»in yoxsulluğa sürüklədiyini kim dedi?

– «İncil»lərinizi və vəzlərinizi təkrarən gözdən keçirsəniz, anlayarsınız.

Sonra da bu axmaqlığa baxın; Matta; 5:27,3-dən oxuyaq. Eyni ilə belə deyir: «... Zina etmə!..» Bu nöqtə çox gözəl. Hər halda əsl «İncil»dən qalmışdır. Lakin həmin maddə necə davam edir: «Amma, mən sizə deyirəm: «Bir qadına şəhvətlə baxan hər adam, artıq ürəyində onunla zina etmiş olur». Eh... Bu da yalan sayılmaz. Lakin davamına baxaq: «... Əgər sağ gözün səni pis yola çəksə, onu çıxart və özündən xaric et; ...» Bəli, eyni ilə belə deyir. «O gözü çıxart və özündən xaric et!» deyir. Ey keşiş əfəndi, hər hansı bir qadına pis gözlə baxdığı üçün gözünü çıxaran bir şəxs gördünmü? Məsələn, sən. Bu qədər çılpaq gəzən qadınlar görürsən, heç qəlbin çirklənmədimi?.. Bağışlayın, bəlkə, narahat oldunuz, sizin qəlbiniz heç çirklənməmişdir. Milyonlarla xristian və keşiş içində qəlbini çirkləndirən olmamışdırmı? Kişi olsun, özü də subay olsun, qeyri-ixtiyari qəlbinə pis fikirlər gətirmədən necə dayana bilər? Onlarda peyğəmbərlik xüsusiyyətləri yoxdur ki. Qaldı ki, peyğəmbərlərdə də şəhvət vardır və şəhvətli olmaq günah deyildir.

Günah olan şəhvətin istəklərinə haram yolla cavab verməkdir. İnsan qəlbindən çox, işlərinə və əməllərinə görə məsuldur... İncilin insan fitrətindən belə xəbəri yoxdur. Görünür ki, Matta İncilini yazanın qadınlara qarşı heç bir marağı olmamışdır ki, bu qədər böyük axmaqlığa yol vermişdir… «Qadına pis gözlə baxan, bir daha baxmasın, qəlbi çirklənmişdirsə, tövbə etsin» demir. «Gözünü çıxarsın» deyir.

Allah eşqinə bu nədir?..

– O, məcazi mənada yazılmışdır.

– Olsun, həmin maddəni hələ sona çatdırmadıq. Məcazi olub-olmadığını yoxlayaq.

Qaldığım yerdən davam edirəm. «… O gözü çıxar və özündən xaric et, çünki sənin üçün üzvlərindən birinin yox olması, bütün bədəninin Cəhənnəmə atılmasından daha yaxşıdır. Və əgər sağ əlin səni pis yola çəksə, onu kəs və özündən xaric et; çünki sənin üçün üzvlərindən birinin yox olması, bütün bədəninin Cəhənnəmə atılmasından daha yaxşıdır».

İncilinizin məntiqinə görə, dünyanın bütün kişiləri Cəhənnəmə girəcək. Ya da günah edən bədən üzvünü kəsib atmalıdır. Bu Qərbin gününə bir baxın. Günah bataqlığı içində boğulur, fikri-zikri zinada… homoseksuallar, uşaq dalınca düşən sapqınlar, lezbiyanlar… Bir çox sapqınlıq… Lakin hələ də bunların gözləri və bədənləri yerindədir.

– Elə biri sizin müsəlmanlar, dininizi daha çox tətbiq edirmi?

– Burada haqlısan. Lakin biz fərdlər haqqında yox, din haqqında mübahisə edirik. Bizdə müsəlmanlar, sizdə isə din günahkardır… bizim müsəlmanlarımızın bu vəziyyətə düşməsinə də siz səbəb oldunuz. Məhvə məhkum dar məntiq, ağla və xəyala gəlməyən xurafatlar İslam aləminə sizdən keçdi. Bütün İslam aləminin İslamı bilməyən hissəsi, «İncil» və «Tövrat»dakı cəfəngiyatların «Quranda»da da olduğunu zənn edir.

– Həddinizi aşırsınız. Məbədimizi və bizi təhqir etməyə haqqınız yoxdur.

– Nə üçün? Siz bizim məbədlərimizi, ölkələrimizi, dünyamızı hər zaman, hər fürsətdə və hər yerdə təhqir etmədinizmi? Bu «İncil»lərə bax. Bir «İncil»də Allahın adı on dəfə belə çəkilmir. Lakin İsanın adı ən azı üç yüz dəfə çəkilir. Həm də «Rəbb İsa» deyə çəkilir. Beləcə, Allahdan çox, İsaya yer verilən əfsanələr silsiləsi, Allahın kitabı ola bilərmi? «Kim dul qadın alarsa, zina etmiş olar!» – deyən bir kitab Allahdan gəlmiş bir kitab ola bilərmi? Dul qadınlar Allahın qulları deyildirmi?

Yalan deyirəm? Lütfən Matta; 5:32-yə baxın. Markda eyni mövzu tam tərsinə verilir: «… Kim öz arvadını boşayıb, başqası ilə evlənərsə, ona qarşı zina edər. Qadın da ərindən boşanıb başqasına gedərsə, zina edər» (Mark; 10:3-7).

Bunların hansı doğrudur? İncilin birinə görə dul qadın alına bilməz. Lakin indi qızların bakirə qalması sizin mədəniyyətinizdə ayıb sayılır.

Artıq homoseksualistlərə belə evlənmə icazəsi verdiniz. Qadınları alçaldan mədəniyyətiniz indi öz palçığını bizə atır… İncilləri ruhanilərin mənfəətinə çevirdiniz. Bax, sadəcə Markos İncilindən bir misal deyim: «(25) İsa onlara dedi: «Davudun özü onunla bərabər olanlar ac və möhtac qaldıqları zaman nə etdyini heç oxumadınızmı? (26) Baş kahin Aviyatarın zamanında Allahın evinə girdi və Allaha təqdim edilən çörəkləri yedi və özü ilə bərabər olanlara da verdi: Halbuki bunları kahinlərdən başqasının yeməsi qadağandır» (Mark; 2:25-26).

Başqa İncildə də «Xalq da, peyğəmbər də o çörəkdən yeyə bilməz. Sadəcə rahiblər yeyər» deyir. Düşünün… Xalq yeyə bilməz, peyğəmbər yeyə bilməz. Lakin rahib yeyə bilər. Nə üçün rahiblərə belə bir əhəmiyyət verilir? Allaha yaxınlıqdırsa, peyğəmbər daha yaxın deyilmi?

– Çox yaxşı, İncildə heç gözəl Allahdan gələn əmrlər yoxdurmu?

– Əlbəttə, var. Məsələn, bunlar: «… İsa da dedi: «Qatillik etmə, zina etmə, oğurluq etmə, yalan şahidlik etmə, valideynlərinə ehtiram et və qonşunu özün kimi sev!» (Matta; 19:18-19)

Bunlar kimi İslama, Allahın prinsiplərinə uyğun bir neçə söz var. Yerdə qalan hamısı uydurmadır.

Məsələn, bunlar: «Yer üzündə kimsəyə ata deməyin; çünki atanız birdir, səmavi atadır». Sizcə, bu, Allahın əmri ola bilərmi? Bir tərəfdən deyir ki, «valideynlərinə ehtiram et!», digər tərəfdən də deyir ki: «Kimsəyə ata deməyin!» Bunlar ağla uyğun gəlməyən şeylər deyil.

Buna nə deyirsiniz? «(18) Səhəri gün İsa şəhərə qayıdanda bərk acdı. (19) Yol kənarında bir əncir ağacı tapıb ona yaxınlaşdı; Ancaq onda yarpaqdan başqa bir şey tapmadı. İsa ona dedi: «Qoy bundan sonra əsla meyvə çıxmasın». Və əncir ağacı o anda qurudu» (Matta: 21:18-19)

Siz bunun nə olduğunu deyə bilərsinizmi? Əncirin günahı nədir ki? Üstəlik İsaya bəzən Allah da deyirsiniz. Əncir ağacını qurutmaqdansa, ona əncir verərdi də?

Bir sözlə, İncili siz dəyişdirdiniz. İnsanın fitrətinə zidd bir hala saldınız. Nə bilim, keşiş və rahibə evlənə bilməz, gözünü çıxart at, zülmə məruz qalsa da, arvad ərindən ayrıla bilməz və s.

Buna görə də insanlar bu dindən bezdilər. İqtisadiyyatla, təfəkkürlə və Allahın qüdrəti ilə heç bir əlaqəsi olmayan İncildən bezənlər «Din bir çıxılmaz vəziyyətdir, monastıra qapanmaqdır» deyib işin içindən çıxdılar.

Öz dinlərini yıxanlar, İslam dininin ayaqüstə dayanmasına dözə bilərdilərmi? Əlbəttə, dözə bilmədilər… bütün güclərini İslamı yıxmağa sərf etdilər. Lakin çox yaxında İslamın bir monastır dini olmadığını görəcəklər.

Əməlli-başlı ağlımı itirmişdim. Yüksək səslə çığırdım…

– Bir az da sən danış, müqəddəs ata! Lütfən! Allah eşqinə!!! Bütün müqəddəs elminin eşqinə!

Ağlamaqdan özümü saxlaya bilmədim. Hisslərimi cilovlaya bilməyərək sanki hayqırdım:

– Müqəddəs ata, bir şey söylə! Lütfən!! Dayana bilmirəm!!!

– Bu gənc tamamilə haqsız deyil, Mariya.

Aman Allah! Qulaqlarım uğuldayır, başım fırlanır!! Əbdülvəhhab ədəblə cavab verir…

– Təşəkkür edirəm. Həqiqətləri görmək bir incəlikdir.

– Həqiqəti bilmək istəyirsinizsə, mən də hərdən bəzi mövzularda şübhəyə düşürəm.

– Bəsdiiir!! Bəsdiiir! Artıq sənin cəfəngiyatlarını eşitmək istəmirəm!!! Allah bəlanı versin!!! Al boynumdakı xaçı, al!!! Al deyirəm!!! Sənin xaçını istəmirəm! Mən belə aciz qalan bir dini istəmirəm!!!

Hıçqıra-hıçqıra pilləkənləri düşməyə başladım. Küçədə dəlicəsinə qaçırdım. Əbdülvəhhab da dalımca qaçırdı.

– Dayan, Mariya! Lütfən dayan.

– Cəhənnəm oluuun! Heç birinizi görmək istəmirəm, arxamca gəlmə, məni rahat burax!

– Dayan, danışaq.

– Danışılacaq heç bir şey yoxdur.

– Bir dəqiqə…

Arxamca qışqırırdı. Camaat da bizə baxırdı. Elə bu vaxt kilsə zəngi çalmağa başladı. Kin və nifrətimin qarşısını ala bilmirdim.

– Eyy insanlar, bu zənglərə inanmayın!! Bu zənglər yalandır! Bunlar əsl «İncil»i təmsil etmir! Çalmayın!!! Çalmayın, zənglər! Daha sizə inanmayacağam! Artıq sizi öldürdüm. Kilsəni öldürdüm! Rahibləri, rahibləri öldürdüm!!! Çalmayın. Çalmayın deyirəm sizə!!

## MƏN ARTIQ AĞLIMI İTİRMİŞDİM

Pərişan halda küçələrdə gəzdim. Bir müddət Almaniyanın harasında olduğumu belə xatırlaya bilmədim. Olduğum yerdə yıxılıb qalmışdım. Özümə gələndə Əbdülvəhhabın başımın üstündə dayanıb məni gözlədiyini gördüm. Qolumdan tutub məni maşınımın yanına qədər apardı. Maşına güc-bəla ilə mindim. Sükanı tutacaq halım yox idi... Əbdülvəhhab vəziyyətimi hiss edib:

– İstəyirsən mən sürüm – dedi.

– Yaxşı olar. Sürücülük hüququn varmı?

– Bəli, var. Hər ehtimala qarşı almışam.

– Yaxşı, hara gedəcəyik?

– Sən haraya istəyirsənsə.

– Bu sözləri sənmi deyirsən?

– Bəli, nə olub ki?

– Bəs sən qadınlardan uzaq qaçırdın?

– Yenə də eləyəm. Lakin səni bu halda tək buraxa bilmərəm.

– Çox xoşbəxtsən, elə deyilmi?

– Nə üçün xoşbəxt olmalıyam ki?

– Nə üçün olmalısan? Mənim dinimə qarşı üsyanımı gördün.

– Yanılırsan, Mariya! Sən müsəlman olsan sevinərəm. Xristianlığı buraxıb dinsiz olsan sevinmərəm. Ən pis, ən sapqın etiqadın belə zərəri dinsizlikdən azdır.

– Yəni hələ də mənə İslamı qəbul etməyimi təklif edirsən?

– Xeyr! Düşdüyün bu böhranlı vəziyyətdə sənə yardımçı olmaq, insanlıq vəzifəmi icra etmək istəyirəm.

– Çox yaxşı adamsan... Lakin mən çarəsizəm. Bilmirəm nə olacaq? Mən artıq kilsəyə qayıda bilmərəm.

Birdən zehnim başqa bir səmtə doğru istiqamət aldı.

– Əcəba, bəlkə, Allah yoxdur?

– Haşa!! Elə şey olarmı? Allah olmasaydı, heç sən olardınmı?

– Bəlkə, təsadüfən dünyaya gəlmişəm.

– Təsadüflərdə riyazi hesab ola bilməz. Bax, bu tənəffüs etdiyimiz havanın oksigeni 21% yox, bir az əskik, yaxud bir az artıq olsa, birində yanar, birində isə boğularıq. İnsan beynini düşün, iynənin ucu qədər bir qan damcısı, hər hansı bir damara bərabər gəlsə, bədənin bir üzvü iflic olur, ya da ağrılar içində qalır. Bir damarın

tıxanması, bir ayağın kəsilməsinə səbəb olur. Bədənimizi incələ, hər şey çox mükəmməldir. Sanki bir riyazi silsilədir. Millimetr-millimetr nizamlanmışdır. Bir göz həkimi neçə il oxuyub göz mütəxəssisi olur.

– Haradasa on altı, on yeddi il.

– Düşünə bilirsənmi? Bir gözün sənətini öyrənmək üçün illərlə dərs oxuyurlar. Təsadüfün dərsi oxunarmı? Təsadüfün dərsi olarmı?

– Nə qədər gözəl söylədin.

– Nəyi?

– Təsadüfün dərsi olmaz. Bəli, madam ki hər şey təsadüfdür, minlərcə fakültə var, bunlar nə öyrədirlər ki!

– Afərin! Çox yerində düşünürsən. Deməli, Mehmet yaşadı. Sənin kimi ağıllı bir qıza sahib olmaqla, məncə, bəxtiyardır.

– Amaan!! Mehmetlə işimizin nə olacağını da bilmirəm... Sən dayanma, danış... Lakin mən özümü yaxşı hiss etmirəm. Məni evə apar.

– Əlbəttə, məmnuniyyətlə. Yetər ki, sən özünü pis vəziyyətə qoyma.

– Necə bacaracam?

– Nəyi?

– Özümə gəlməyi. Alt-üst oldum. İllərdir sevdiyim kilsəni bir saatın içində tərk etdim.

– Sən heç kilsəyə də qulaq asmırdın. Lakin bağlanmışdın. Özündə dindar qıza bənzəyən bir əlamət görürdünmü?

– Bu nə deməkdir? Əlbəttə, bənzəyirdim.

– Yaxşı, ateist qızlarla yan-yana dayandıqda, onlardan nə ilə fərqlənirdin? Yaxud sualı belə qoyaq; sən yəhudi qızların arasında onlardan fərqləndiyini hiss edirdinmi?

– Amaaan... Nə isə... Artıq hər şey sona çatdı... Hər şey qurtardı. Yalvarıram gedək! Lakin xahiş edirəm bugünkü çılğınlığım haqqında anama heç bir söz demə. Anam sənə qarşı qaşqabaqlı olsa, fikir vermə.

– Nə üçün mənə qarşı qaşqabaqlı olmalıdır ki? Biz ki bir-birimizi tanımırıq.

– Anam müsəlmanları qətiyyən sevmir. Mənim xristianlığımla da çox öyünür. Bugünkü hadisədən xəbər tutsa, yazıq qadının ürəyi dayanar. Səni də əsla evə buraxmaz.

– Eybi yoxdur... Biz necə də olsa, bizə nifrətlə baxıldığını bilir və illərdir ki, bunu yaşayırıq...

Göz yaşlarım dayanmışdı, gözlərimin şişi isə hələ də getməmişdi.

Evə gələndə artıq gecə saat on bir idi. Əbdülvəhhabla içəri girdik. Anamla atam salonda idi. Atam bizi görən kimi ayağa qalxdı.

– Ooo... Mənim gözəl qızım, nəhayət, gəldiniz. Xoş gəldiniz... Harada idin, Mariya? Gec gələcəyini demədiyin üçün çox narahat olduq.

– Bir az gəzdik... Bu, dostum Əbdülvəhhabdır.

– Oo... çox məmnun oldum. Qızımın dostu, mənim də dostumdur. Buyurun oturun.

Atamın qonaq qarşılaması çox gözəl idi. Anam Əbdülvəhhabın üzünə belə baxmadı... Atam birdən gözlərini gözlərimə dikdi:

– Mariya, sən ağlamısan?

– Fikir vermə, ata.

– Necə yəni fikir vermə? Səni ağladan səbəb nədir? Bilmək istəyirəm. Unutma, jurnalistlər ağlamamalıdır.

Əbdülvəhhab araya girdi:

– Düzdür. Jurnalistlər ağlamazlar, ağladarlar.

Gülmək istədim. Anam başımın üstünü kəsdirdi:

– De görüm nə olub, Mariya?

– Heç bir şey olmayıb, ana. Bir az narahat oldum.

– Mehmetə görə narahatsan? Özünü bu qədər üzmə. Heç kim üçün bu qədər üzülməyə dəyməz.

– Haqlısan, ana. Amma nə edə bilərəm, Mehmetsiz bir dünya mənə dar gəlir.

– Doğrudan, deyəsən, sən bu gün müqəddəs atanın yanına gedəcəkdin, nə oldu, getdinmi?

– Sonra söhbət edərik, ana.

Atam yavaşca qulağıma tərəf əyildi:

– Zavallı anan... Hələ də elə bilir ki, sən katoliksən. Afərin yaxşı rol oynayırsan.

Daha sonra da həmin sözü anam dedi... Atamla Əbdülvəhhab orta salona keçdilər. Mən də getdim. Atam danışmağa başladı:

– Eee, əzizim, de görüm haralısan?

– Misirliyəm.

– Ooo... Misir... Çox yaxşı tanıyıram Misiri. Orada beş il xidmət etdiyim üçün mükafatlandırılmışdım.

– Hansı xidmət?
– Gəncliyimdə keşiş olmağa çalışırdım. Kilsə məni Misirə göndərdi. Ərəb dilini çox gözəl bilirəm.
– Nə üçün göndərmişdi?
– Xristianlığı yaymaq üçün. Neçə il Misirdə qaldım, sadəcə beş müsəlmanı xristian edə bildim. Ürəyim sıxıldı. Geri qayıtdım. Sonradan dini tamamilə buraxıb oxudum. Dinlər mənə cəfəng görünməyə başladı.
– Dinlər yox, xristianlıq cəfəng görünməyə başladı deyin. Dinlər dedikdə İslam da bu sözün içinə daxil olur.
– Heç bir fərqi yoxdur... Dinlər hamısı eynidir.
– Fərqi çoxdur. Dinlərlə İslam dini bir-birinə heç bənzəmirlər. İslam dini Allahın müraciətidir və qətiyyən təhrif olunmamışdır.
Birdən mövzunu dəyişdirməyi düşündüm:
– Atam dinsizdir, Əbdülvəhhab. Onunla din haqqında danışmaq olmur. Qurtarın bu söhbəti. Sən bugünkü mövzu haqqında danışa bilərsənmi?
– Hansı mövzu?
– Təsadüfün dərsi olmaz demişdin ha. Bu fikri çox bəyəndim.
– Mariya, sən də məni dinsiz kimi tanıtdırmaqdan zövq alırsan. Qızım, dinsiz demə, ateist de. Həm də dinsizlik ayıb deyil ki.
– Nə üçün, ata? Dinsiz, ateist, nə fərqi var ki? İkisi də eyni şey deyil?
– Əlbəttə, eyni şeydir. Lakin təsirləri başqa-başqadır. Xalqımız «dinsizəm» deyincə ürpənir. Lakin «ateistəm» deyincə ateistliyi modern bir fikir kimi qəbul edir. Ona görə də biz «dinsizəm» sözünü heç vaxt işlətmirik. «Ateistəm» deyirik... Ya da sosial demokrat.
– Hər bir sosial demokrat dinsizdirmi?
– Bəziləri dini sevdiklərini söyləyirlər. Görəsən, din də onları sevirmi? Bütün məsələ İslamın bütövlüyünə inanmaqdır.
– Nə isə, sən bu təsadüflər mövzusu haqqında danışsan... Bəlkə, atam da Allaha inanar.
– Qızım, adı Allahdır, nədir, bilmirəm, amma bir yaradıcının olduğuna onsuz da inanıram. Mənə nəyi başa salacaq?
– Dayan, Mariya, atanıza mən cavab vermək istəyirəm... Deyə bilərsinizmi, Allahın varlığına necə və haradan inanırsınız?
– Bilmirəm... Bir yaradıcı var... Görürsənmi arılar belə çox düşüncəli və şüurlu işləyirlər. Kosmosun sirləri tamamilə Allahı göstərir. Bəli, bəli, Allah var. Biologiya müəllimimiz demişdi. Ağciyərin alveollarını (qovuqcuqlarını) yaymaq mümkün olsa, səksən dörd kvadrat metr sahəni əhatə edərmiş, yəni bu bir mənzil deməkdir. Allah o qədər elmli və o qədər müdhiş bir sənətkardır ki, kiçik ağciyərə böyük bir sahəni əhatə edə biləcək maddəni yerləşdirmişdir. Ona görə də düşünürəm. Bunlar öz-özünə var ola bilməz.
Hamımız atama qulaq asarkən heyrətləndik. Heyrətini ilk bildirən Əbdülvəhhab oldu.
– Aman Allah, nə qədər gözəl danışırsınız. Sizin kimi müdhiş idrakı olan insanın dinsiz olması heyrətləndiricidir. Siz bu qədər düşündükdən sonra...
Bu söhbət atamı coşdurmuşdu. Davam etdi:
– Bu nədir ki? Sizə böyrək haqqında danışsam, ağlınızı itirərsiniz.
– Danış, ata, nə olar danış. Sənin ağzından bunları eşitmək məni çox məmnun edir.
– Eşit, eşit... Atanın cahilcəsinə ateist olmadığını anla.
Baxın, məsələn, böyrəklərimiz. Hər böyrəkdə milyonlarca nefron vardır. Qan bu milyonlarca nefronlardan keçərək təmizlənir. Bu nefronları kim və nə üçün oraya yerləşdirdi? Necə düşünə bilər? Burada təmizlənən qan, qlomerullara (böyrək yumaqcığı) gələn qan. Burada bir gündə yüz yetmiş, yüz səksən litr arasında qan süzür. Daxilimizdəki hissələr qanımızın süzülməyə möhtac olduğunu haradan bilə bilər? Bədənimizdəki hissələrin məgər ağlı vardır ki, öz-özlərinə doğru və faydalı işlər görə bilsinlər? Lakin hamısı bir komanda zənciri kimi bir-birinə bağlı olaraq öhdələrinə düşən vəzifəni icra edirlər. Biri vəzifəsini tərk edərsə, həyatımız məhv olar.
İnsan beyni əsrlərdir ki, öyrənilir. Öz-özünə var olan bir təsadüf olsaydı, bu qədər inkişafa baxmayaraq, insanlar hələ də beyindəki müəmmalarla məşğul olardılarmı? Bir şey bu qədər mütəfəkkiri, təbibləri ən azı beş yüz il düşündürəcək qədər mükəmməldirsə, həmin şey nə olursa-olsun təsadüf deyildir.
– Aman Allah!.. Mariya, bunları söyləyən atandırmı?
– Bəli, ana...
– Aaa, sən mənim canım şişirtməyin. Bunlar hamısı köhnədən ağlımda qalan fikirlərdir, bir az coşdum deyə danışıram.
Əbdülvəhhab çox heyrətlənmişdi:
– Necə olub ki, siz dinsiz olmusunuz. İnanın ki, mən bu qədər gözəl açıqlama verə bilməzdim.

– Doğrusunu bilmək istəyirsinizsə, mənim ürəyimi sıxan hadisə də elə budur. Özümü Allahsız görə bilmirəm. Ona görə də yaradıcını başımdan çıxarıb ata bilmədim. Lakin yenə də özümü ateist və ya allahsızlar qrupuna daxil edirəm.

– Heç kim Allahsız deyildir. Ona görə də bizim etiqadımızda Allahsız sözünü işlətmək haramdır.

– Necə yəni! Əgər bir şəxs Allaha inanmırsa, ona Allahsız demək olmaz?

– Demək olmaz, çünki onun Allahı var. Lakin o inanmır. Onun inanmaması onun Allahsız yaradıldığına dəlalət etməz.

Bu mübahisələr saatlarca davam etdi. Atam Əbdülvəhhaba «gəncsən, dindarlığı burax!» – deyə hey təlqin edir, o da «Deyirsən ki, yaradıcı çox elmlidir. İnsanların ifraz yolunu bu cür düşünən yaradıcının insanlara bir rəhbər, bir sistem göndərəcəyini düşünmürsünüz. Hər şeyi düşünən Allah bizə bizi haradan gətirdiyini, haraya aparacağını bildirməzmi? Bizi böyük kosmosun dərinliklərində, milyardlarca ulduzdan sadəcə birinin üzərinə gətirib, buraya nə üçün gətirdiyini söyləməzmi?» – deyirdi. Atam, «Bu gəncdən qorxuram, məni yolumdan azdıra bilər» – deyə zarafatla fikrini bildirib, dini mövzulara bir daha girmədi. Atam o gecə Əbdülvəhhabı buraxmadı. Gecəni bizdə qaldı. Hər kəs öz otağına çəkildi.

O gecə də çox ağladım...

– «Mehmetim... Sənsiz yaşaya bilmirəm, Mehmetim. Nə olar gəl... Artıq mən katolik deyiləm» – deyə-deyə nə vaxt yuxuya getdiyimi bilmirəm.

Sabahın erkən saatında aclığımın məni çox narahat etdiyini hiss etdim. Dünən səhərdən bəri yemək yeməmişdim. Bir günün içində dünyam dəyişmişdi.

Alt mərtəbəyə enəndə Əbdülvəhhabın oyandığını və nəsə oxuduğunu gördüm. Heyrətləndim:

– Xeyir ola! Nə edirsən?

– Dua dərsimi oxuyuram. Bir növ Allahla danışmaq. Namazımı qıldım.

– Mən də yemək yeyəcəm. Daha doğrusu, çay içəcəm. Sən də içirsən?

– Xeyr. Mən atanla səhər yeməyi yeyərəm.

– O halda mən də sənin yanında oturub söhbət edə-edə səhər yeməyi yeyim. Çox təngnəfəs oluram.

– Sabahın bu saatında?

– Nə olar ki? Allahla bu saatda söhbət edirsənsə, mənimlə də söhbət et. Allah o zaman səni daha çox sevər, yaxşılıq etmiş olarsan.

– Olmaz, Mariya! Məndən özünə qarşı artıq diqqət gözləmə. Sualın varsa, mənə məktubla göndər.

– Yenə həmin axmaqlıq. And olsun Allaha ki, sən məndən qorxursan. İnanmırsanmı? Mənim gözüm Mehmetdən başqasını görmür.

– Ola bilər.

– Ee... İndi bu nə deməkdir?

– Unutma, mən sənin gözünə diqqət etmirəm.

– O halda öz gözündən əmin deyilsən.

– Bu cür sözlər danışmağımız belə məni çox narahat edir. Lütfən, Mariya... Məni başa düş... Etiqadıma zidd gedirəm. Ayrıca adaxlım Səlva bu anda bizi görsə, bunu mənə bağışlamaz.

– Aaa! O, o qədər düşüncəsizdir?

– Xeyr... Məni çox sevir. Sevənlər də qısqanc olur, lakin Qərb mədəniyyəti qısqanmağı da eyib və düşüklük hesab edir. Dünya buynuzla doludur. Başlar görünmür!!!

## DƏQİQƏLƏRİN HƏR BİRİ GÜLLƏ

– Mən səni başa düşə bilmirəm. Dərdləşmək istəyirəm. Dərdimi dostlarıma açsam, mənə istehza edərlər. Sən də ki belə edirsən.

– Mən sizə nə edirəm ki, Mariya xanım?

– Yenə də rəsmi danışıqlar başladı. Dünən «sən» deyirdin, bu gün «siz» deyirsən.

– Gic elədin məni. Bir anda qırx illik dost kimi olduq. Sənin psixoloji vəziyyətin də mənə təsir etdi.

– Mən səni özümə çox yaxın hiss edirəm. Səni ən yaxın dostlarımdan daha yaxın görürəm özümə. Səninlə bir səhər yeməyini yeməyi belə çox görürsən mənə. Bu necə dostluqdur, Əbdülvəhhab?

– Başa düşə bilməzsən, Mariya. Bax, yenə gəlib səhər yeməyini qarşımda yeyirsən. Nə üçün mənim həyat tərzimə hörmət etmirsən?

– Aman, sən də qəribə adamsan. Elə bil bu dəqiqə səni yeyəcəm!! Mənə Mehmet haqqında danışa bilərsənmi? Səncə, Mehmet mənimlə evlənər?

– Bilmirəm. Hər aşiq, «aşiqəm, ölürəm», – deyən eşqindən ölsə, dünyada insan qalmazdı.

– Yaxşı, sən Mehmetin yerində olsaydın, məni alardınmı?

– Ay Allah... Bu nə sualdır, Mariya?
– Əzizim, misal üçün soruşdum. Misal üçün soruşmaq da günahdır?
– Mariya, çox səmimi söhbətlər mənim üçün yaxşı deyil. Bir gənc qız oğlana belə sual verməməlidir.
Çox əsəbiləşmişdim:
– Amaaan!.. Sən lap ağ elədin ha! Bu sualımda nə var ki? Başa düşə bilmirəm, sən mənə aşiq olmaqdanmı qorxursan?
– Başa düşə bilməzsən... Bu aşiq olmaq qorxusu deyil... Etiqadıma ziddir, etiqadıma. Həm də mən heç kimə aşiq olmaram. Mənim dünyaya dəyişə bilməyəcəyim Səlvam var. Ona zərrə qədər də olsa, xəyanət etmərəm. Səlvama zülm edə bilmərəm. O mənim hər şeyimdir.
– Nə gözəl sevgi... Kaş Mehmet də məni belə sevəydi... Sənin sevginə qibtə edirəm. Səlva ilə necə tanış olduğunu mənə danışa bilərsənmi? «Adaxlım» deyirsən, «nişanlım» deyirsən, nə dediyini bilmirəm, amma necə tanış olduğunuz məni çox maraqlandırır.
– İslama görə adaxlanmaqla nişan eyni şeydir... Necə tanış olmağımıza gəlincə danışaram, lakin bundan sonra daha diqqətli olacağıq, oldumu? Mənimlə sadəcə məktubla əlaqə yaradacaqsan.
– Bəsdir də, Əbdülvəhhab! Böhranlı anlar keçirdikdə sənin yanına gəlim, nə olar. Səninlə söhbət etdikdə rahatlanıram. Allah xatirinə məni başa düş. Bü dünyada özümü tənha hiss edirəm.
– Başa düşürəm... Çətin vəziyyətdəsən.
– Bu cür incə düşündüyünə görə sənə təşəkkür edirəm. Yaxşı Səlva haqqında danış.
– Doğrusunu bilmək istəyirsənsə, mən onun haqqında danışdıqda çox xoşhal oluram. Madam ki istəyirsən danışım.
Mən o zamanlar dini tanımırdım. Ölkəmizi istila edən İngilis mədəniyyətinə etina göstərirdim. Onlar kimi inanır, onlar kimi əylənirdim. Artıq öz musiqimizə nifrət edir, «müsəlmanam» – deməkdən utanırdım. Sənin bu gün normal hesab etdiklərini mən də o gün normal hesab edirdim.
İçki, əxlaqsızlıq hamısı vardı. Nə oldusa onu gördüyüm gün oldu. Çox gözəl örtünmüşdü.
Mən və iki qız – üç dost Nil çayının sahilində əylənirdik. Bir az kənarda da Səlva və ailəsi çadır qurub istirahət edirdilər. Səlvanı görürdük. Bizdən bir az aralı keçib su götürməyə gedirdi. Onu ələ salırdıq. İngilis mədəniyyəti bizi elə yatızdırmış, elə uydurmuşdu ki, İslamı yaşayan öz din qardaşlarımıza rişxənd edirdik... Nə qorxunc bir vəziyyətə düşmüşdü müsəlman gəncliyi... Onların sırasında durub öz sırasını bombalayırdı.
O gün yenə su gətirməyə getdi Səlva... Yanımızdan keçdi. Belə qərara gəldik ki, qayıdarkən dostum Mühəmməd, Cəmilə, Nova və mən ona sataşıb əylənək. İşi görməyi mən öhdəmə aldım. Yanımızdan keçərkən səsləndim.
– Nənə, bizə bir az su verərsinizmi?
– Əlbəttə, bir qab verin sizə su verim.
– İnsanları suvarmaq sizin xoşunuza gəlir?
– Xeyr. İnsanları suvarmaq o qədər də xoşuma gəlmir, çünki insanlar susadıqları zaman su axtarıb tapırlar. Amma heyvanlar belə deyil. Ona görə də heyvanları suvarmaq mənim çox xoşuma gəlir.
Hamımız səsimizi kəsmişdik.
– Necə, yəni bizi heyvan elədin?
– Xeyr, yavrum. Nənə olduğum üçün gözlərim o qədər də seçə bilmir. Sənin yanında heyvan da var?
– Bizə bir az su verdin, amma burnumuzdan gətirdin. Sən insanlara etdiyin yaxşılığı onların başına qaxırsan?
– Xeyr. Əsla insanlara etdiyim yaxşılığı başa qaxmıram. Əgər qarşımdakının xarici ilə insan olduğu kimi, daxili ilə də insan olarsa...
Elə bildim ki, beynimi bomba ilə partlatdılar... Bizə «Sağ olun!» deyib uzaqlaşdı. Cəmilə çox əsəbiləşmişdi:
– «Bu əbləh qıza bizi mars etməyin nə olduğunu göstərəcəm» – dedi.
Oğlanların yanında alçalmışdı. Biz də qızların yanında rəzil olmuşduq. Dərhal onların çadırına tərəf getdik. Ən azından ona bəzi sözlər deyib ürəyimizdən tikan çıxaracaqdıq, qarşımıza yenə o çıxdı. Səncə, nə desə yaxşıdır; «Buyurun... Saman istəyirsiniz?» Əməlli-başlı əsəbiləşmişdik:
– Mənə bax! Sən özünü nə sayırsan?
– Mən özümü saymıram, əminəm ki, mən insanam. Özü də müsəlman bir insan. Ölkəsini xaincəsinə əlindən alan, qəsbkara və imperialist zalımlara oxşamayan, öz əqidəsinə görə qürurla ayaqüstə dayanacaq qədər şərəfli bir müsəlmanam:
– Biz nəyik? Biz kafirik?
– Sizlər əvvəl insan olun. Bu haqda sonra danışarıq.
– Sən nə cürətlə bizi təhqir edirsən?

– Bəs siz kimsiniz ki, günlərdir mənimlə məsxərə edirsiniz. Ölkənizi, şərəfinizi əlinizdən alan ingilislərə peşkəş edib, onlar belə olduqları halda, «mən sadəcə müsəlmanam» – deyə mənə rişxənd etdikdən sonra sizə insan demək olarmı? İnsanlıq bu qədər alçaldıla bilməz. Başqa sözünüz var?

Biz bilmirdik ki, nə deyək. Güc-bəla ilə danışdım.

– Sən bizi səhv başa düşmüsən?

– Düşüncəmi mühakimə edəcək qədər şəxsiyyət sahibi olduğunuzu sanmıram. Tez gedin, ingilislərin əkin yerlərində sizin üçün yer olub-olmadığını axtarın.

Aman Allah, bu nə dəhşətli qızdır. Bizi palçığa batırmış, lakin bu çamurdan çıxarmaq fikri yox idi.

Aramızda ən çox əsəbiləşən Cəmilə idi. Ağlaya-ağlaya geri qayıtdı.

– Cavab verə bilərsinizmi? Bizim ölkəmizə ingilislər zorla girmədilərmi? Bizi dinimizdən ayırıb müasirlik adı ilə bu pivə şüşələrini əlimizə onlar vermədilərmi? Nə üçün biz bu gənc qıza alçaq gözlə baxırıq. Nə üçün, nə üçün? Susmayın, cavab verin. Bu qızın hansı sözü səhvdir? Siz deyin, bizim heyvandan nə fərqimiz var? Neçə gündür ki, ona sataşır və bizi başa düşmədiyini zənn edirdik. Utanıram. Bir bizim vəziyyətimizə baxın...

Hamımızın əynində gödəkcə... mavi rəngli cins...

Biz ingilisik?

Cəmilə hönkür-hönkür ağlayırdı:

– Allahım, bizi bağışla... Bizi Özünə doğru hidayət et... Bu gənc qız kimi olmaq istəyirəm, məni ona oxşat, Allahım ....

İyrənirəm... İyrənirəm bu mədəniyyətdən... Xilas olmaq istəyirəm. Məni xilas ediiin!!! Xilas edin məni.

Hamımız yenə çıxılmaz vəziyyətə düşdük. Nil boyu Cəmilənin səsi əks-səda verirdi. Bir də gördüm ki, Səlva gəlir. Cəmilənin səsini eşidibmiş. Dərhal gəlib Cəmilənin boynuna sarıldı... İkisi də ağlayırdı... Səlvanın kədərlə dolu səsi ruhuma işləyirdi.

– Bacım, bizi bir-birimizdən ayırdılarmı? Bizə hiylə qurdularmı? Canım bacım, kədərlənmə. Bundan sonra daha başqa cür olarıq. Aramızdakı mənəvi bağları təzələyərik. İsti bir ruhla bağlanarıq bir-birimizə.

Cəmiləni qucaqlayarkən Səlva ilə bir dəfə göz-gözə gəldim. Aman Allahım, nə dəhşətli gözlərdi!.. Sanki qərarlı, vüqarlı və elmlə dolu idi. Dərhal gözlərini məndən çəkdi... Lakin mənim ruhum və gözlərim ondan bir daha çəkilmədi. Çox elmli, özündən arxayın danışan Səlvanın dalınca düşdüm. O gün ilk işim bu oldu ki, içkini atdım. Namaz qılmağa və dini kitablar oxumağa başladım... Artıq əsl müsəlman gəncə oxşayırdım. Ogünkü söhbətlər Cəmiləyə də çox təsir etdi. O da çox gözəl dindar bir qız oldu... Başını örtdü... Oxudu, Səlva ilə rəfiqə oldu. Mən hər gün Səlvagilin evinin qarşısından keçməyə başladım. Üç ay sonra Qahirədə bir mağazadan çıxarkən gördüm onu. Qaçaraq yanına getdim.

– «Mərhaba, Səlva. Mən Əbdülvəhhabam. Məni tanıdınızmı?» – dedim.

– Nəsə bir sözün var?

– Mən!.. Şey!!.. Mən artıq bir müsəlmanam. O gün mənə çox təsir etdiniz. Sizin sayənizdə dəyişdim.

– Sevindim. Allah qəbul etsin.

– İnanmırsınızmı?

– İslama daxil olmağının şərti mənim inanmağım deyil. Mən inanmasam da olar. Allah hər şeyi bilən və görəndir. Əgər insanlar sizə inanmasalar, kədərlənməyin. Hədəfiniz yalnız özünüzü Allaha bəyəndirmək olsun. Hər hansı bir insan bəyənsə, onu bəyənməz və həqiqi müsəlman olduğunuza inanmazlar. Fikir verməyin!

Dərhal mövzuya keçdim:

– Sən mənimlə evlənərsənmi, Səlva?

Bunu necə dediyimi bilmirəm. Bir az dayandıqdan sonra:

– Mən bildiyimə görə küçədən kartof-soğan alınar. Xeyir ola?.. Məni onlara oxşadırsan?

Dərhal getdi. Aylarla cəhd göstərdim. Axırda ailəmi göndərdim. Dəfələrlə göndərdim. Və nişanlandıq... Mən də İslamçı bir gənc oldum. Alnıma burada oxumaq yazılmışdı, ona görə bura gəldim. Qayıdan kimi evlənəcəyik. Allah izn verərsə.

Bax, onunla belə tanış olduq. Sonra o məni sevdi. Əzmkar olmağımı çox bəyənibmiş.

– Çox təsirləndim. Deməli, dindar qızların belə savadlı olanları da varmış. Görəsən, nə üçün biz dindar qızları axmaq, cahil və bacarıqsız hesab edirik?

– Belə aşılandığı üçün. Bir az da belə qızların az olması xoşagəlməyən vəziyyət yaradır. Bir gün gələcək ki, belə oğlanların da, qızların da sayı artacaq. Az qalıb, görəcəksiniz.

## BEŞ GÜN SONRA

Fakültəyə gedib-gəlirdim, lakin dərslərin heç biri başıma girmirdi. Mehmetlə nə danışacağam, görəsən? O, katolik istəmirdi. Anam nə olacaq? Mən isə artıq dindən çıxmışam. Dərdimi kimə deyə bilərəm ki? Əbdülvəhhab

da mənimlə səmimi olmaqdan qaçırdı... Kaş məni dinləyəydi. Mehmetimdən bir xəbər verəydi mənə. Onu necə inandıracağımı deyəydi mənə.

Mehmetim... Nə olar artıq gəl, sənsiz bu həyatın keşməkeşlərinə dözə bilmərəm mən.

O gün Əbdülvəhhabı axtardım. Gəlməmişdi. Bir dostunu gördüm.

– Dünən axşam çox ağladı. Amma səbəbini demədi. «Bu gün də gəlmədi», – dedi.

Çox kədərlənmişdim. Nə olursa-olsun onu tapıb mütləq səbəbini öyrənəcəkdim.

Yol boyu gedərkən hey düşündüm.

– Görəsən, Əbdülvəhhaba nə olub!.. Yoxsa... Yoxsa, bu uşaq mənə aşiq olub? Amaaan, boş-boş danışıram... Onun Səlvası, mənim də Mehmetim var. Belə bir axmaqlığı, əcəba, niyə düşünürəm?

Bax, onun qaldığı yataqxanadayam. Qapıçı qadın xəbər verdi. Mən gözləmə salonunda oturmuşdum. Bax gəldi. Aman Allah, bu uşaq ölüdür, nədir? Rəngi ağappaq olub. Birdən ayağa qalxdım.

– Nə olub, Əbdülvəhhab?

– Heç nə soruşma, Mariya.

– Allah xatirinə de görüm sənə nə olub?

– Dünyam... dünyam dağıldı, Mariya!

– Nə olub?

Ağlamaqdan danışa bilmirəm.

– So... Soruşma... Halım yoxdur, danışa bilmirəm.

– Məni dəli eləmə, nə olar. Biz dostuq, qardaşıq. Nə üçün mənə demirsən?

– Səlvam!

– Nə oldu Səlvaya? Başqası ilə evlənib?

– Səlvam! Canım Səlvam! Səlvam ölüb!! Səlvamı öldürüblər!

– Necə? Ölüb?

– Bəli, ölüb!.. İşgəncə ilə öldürüblər!! Daxili qanama keçirib.

– Kim edib bunu?

– İngilis itləri! «Sən islami təşkilatdansan, nə bilirsən de», – demişlər. Üç ay nəzarətdə saxlayıb, işgəncə veriblər. Sonra azadlığa buraxıblar.

Bir aydan sonra yenə həbs ediblər... Misirli məmurlar da ingilislər kimi düşündüklərinə görə onun şikayətinə qulaq asmayıblar. Getdi!.. Getdi Səlvam!! Canım-ciyərim getdi! Artıq onunla orada görüşüncəyə qədər onu bir daha görə bilməyəcəm.

– Harada görüşəcəksən?

– Orada!

– Ora haradır?

– O biri dünyada... Gözümüzü bağlayan kimi gedəcəyimiz aləmdə.

– Yaa!!! Deməli, onunla orada görüşəcəksən? Nə gözəl. Yaxşı, onunla evlənə biləcəksən?

– Əlbəttə, evlənəcəyəm. Bir şərtlə ki, Cənnətə girənlərdən olum. Yeganə təsəllim də budur. Onu görə bilmə ehtimalım olmasa, nə edərdim?!

Ona təsəlli verməyə çalışdım, lakin göz yaşları dayanmırdı. Mən də ağlayırdım onunla... Təsəllimə qulaq da asmırdı. Ağlamaq daxildən, təsəlli isə xaricdən gələn bir şeydir. Sözlərim göz yaşlarında itib gedirdi.

## GÖZLƏTMƏ, MEHMET

Aradan yenə aylar keçmişdi. Mehmet hələ də gəlməmişdi... Hər gün ona məktub yazırdım. O da cavab yazırdı, lakin mən Mehmet üçün çox darıxmışdım. Onsuz yaşamağa öyrəşə bilmirdim... Anamsa məni hələ də xristian sayırdı. Müsəlman da deyildim. Böhran üzərinə böhran keçirdiyim halda Mehmetdən ayrıla bilmirdim.

* * *

Nəhayət, fakültəni bitirib diplomu aldım. Türkcə danışmağı çox gözəl öyrəndim. Mehmet gəlməsə, onu Türkiyədə tapacağam. Bəlkə, müsəlman da olaram. İslamı çox sevməyə başladım. Atam «İş yerin İstanbuldur», – deyirdi. Getsəm, orada faydalı məlumatlar verərəm. Əbdülvəhhab yenə də həmin vəziyyətdədir. Ona baş çəkməyə gedincə mənimlə sərt davranır. Halbuki onu bir bacı kimi sevirəm, nə üçün belə etdiyini başa düşə bilmirəm... Yazıq uşaq hələ də Səlva deyib dayanmışdı. Onu çox yaxşı başa düşürəm. Mehmetim ölsə, mən nə edərəm?! Nə gözəl məktublar yazır. «Sənsiz bu ölkə mənim üçün qaranlıqdır», – deyir. Mənimlə ölkəsində evlənmək istəyir.

Ona katolik olmadığımı, kilsəni tərk etdiyimi yazdım. Çox sevinmişdi... Hər məktubunda «Səni təbrik edirəm», – deyə yazırdı. Kaş müsəlman ola bilsəydim, lakin bu o qədər də asan deyil.

* * *

Bir bazar günü çox darıxdım. Əbdülvəhhabın yanına getdim. Onsuz da lazım olanda onu görürdüm. Məni görüncə:

– Yenə nə oldu, Mariya?

– Səni görməyə gəldim.

– Neynirsən məni?

– Aman, sən nə ruhsuz adamsan...

– Mariya, mən səni görmək istəmirəm.

– Amma mənim sənə ehtiyacım var. Nə olar Mehmetə bir məktub yaz. «Mariya sənin dərdindən öləcək, nə olar gəl» – de. Artıq dözə bilmirəm.

– Bəsdir, Mariya. Sənin də, Mehmetin də əlindən bezdim. Nə üçün məndən əl çəkmirsən? Keçən həftə sənə gəlmə demədimmi?

– Müsəlman bu qədər də qaba olarmış? Az qalıb ki, mən müsəlman olum, sən isə məni uzaqlaşdırırsan.

– Nə olursan ol. Artıq mənim səni görməyə təhəmmülüm yoxdur. Sən əvvəl-axır müsəlman olacaqsan. Mən bunu onsuz da bilirəm.

– Heç də elə deyil. Haradan çıxartdın bunu?

– Hər bir ağıllı insan İslama dönməyə məcburdur. Sən də ağıllısan... Nə etməlisən ki? Allahın yaratdığı dünyada Ondan xəbərsiz yaşayacaqsan?..

– Sənin bu davranışların aşiq olan insanın davranışlarıdır, Əbdülvəhhab. Yoxsa, mənə aşiq olmusan, hə? Aman, mən nə axmaq-axmaq danışıram. Sən Səlvanı sevirdin... Yaxşı bir məna verə bilmirəm. Sən yalnız günahı düşünmürsən. Məni görüncə elə bil ağlını itirirsən. Yaxşı bəs mən dərdimi kiminlə bölüşüm? İki arada bir dərədə yox, düz dörd arada dörd dərədə qaldım.

– Məni rahat burax... Dərdini də kimə deyirsən de.

Birdən qalxaraq bağırmağa başladı. İlk dəfə gözlərimin içinə baxırdı.

– Bəs mən dərdimi kimə deyim? Deyə bilərsən, Mariya, mən nə edim? Bu kədərli günlərimdə sənin Mehmetinə qulaq asmağa məcburammı? Sevgiyə və bir dosta möhtac olduğum vaxtlarda içdən bir sevgi ilə mütəmadi olaraq yanıma gəlməklə məni çıxılmaz bir vəziyyətə saldığını bilirsənmi?

– Aman Allahım! Sən nə boş-boş danışırsan. Sən Səlvanı sevirdin!

– Yenə sevirəm. Yenə də o mənim canımdır. Amma bunu unutma, Mariya, sevgilisi ölənlər xədim olmurlar... Bir gün yenə sevgiyə ehtiyac hiss edərlər. Yenə sevə bilərlər. Dünya budur, Mariya. Heç bir sevən sevdiyi ilə ölmür... Əl çək məndən, Mariya. Sənə çox öyrəşdim. Ağlım da sözümə baxmır. Mən biri ilə evlənincəyə qədər gözümə görünmə.

– Aaa! Sən əməlli-başlı dəli olmusan. Mehmeti sevdiyimi bilirsən. Sən bir müsəlmansan.

– Düzdür, elə müsəlman olduğum üçün Mehmetin sevgilisinə «mənə yaxınlaşma» – deyirəm. Mehmeti sevdiyinə gəlincə mən sənə heç dedim ki, onu sevmə? Get, qızım, get. Kimi sevirsən, sev, amma məni narahat etmə. Müsəlmanıqsa, daş deyilik ki. Hərəkətlərimizə nəzarət edə bilərik, amma qəlb həmişə nəzarət altına alına bilməz. Bunlar bəsdir? Bundan da açıq ancaq dəli ilə danışmaq lazımdır.

– Yəni sən mənə aşiq olmusan?

– Xeyr... Səni özümə yaxın hiss edirəm. Hisslərimin təhrik olunmaması üçün tədbir görürəm.

– Səfehlik etmə... Mən də səni özümə yaxın hiss edirəm, amma səndən qaçmıram.

– Sənin qaçmağına ehtiyac yoxdur.

– Bu nə deməkdir?

– Mariya, sən söz başa düşmürsən? Səni görmək istəmirəm. Sənə çox ehtiyacım olsa, məktub yazacam.

– Sən çox ciddisən.

– Bəli.

– Amma mən səni görməsəm, dayana bilmərəm.

– Nə üçün? Bu an sevgiyə ehtiyacın var. İçindəki boşluğu mənimlə doldurursan. Mehmetinə qovuşarsan, hər şey sona çatar.

– Həəə... Deməli, hamısı bu qədərmiş?

– Bəli... Hamısı bu qədərmiş.

– Məni dinimdən, etiqadımdan ayırdın. Heç olmasa, İslamı öyrət. Belə dinsiz-dinsiz gəzmək xoşuma gəlmir.

– Mariya, mənə təsir etməyə çalışma... Sənin üçün bir müsəlman qız tapaq, İslamı ondan öyrən. Onsuz da neçə aydır ən əhəmiyyətli mövzuları sənə öyrətmişəm. Qalanını başqasından öyrən. Bir gün müsəlman olarsansa, mənə məktubla müjdə ver.

– Aaa! Buna bir bax, müsəlman olan kimi gəlib özüm sənə müjdə verərəm. Nə üçün məktub yazmaqla vaxtımı itirim ki?

– Uuuf, uf Allahım! Bu qızı haradan urcah etdin mənə?! Başa düşmür, başa düşmür... Mariya, mən müsəlmanam. Mən İslam şəriətini, yəni hökmlərini qorusam, o da məni qoruyar. Günah etməmək, günaha yaxınlaşmamaqla olar. Sən mənim üçün bir günah vəsiləsisən... Sənə yaxınlaşmaq istəmirəm... Daha açıq danışaq, sanki səndə Səlvamın ruhunu görürəm.

– Oldu, oldu... Gedirəm. Sən də günah etmə. Onsuz da bütün günahlar məndədir. Səni özümün bir parçası olaraq gördüm. Səni çox sevdim...

Ondan ayrıldığım zaman gözləri dopdolu idi. Gözləri yaşarınca sanki beynimdən vuruldum. Mehmeti sevməsəydim, onu sevə bilərdim. Hətta yenə sevirəm...

Çölə çıxıb maşınıma minərkən yanıma gəldi.

– Qabalığıma fikir vermə, Mariya. Mütləq İslamı da qəbul et, oldumu? Sənə son dəfə güzəştə gedirəm, İslamı qəbul edən kimi gəlib mənə müjdə verərsən.

– Təşəkkür edirəm.

– Səni incitdiyim üçün məni bağışla!..

– Bəli, çox incitdin... Dünyamı dağıtdın.

– Mənə öyrəşdiyin üçün dünyan dağıldı?

– Xeyr! Məni bir daha görmək istəmədiyin üçün. Xətrimə dəydin.

– Yaa... İncidin, Mariya? Qəlbini qırmaq istəməzdim, amma mənimki də bir başqa cəhətdən xarab oldu. Həə! Yadıma düşmüşkən deyim. Məni yanına apardığın keşiş var ha.

– Həə, nə olub ona?

– O müsəlman oldu.

– Nəəə?

– Bəli, müsəlman oldu. Axtarıb məni tapdı. Alnımdan öpdü. Mən səbəb olmuşam.

– Aman Allahım! Anam eşitsə, hirsindən öləcək. Mehmet eşitsə, çox sevinəcək... Doğrusu, mən də sevindim.

– Mən də sənin sevinməyinə sevindim. Həm də çox...

Maşınımın açarını heç fırlatmaq istəmirdim. Çox öyrəşmişəm ona, lakin yenə qabalığı tutdu.

– Yaxşı, get artıq, Mariya.

– Bir daha görüşməmək şərti iləmi?

– Nə yazıq ki, elədir.

– Bu necə ola bilər? Mən səni görmədən...

– Bəsdir, artıq get... Allahdan istəyim budur ki, əsl müsəlman olasan.

Onunla söhbəti uzadırdım.

– Məgər hər müsəlman əsl müsəlman deyil?

– Xeyr. Biz, bu günün müsəlmanları Allaha dua edərkən qəlbən dua edirik. Tam İslama görə dua edirik. Amma İslama görə hərəkət etmir, İslama görə yaşamırıq.

Unutma, inananlar qardaşdır, lakin təəssübdə həddi aşanlara görə yalnız eyni qrupda olanlar qardaşdır. Bir gün müsəlman olacaqsan. Məbadə sən də elə olasan... Məbadə cahillərin, qüruru naminə ayrı-ayrı qrupları müsəlman görməyənlərdən olasan. Bəlkə də, bundan sonra səni görə bilməyəcəm. Bu tövsiyəmi də heç vaxt unutma... Kim nə deyirsə desin, hədəfin, yalınz və yalnız Allah rizası olsun... Başısoyuqluq etmə, oldumu. Mütləq Allaha doğru üz çevir... Sənə müsəlman olmaq çox yaraşır... Unutma, Mariyam!..

– Aa! Sən mənə Mariyam dedin.

– Ola bilməz. Səhv eşitmisən.

– Yox, dedin... Mariyam dedin.

– Uzatma artıq... Yəqin ağzımdan çıxıb. Artıq qaza bas.

Məcburən oradan ayrıldım. Güzgüdən gördüm ki, gözlərini silir. Yol boyu düşündüm. Gəzən biri olsa, belə sevə bilməzdi. Ay Allah nə üçün bu uşaq məni sevdi? Boş-boşuna əzab çəkir. Mən də onu sevirəm. Amma o məni sevmir, əməlli-başlı aşiq olub. Onu görməmək nə pisdir. Aman, Mehmet, haradasan, artıq gəl.

Lazım da deyil. Mən Türkiyəyə gedirəm...

Yenə də bu düşüncələr burulğanında evə gəldim.

## ATAMIN NƏSİHƏTLƏRİ

Müqəddəs atanın müsəlman olmasına çox heyrətlənmiş və bunu dərhal atama demişdim.

– Nəə! Müsəlman olub? Bu adam ağlını itirib, deyəsən?

– Başa düşə bilmirəm, ata. Mən də çox təəccübləndim.
– Nə görüb «İslam»da?
– Bilmirəm.
– Aydındır... Onu o gənc müsəlman edib, çünki o gənc çox təsirli və məntiqli danışır. Allaha şükür sənə təsir edə bilməyib. Amma hər nəsə, sən çox ağıllı bir qızsan.
Atam bu xəbəri həzm edə bilməmişdi. Salonda bir az var-gəl etdikdən sonra mənə tərəf döndü:
– Mənə bax, Mariya! Bu xəbər ürəyimi çox sıxdı. Bu keşişin nə üçün müsəlman olduğunu mənim üçün öyrənə bilərsənmi?
– Haradan öyrənim?
– Get, o Əbdülvəhhabdır, nədir, ondan soruş.
– Mən onun yanına getmirəm, ata. Həm də hesab etmirəm ki, o bilir. Müqəddəs ata ona müjdə verib, gedib.
– Yooo... Mən müsəlmanları tanıyıram. Bir keşiş müsəlman olacaq və onlar da onunla əlaqəni kəsəcəklər, elə şey ola bilərmi? Mümkün deyil. Mən onların tarixində xarakterlərini oxumuşdum.
– Amma o tarixdəki müsəlmanlar, deyəsən, yoxdur... Yəni çox azdırlar, deyəsən, gələcəkdə sayları artacaq.
– Onlara elə gəlir. Biz gələcəkdə İslamın izini belə saxlamayacağıq. Axmaqların xəbəri yoxdur.
– Ata, sən ki Allaha inanırsan.
– Qoy inanım. Din şərtdirmi?
– Madam ki Allah var, o halda insanlardan nə istədiyini bildirməlidir, elə deyilmi?
– Bəli... Məntiqə görə belədir.
– Ya İslamla bildirmişdirsə?
– Sən Allah, özünü yorma. Məbada, sən də təsir altına düşəsən? Allah qorusun... Bu keşiş məni yaman kədərləndirdi... Xalq bunu eşidərsə, çox sarsılar... Bəzilərinin də müsəlman olmasına səbəb olar. Dərhal qəzetə xəbər verim.
– Aaa! Nə üçün, ata?
– İndi bilərsən.
Atam qəzetə «... dərhal böhran keçirdi və kilsənin verdiyi pul mənə çatmır» – deyərək keşişliyi buraxdı. «Müsəlmanlıqda daha çox pul var» – dedi və «yazın» əmrini verdi.
Çox təəccübləndim.
– Niyə belə etdin, ata?
– Səbəbi açıq deyilmi? «Keşiş nə üçün İslamı qəbul etdi?» – deyə maraqlananlar İslama meyil edə bilərlər. Beləcə camaatın marağına cavab vermiş olduq.
– Çox zəkalısan, ata.
– Sivil bir dünya qura bilmək üçün zəkalı olmağa məcburuq... Haa... Sən nə üçün o gəncin yanına gedib soruşmaqdan qaçırsan?
– O özü məni görmək istəmir.
– Nə üçün, əcəba? Çox məmnun oldum. Yoxsa, səni təsir altına sala bilərdi.
Dərhal pencəyini geyinib Əbdülvəhhabın yanına getdi. İki saatdan sonra evə qayıdanda sanki dəli olmuşdu. Anam israrla soruşdu:
– Soruşma, xanım. Bizim keşiş müsəlman olub. Özü də bilirsən nə üçün? Müsəlmançılıq məntiqinə uyğun gəldiyi üçün müsəlman olub.
– Donuz!!! Cəhənnəmə getsin!
– Ana, nə üçün müqəddəs ataya dil uzadırsan?
– O artıq müqəddəs ata deyil.
– Nə olsun ki? Yenə dindar və yaxşı insan olaraq həyatını davam etdirəcək. Özü də heç kimə qara yaxmadan.

* * *

– Mariya, gəl, qızım. Artıq Türkiyəyə səfərin başlayacaq. Bu gecə sənə bəzi işlər tapşıracam.
İstanbulda Laləlidə sənin üçün bir mənzil kirayə götürmüşəm. Bizim Atəşənin qızı Suzi də səninlə qalacaq. İlk xəbəri Türkiyədən verməyini istəyirəm. Almaniyanın ən böyük qəzetində işin də hazırdır. Türkiyədəki dostlarımızın da ünvanlarını verəcəyəm. Çox rahat olacaqsan.
Kaş ağlını işlədib Atatürkü tovlaya biləydin. Sənə dünyaları verərəm.
Bizim zəkamızla illərlə Türk liderlərinə özümüzdən qadınlar verdik. Saraylarında bir qədər bizim mədəniyyətimiz taxt qurdu...
– Bunu məndən istəmə, ata. Mən Mehmetlə evlənəcəyəm. Başqasında gözüm yoxdur.

– Qızım, Atatürk on dənə Mehmetə dəyər. Həm şöhrəti var, həm də çox yaraşıqlıdır...
– Mənim üçün fərq etməz.
– Nə isə, heç olmasa ona yaxın ol. Bizim fikirlərimizi anlatmaqda bizə yardımçı olarsan.
İkinci vəzifən odur ki, Türkiyədə nə qədər açıqfikirli yazıçı varsa, hamısını müəyyənləşdir. Onlarla gecə dərnəkləri təşkil et. Dərnəkləri artırmağa çalışın.
– Oldu, ata. Bol-bol da mükafat verim, elə deyilmi? Bir tənəkə parçası da verilsə, insanlar məst olar.
– Afərin. Bunu sənə kim deyib? Mənmi?
– Bəli, atacan, sən... İnsanların zəif cəhətlərini necə tutmusan. Bunu necə edə bildin, ata?
– Çox sadə, qızım. İnsan çox təriflənməyi sevir. Elə olmasa, bir alqış almaq üçün bu qədər sənətkar küçələrə tökülərmi?
– Mükafatı nə üçün verəcəyik, haradan verdirəcəyik, ata?
– Aaa, qızım, səbəb çoxdur. Eyvanı bəzəyənə mükafat. Gözəl geyinənə mükafat. Gözəl danışana mükafat. Gözəl yazana mükafat. Kazinoya çıxana mükafat. Soyunana mükafat. Heyvan bəsləyənə mükafat. Ailə planlamasında uğur qazanana mükafat. Bir şeir yazana mükafat. Ən bacarıqlı valiyə mükafat. Ən bacarıqlı şagirdə mükafat... mükafat vermək üçün bəhanə çoxdur. Yetər ki, sən kimlərə mükafat verəcəyini bil. Onsuz da bu sahədə bizim dərnək çox gözəl uğur nümayiş etdirdi. Şöhrət sahibi olanları tam ələ almağı bacardılar.
Görüm də səni, qızım... Əsl sosial demokrat jurnalisti ol. Gizlincə xəbərləri bizə də çatdır. Baxarsan... Səni dünyanın ən böyük jurnalisti edəcəyəm.
– Ləyaqətim olmasa, necə, ata?!
Sən fikrən bizimlə olsan, ləyaqət qazanmış olursan. Bunu da unutma ki, bizim təsdiqimiz olmadan böyük jurnalist olmaq çətindir. Biz istəsək, sadə müxbiri belə böyük bir jurnalist edə bilərik.

## ARTIQ TÜRKİYƏ YOLUNDAYAM

Hər şeyim hazırlandı. Qatarla sabah saat on birdə hərəkət edirəm...
Sevincimdən sanki uçacam. Mehmetimi görəcəm. Mehmetim, bilsən sənin üçün nə qədər darıxmışam... Sən olmasan, mən neylərəm? Birdən yadıma Əbdülvəhhab düşdü. Nə olursa-olsun onu tapıb vidalaşacam. Çox keçmədən onu tapdım.
– Narahat olma. Məni son dəfə görürsən, gedirəm. Arsızlığımı bağışla. Səninlə sağollaşmadan gedə bilmədim.
– Çox sağ ol. Məni düşündüyünə görə sevinirəm.
– Sənmi? Bəsdir sən Allah. Haradadır səndə o göz?
– İnan ki, doğru deyirəm. Deməli, gedirsən?
– Bəli. Özü də sabah saat on birdə.
– Deməli, müsəlman olacağını görməyəcəyəm?
– Elədir. Bəlkə də, olmayacam.
– Olarsan. Sənin ruhun onsuz da müsəlmandır. Bircə qəlbinlə ağlının müsəlmanlığı əskikdir.
– Təşəkkür edirəm. Çox sağ ol.
– Bilirsənmi. Dünən gecə Səlvanı yuxumda gördüm. Mənə bir məktub verdi. Məktubda sənə salam yazırdı.
Yuxu məni çox təsirləndirdi.
– Maraqlıdır... Nə isə artıq gedim. Türkiyə də sizin ölkəniz sayılır. Müsəlman ölkəsi. Müsəlmanlar məni çox maraqlandırır. Baxaq görək onların arasında özümü necə hiss edəcəm?
– Mənə məktub yaz, oldu?
– Əlbəttə, yazaram.
– Mehmetə məndən çoxlu-çoxlu salam de. Sənə qovuşmasını, mənim müsəlman olmağıma borclu olduğunu bilsin.
– O nə deməkdir?
– Boş sözdür, fikir vermə.
– Mənim gedişimə sevinmirsən.
Gözlərini yerə dikərək cavab verdi.
– Hıı. Çox sevinirəm... Təəccüblüdür, necə də hiss etdin.
– Hiss edilməyəcək nə var ki.
– Nə isə, mövzunu dəyişək.
– Doğrudan... Sən günah edirdin. Yox, Əbdülvəhhab. Sən mənə qarşı zənn etdiyin kimi deyilsən. Elə olsaydı, mənim getməyimə izn verməzdin, məni Mehmetin yanına buraxmamaq üçün əlindən gələni edərdin.
– Mənim başqasının deyiklisi ilə nə işim var, nə boş-boş danışırsan? Nə isə, savaşmayaq.

– Doğrusu, son görüşümüzdür.
– Allah bilir.
– Amma bir az da bəllidir. Mən Mehmetlə evlənib orada qalacam.
– Əlbəttə, orada qalmalısan. Türkiyədə müsəlman qalmışsa, məndən salam de. (!)
– Amma sən ağlayırsan.
– Səlvam yadıma düşdü, ona görə ağlayıram. Sənə də çox öyrəşmişəm. Sən getdikdən sonra çox tək qalacam. Bunu indidən hiss edirəm. Amma bunun daha çox xeyirli olacağına əminəm. Yaxşı, sağ ol. Çox yaxşı bir arxadaş, çox yaxşı bir dostsan. Səni unuda bilməyəcəyəm.
– Bəsdir... Artıq get...
Arxasını çevirib getdi. Bilinirdi ki, ağlayır. Böyük bir kədərlə ayrıldım ondan.
Sabahkı gün hamı ilə sağollaşıb qatara mindim... Anam, atam... Dostlarım hamısı məni yola salmağa gəlmişdilər. Gözlərim Əbdülvəhhabı axtarmağa başladı. Onun sözlərini xatırladım.
«Bir qızla bir oğlan tez-tez görüşməməlidir. Görüşərlərsə, aralarında özlərindən asılı olmayaraq bir yaxınlıq meydana gələr. Ona görə ehtiyatlı davranıram» – demişdi.
Aman Allah, mən Mehmetimə necə xəyanət edirəm? Allahım, məni qoru. Ona qarşı olan sevgim çox təmiz olmalıdır. Əminəm ki, onun da mənə qarşı olan sevgisi səmimidir.
Qatar haradasa yola düşəcək. Qəhr olası gözlərim yenə də onu axtarır. Nə olar, buralarda bir daha yenə onu görsəm. Mən onu pis niyyətlə sevmirəm ki... Qardaş kimi... Dost kimi... Çox baxdım... Lakin gəlməmişdi. Qatarın acı fiti ilə ümidlərim itib getdi.
Qatarda düz pəncərənin dibindəki kresloda oturdum. Qarşımda qumralsaçlı bir qız oturmuşdu.
– Mərhəba.
– Mərhəba.
– Səfəriniz haradır?
– Türkiyəyə.
– Bəs sizin səfəriniz?
– Mən də Türkiyəyə gedirəm.
Onunla saatlarla danışdıq. Birdən yadıma düşdü.
– Ay!.. Mən sizin adınızı belə bilmirəm.
– Mənim adım Fikriyədir. Bəs sizin adınız nədir?
– Mənim adım Mariyadır... Harada yaşayırsınız?
– Ankarada. Siz Atatürkü tanıyırsınızmı?
– Aaa, onu kim tanımır ki?
– Bax, onunla qalıram.
– Başa düşmədim, necə?
– Yəni Çankaya Yay Sarayında yaşayıram.
– Necə ola bilər? Atatürkün arvadısınızmı?
– Xeyr, amma olacam. Mənimlə evlənəcək. Bir-birimizi sevirik.
– İnanmıram.
– İnan ki, düzünü deyirəm. Onu dəli kimi sevirəm.
Heyrət, tanışlığımız üç saat deyildi, amma dərdini mənə danışırdı. Özü də bunun fərqinə varmışdı.
– Mən də yaman boşboğazam. O saat sizi şəxsi məsələlərimlə narahat etdim.
– Qətiyyən elə düşünməyin. Mən çox təəccübləndim. Həm də çox sevindim. Sizinlə dost olarıq.
– Çox məmnun olaram. Ankarada sirrimi hamıya danışa bilmirəm. Bizim ölkəmiz hələ də bəzi qaba və mürtəcelərdən xilas ola bilməmişdir. Atatürkün bir sevgilisi olmasını qəbahət bilərlər – deyə Paşamla hələ də qol-qola gəzə bilməmişəm.
– O necə baxır buna?
– Yox, yaxşı baxır. Paşam, çox modern fikirlidir. «Xalq hələ buna hazır deyil» – deyir. Amma bu önəmli deyil. Yaxın vaxtlarda evlənəcəyik.
– Birdən sizinlə ailə qurmadı?
– Ola bilməz! Onunla yatağımı bölüşürəm. Qadın haqlarını qoruyan şəxs məni heç aldadar? Bu mümkün deyil. Bir düşünün, qadını qorumaq üçün, arvadının üstünə bir qadın da almaq istəyənlərə bunu yasaq etdi. Nə üçün? O qadın ağlamasın, kədərlənməsin deyə. Mən də bir qadınam. Məni heç ağlatmaz. Üstəlik ona canını verməyə hazır olan bir gənc qadın... Gənc qız... Ona görə də ondan heç narahat olmuram. Lakin anası məni qorxudur. Məni sevmir.

Amma belə zənn edirəm ki, Atatürk ümid verdiyi bir qıza, bir qadını «başqa bir qadın istəmir» – deyə zülm etməz.

– Əlbəttə, zülm etməz. Ondan yoxdur. Doğrusu, atanız məni çox maraqlandırdı. Sivil bir insanmış... Hələ sizin ölkənizin insanlarına «barbar» deyirlər.

– Düzdür, barbar da çoxdur. Amma yavaş-yavaş hamısını düzəldəcəyik. Eynən Avropa kimi edəcəyik.

– Çox zəkalısan. Bütün türk qızları sənin kimi zəkalıdır?

– Bəli, bəli. Xaricdə oxuyan hər bir kəs mənim kimi düşünür.

– Çox məmnun oldum. Mən də bir jurnalist olaraq ölkənizdə xidmət etməkdən məmnun olacam.

– Sizi atamla tanış edərəm. Çox xoşhal olar.

– Ay, inan ki, indidən həyəcanlandım.

– Səninlə məktublaşarıq. Dost olarıq. Bir-birimizə zəng edərik.

– Çox yaxşı olar. Aman Allahım, bilməzsən ki, nə qədər sevindim. Bütün bunları atama yazacam... Çox heyrətlənəcək.

– İstanbulda dostun varmı?

– Sevdiyim gənc var. Onunla evlənəcəyik.

– Bir alman qızı və bir türk gənci. Bəs dünyabaxışlarınızdakı fərq necə olacaq? Gənc heç olmasa, modern gəncdirmi?

– Bəli, modern demək olar. Lakin mənim katolik olmağım onu narahat edirdi, artıq katolik deyiləm. Deyəsən, müsəlman olacam.

– Aaa!! Doğrudan?

– Bəli... Düşünürəm.

– Nə qədər maraqlıdır, bizim müsəlman gənc qızlar sizə, siz də bizəmi etimad göstərirsiniz?

– Aaa! Siz də müsəlmansınız?

– Əlbəttə.

– Təəccüblüdür... Eyni ilə bizə oxşayırsınız. Müsəlmançılıqda sizinlə biz eyni ilə bir-birimizə bənzəyirik?

– Biz buna görə mənim paşama borcluyuq. Paşam müsəlman qadının avropalı qadınlar kimi olmasını istəyir. Mürtəcelərlə də mübarizə aparır. Hər şey öz zamanında həll olunacaq.

– O halda, demək, mən də müsəlman sayılıram. Madam ki arada bir fərq yoxdur, nə gözəl, ikimiz də eyni geyinir, eyni düşünürük. Müasirlik... İnkişaf... Bunlar gözəl bir vəhdətdir.

Onunla çox tez dostlaşdıq... Mənimlə İstanbulda bir gecə qaldı. Ertəsi gün evi yerbəyer etməyə də kömək etdi. Amma «Atam üçün çox darıxdım. Artıq dayana bilmirəm» – deyib getdi... Çox xoşniyyətli, ürəyiyumşaq bir qızdı. Eyni ilə mənim kimi.

Fikriyə Ankaraya gedər-getməz, mən də Mehmetin ünvanını götürüb onun yanına getdim.

Bax, bax ünvanı tapdım. Bu sarı bina. İkinci mərtəbə. Aman Allahım, ürəyim dayanacaq! Görəsən, Mehmet nə edəcək?

Məni gətirən faytonçunun pulunu verib, «gedin!» – dedim. Mehmet bu günlərdə gələcəyimi bilir, mütləq evdədir... Aman Allahım, bu nə həyəcandır!!! Haradasa bir ildir ki, onu görmürəm. Nə üçün belə oluram?

Dizlərimdə taqət qalmadı... Güc-bəla ilə ikinci mərtəbəyə qalxdım... Titrəyən əllərimdə sanki barmaqlarım yox idi. Birtəhər zəngi basdım... Qarşımda bir xanım...

– Buyurun, xanım.

– Mehmet lazımdır, evdədirmi?

– Bu evdə Mehmet adlı adam yaşamır, övladım. Həə... On gün bundan əvvəl köçən ailəni soruşursan. Onlar getdilər. Onların Mehmet adında bir oğulları vardı. Müəllimlik edirdi.

– Necə yəni? Sizə hara getdiklərini demədilərmi?

– Xeyr, övladım!

– Ola bilməz. Bəlkə, yadınızdan çıxıb. Mehmet mənim gələcəyimi bilirdi. Bəlkə, nəsə yazıb evə qoyub, sizin xəbəriniz yoxdur. Nə olar, soruşun. Mənə belə bir xəyanət edə bilməz!

– Yox, övladım. Elə bir şey olsa, mən bilərəm.

Orada oturub qaldım. Bir az özümə gələndə qadın məni içəri apardı, su verdi... Odekolon tökdü. Amma mən hıçqıra-hıçqıra ağlayırdım. Deməli, özümə gəlməyə başlayıram ki, ağlaya bilirdim. Ağlaya bilmək, şokun bir addımlığındayam deməkdir.

Başıma gələnləri qadına danışdım. Çox kədərləndi. «Bura gəlsələr deyərəm» – dedi. Yenə də prospektlərinə yad olduğum İstanbul küçələrində dəli kimi gəzir, bir taksi axtarırdım. Özümü güclə evə çatdırdım. Evə gələndə mənimlə birgə qalmalı olan Suzini gördüm. Məni qucaqladı... Pərişan vəziyyətimi gördüyü üçün başıma gələnləri ona da danışdım.

Necə edə bilər... Mənə qarşı bunu necə edə bilər? Bəs deyirdi ki, məni dünyaya dəyişməz? Bəs deyirdi ki, mənsiz ölər? Yox, əzizim... İşin içində iş var...

– Aaa! Bir kişiyə görə bu qədər göz yaşı tökməyə dəyər, əzizim? Səndən gözəlini görüncə səni dərhal unudar... Dəyməz... Kişilər üçün ağlayan axmaq, qadınlar üçün ağlayan səfehdir. Daha doğrusu, heç kim üçün ağlamağa dəyməz.

– Amma o, heç kim deyil. Mənim Mehmetim.

– Fikir vermə, Mari, fikir vermə. Bu dünyada heç kim əbədi olaraq heç kimin deyil.

– Sən sevgiyə inanmırsan?

– İnanıram. Amma «Sevgi sonsuzdur» fikrinə inanmıram. Səbəblər olarsa, hər bir sevgi sona çatır. Heç kim sevgini ilahiləşdirməməlidir.

– Sən çox kinlisən.

– Bəli... Bir vaxtlar mən də sənin kimi düşünürdüm. Kamalı çox sevdim. Ölüncəyədək. Sən demə, axmaq olmuşam. Mən onu sevərkən, o məni o qədər rahat tərk etdi ki, günlərlə özümə gələ bilmədim. Həm də yersiz ittihamlarla dolu bir məktubla hər şeyə son qoydu. Bəli, bir məktub, sadəcə bir məktub. Bax, onun gözündə mən, sadəcə bir məktub dəyərindəyəm.

– Amma Mehmet belə deyil. Mehmet məndən qaçmaz. Niyə qaçsın ki?! Mən onun canıyam.

– Boş-boş danışma. Heç kim heç kimin canı deyil, canım. Özümüzü aldatmayaq...

– Xeyr. Mən özümü aldatmıram. Mehmet məni qoyub qaçmaz.

Bəli, qaça bilməz deyirdim, amma aradan günlər keçmişdi, hələ də Mehmetimi tapa bilmirdim. Çox sıxılırdım. Oturub Əbdülvəhhaba, anama və atama məktub yazdım.

Əvvəl Əbdülvəhhaba yazmağa başladım.

«Sevgili dostum, canım dost, bura gəldiyim gündən bəri sərxoş kimi gəzirəm. Bir qeyri-adi halım var, görsən təəccüblənərsən. Ona görə boş-boş danışsam, fikir vermə.

İstanbul Avropanın oxşarı deyil, amma ona çox yaxındır. Burada başqa bir dünya tapacağımı zənn edirdim, amma insanların görünüşü fərqlidir, bizə çox etimad göstərirlər.

Sənə bir müjdəm var. Atatürkün sevgilisi ilə tanış olmuşam. Hələ də inana bilmirəm. Avropada təhsil alıb. Çox təmiz və gözəl bir qızdır. Mən Mehmeti sevdiyim kimi, o da Atanı sevir. Ona çox güvənir. Həə, Mehmet dedim yadıma düşdü. Heç yadımdan da çıxmır... Nə isə, artıq nə dediyimi, nə danışdığımı bilmirəm. Mehmeti tapa bilmirəm. Hər yerdə axtarıram. Nə olub, görəsən, oralara gəlməyib ki? Zəhmət olmasa, onu mənim üçün tap... Onsuz buralara sığışmıram. Nə olar, məni hamıdan daha yaxşı sən başa düşürsən. Mənə kömək elə. Diqqət et. Başım tamam dayanıb... Özümü burada tək-tənha hiss edirəm.

Evimə gəlincə. Laləlidə Sədabadi küçəsində qalıram. Çox gözəl bir evdir. Bir dostum da var. Suzi... Çox yaxşı dostdur... İstanbul coğrafi baxımdan çox gözəl bir yerdədir və gözəl bir şəhərdir. Amma xalqı tam mənası ilə başa düşə bilmirəm.

Ee, başqa nə yazım? Sənin üçün darıxmışam desəm, mənə əsəbiləşərsən. Həə... Burada müsəlmanları gördüm. Məndən o qədər də fərqlənmirlər. Deməli, mən də müsəlman hesab olunuram. Ona görə də artıq dini bir problemim yoxdur».

Atama da bəzi məlumatlar verdim. Özümdə deyiləm, amma yenə də təəccüblüdür ki, özüm haqqında danışmağa çalışdım.

## ÜÇ AYLIQ İSTANBUL

Üç aydır İstanbuldayam. Yeni insanlarla tanış oldum. Amma Mehmeti tapa bilmədim. Əminəm ki, Mehmet bizə məktub yazıb, lakin anam onu mənə verməyib. Tapacam... Onu mütləq tapacam.

Fikriyə ilə bəzən telefonla danışırıq. Bir həftə sonra Ankaraya gedib, Fikriyə ilə dərdləşəcəm.

Hələ jurnalist olaraq çox iş görə bilməmişəm. Atam da məni yaman sıxışdırır. Bilmirəm ki, nə istəyir. Ona yazdığım son məktubda dedim: «Ata, Türkiyə Avropa mədəniyyətinə doğru bizdən də sürətlə gedir. Sən mənə boş yerə zəhmət verirsən. Buralarda da kazinolar açılmışdır. Qadınlar səhnəyə çıxıb mahnı oxuyurlar. Gözəllik yarışmaları üçün xeyli namizəd var. Sən zəhmət çəkmə, ata. Türkiyə özü bizdən irəli getmək üçün can atır».

Atatürkü görəcəm. Bir dövlətin ən böyüyünü görəcəyəm. Həm də elə bir böyük ki, xalqı tərəfindən Allahlaşdırılan bir böyük.

Bütün bunların nə əhəmiyyəti var ki? Mehmetsiz həyəcanın da bir zövqü yoxdur.

Ah, Mehmet, ah! Məni belə incitməyə haqqın yox idi...

* * *

Əbdülvəhhabdan da məktub gəlmir. İstərdim ki, heç olmasa, mənə təsəlli versin.

Bir gün poçtalyon ondan bir məktub gətirdi. Az qalmışdı ki, ürəyim dayansın. Dərhal məktubu açdım.

Çox maraqlı bir metodu vardı. Həyəcanla oxumağa başladım.

«... Allahın salamı hidayətə tabe olanların üzərinə olsun!

Dəyərli Mariya!

Sənə məktub yazmamaq üçün bu zamana qədər dözdüm, lakin artıq cavab yazmağa məcburam.

De görüm, necəsən? Sən də çoxdandır ki, məktub yazmırsan. Haqlısan cavab yazmayana ən çox bir məktub da yazılardı. Sən də elə etdin.

Mehmeti tapıb-tapmadığını mənə yazmırsan, yoxsa tapmısan, evlənmisiniz? Məni maraqlandırmır, amma yenə də soruşuram.

İslama daxil olma haqqında yazdıqların İslamla heç bir əlaqəsi olmayan fikirlərdir. Türkiyə Allahı unutmuşdursa, bu səni xilas etməz ki...

Onlar İslami bir sistem istəmədikləri üçün, necə bir millət olacaqları haqqında səbatsızdır. Şəxsiyyəti itmiş bir millət oldu Türkiyə... Və başqa İslam ölkələri də.

İndi çaşqınlıq içindədirlər. Avropalı olsunlar, yoxsa müsəlman? Ya da hər ikisindən? Hansı şəxsiyyəti istədikləri haqqında tərəddüddədirlər. Amma sən sözündən dönən olmamalısan. Hələ də mənə bir müjdə verə bilmədin. Doğrusu, gecikmisən. Sənin kimi zəkalı bir qıza bu yaraşmır... Yenə də özün bilən yaxşıdır. Məndən demək. Allah bu aləmi, Ona üsyan edilsin deyə vermədi...»

Məktub nəsihətlərlə dolu idi. Bəzilərini haqlı gördüm, bəzilərinə əsəbiləşdim... Amma onun məktubu mənə çox təsəlli verdi.

Günlərim iztirab içində keçirdi. Bir də qapı qonşum olan böyük bacı ilə dost olduq. İlk görünüşdə cahilin biri idi, amma qəlbi çox təmizdir. Oğlu, deyəsən, demokratdı. «Mənim oğlum artıq içki içməyə başlayıb. Əcəba, görəsən, kafir olub?» – deyə məndən soruşardı.

Bir gün onlarda olarkən, gözüm «Milliyyət Qəzeti»nə sataşdı. Gördüm ki, maraqlı reklamlar var. Hamısında da Avropa adları işlədilir. Türklərin dostu Pyer Loti deyir: ... Burada hamısı var. Bizə oxşama cəhdi. Böyük bacı bir qəzetə, bir də mənə baxdı:

– Oxu, qızım, nə yazılıb bu böyük məktubda.

– Bu məktub deyil, qəzetdir.

– İşgəncədə gözlərimi kor etdilər. Yaxşı görə bilmirəm. Sizin kafiristanda da var bundan?

– Əlbəttə, var. Əvvəl bizdə çıxıb bu qəzet.

– Nə var onda?

– Ölkə xəbərləri hər gün bu qəzetdə yazılır.

– Nə gözəl. Həmin şeyi Məkkəli insanlar da edərdi. Amma onlar divara yazardılar. Bunlar kağıza yazırlar.

– Nə dedin, başa düşə bilmədim. Harada nə yazılırdı?

– İslamdan əvvəl və sonra. O gün nə olsaydı Məkkədəki bir divara yazardılar. Yəni divar qəzeti.

– Aa! Doğrudan?

– Əlbəttə.

– Sən haradan bilirsən bunları?

– Oxumuşam, övladım. Mənim atam çox böyük bir alim idi. Amma onu...

Birdən böyük bacı ağlamağa başladı.

– Nə oldu? Niyə ağlayırsan?

– Atam... Atamı asdılar... Özü də bir neçə il əvvəl.

– Kim asdı?

– Əsgərlər... Əsgərlər asdı atamı. Düşmənlə döyüşdən təzə qayıtmışdı. Əlli yaşında cəbhəyə getdi. Amma atam mürtəce, inqilablara qarşı çıxdı deyə asıldı. Hamı ilə bərabər düşməni yurdumuzdan qovdular... Atam mükafat olaraq ipə çəkildi. Hamısı bu kafiristana oxşamaq üçün edildi. Amma bunları oğluma danışa bilməzdim. «Babam ölməyə layiq idi» – deyir. Oğlumu soy-kökündən ayırdılar. Mən necə ağlamayım, qızım? Bir gün axşama qədər atamı axtardım, tapa bilmədim. Məğrib azanından sonra Şeyx İsmayılın oğlu bizə gəldi.

– «Atanı gördüm» – dedi.

– «Harada?» – deyə soruşdum.

– «Taksim meydanında» – dedi.

– Qaçaraq Taksimə getdim. Düşünürsənmi Laləlidən Taksimə qədər qaçaraq getdim. Nə görsəm yaxşıdır. Atam... Canım atacığım! Dar ağacından asılmışdı. İnsanlara ibrət olsun deyə dərhal endirməmişdilər. İnanırsanmı, atam xain, onu asanlar isə qəhrəman elan edilirdi. Nə idi atamın günahı? Nə idi? İslamı dərk edib yaşayan bir millət olaq deyirdi. Amma müsəlmançılıq yox, sizin ölkənizin həyat tərzi istənilirdi. Deyə bilərsənmi, sizin ölkənizdə insanlar çox xoşbəxtdirlər? Çox rahatdırlar? Analar, atalar, övladlar, qardaşlar çox

yaxşıdırlar? Danış nə olar, sizə oxşamaq üçün axıdılan bu qədər qana, qəsd edilən bu qədər cana, dəyərmi sizin qanunlar? Dəyərmi?!!

Atacığımı ipdən asılı vəziyyətdə görərkən az qalmışdı ki, dəli olum.

– «Ataaam! Atam sənə kim qıydı, atam?!» – deyə qışqırdığımı xatırlayıram. Bir əsgərin tüfənginin qundağı ilə yerə sərildim. Özümə gələndə əsgər məni vurur və bağırırdı.

– Ağlama! O, bir vətən xaini idi. Ölkəmizin qurtuluşuna qarşı çıxırdı. Belə itlərə görə ağlamaq lazım deyil...

– Xeyr. Xeyyr!!!

Atam və atam kimilərinə qara yaxıb xalqı aldadırdılar... Xilafətin ləğv olunmasına qarşı olan atamı, «Düşməni yurdumuzdan qovmağın əleyhinədir... İnqilabların əleyhinədir» – deyə xalqın gözündən sala bilmişdilər. Onlarla o qədər inandırma qabiliyyətləri var idi ki, atamın nəvəsini belə onun əleyhdarı edə bildilər, yəni məni atam üçün ağlamağa buraxmadılar. Taksim Meydanından sürükləyərək uzaqlaşdırdılar. Atam!.. Canım atam... Necə qıydılar sənə?! Necə asdılar səni?!

Qadın ağlamaqdan az qalmışdı ki, özündən getsin.

– Deməli, hər şey bizə oxşatmaq üçünmüş. Hıı... Biz... Nə var, görəsən, bizdə? Namus hissi deyə bir şeyi qalmayan biz... Sadəcə makinalarımızın üstünlüyünə etimad göstərir, öz dinlərini bu bəhanə ilə tərk etmək istəyirlər.

Qadın əməlli-başlı ağladıqdan sonra soruşdu:

– Sənin bizə yaxın olduğunu hiss edirəm. Yoxsa, səni sevə bilməzdim... Bu qəzeti oxu görək, başqa nələr yazılıb?

– Çox şey...

– Oxu, oxu... Birini oxu.

– Amma kədərlənərsən.

– Onsuz da həmişə kədərlənirəm. Bu küçələrə bax... Çoxu bizdən deyil.

– Yaxşı, oxuyuram.

«Gözəllik müsabiqəsində iştirak edin. Qalib çıxa bilməyəcəyəm deyə qorxmayın. Tərəddüdə yer yoxdur. Qalib çıxa bilməsəm, biabır olaram deyə fikir etməyin, çünki yalnız qalib çıxanlar məlum olacaq. Uduzanlar heç kimə bildirilməyəcək.

Yarışda iştirak etməyin şərtləri:

1. Çox namuslu olmalıdır. (!)

2. Adı pisliyə çıxmış olmamalıdır».

– Vay! Nə dəhşətli bir yaxınlaşma.

– Bəli... Yavaş-yavaş alışdırmaq. Ailələr guya «bu namuslu bir şeydir» – deyib qızlarını rahatlıqla göndərəcəklər. Məqsəd qızları çılpaqlığa alışdırmaqdır. **(Necə ki 1991-ci ildə sabiq Milliyyət Qəzeti məsul katibindən soruşuldu. Daha sonra «Nə üçün gözəllik müsabiqələrinə xitam verdiniz?» sualına: «Ehtiyac qalmadı. Artıq bütün küçələrdə təsirini gördük» – deyə cavab verdi)** Sizin ölkənizdə də belə şeylər varmı?

– Əlbəttə, var. Bunu unutma, dininizin əleyhinə sizə nə gəlirsə, bilin ki, bizdən gəlir.

– Haqlısan, oxumağa davam edə bilərsənmi?

– Əlbəttə. Ana başlıqlara bir göz gəzdirək.

– Bu çılpaq qadının yazısında nə var?

Əstəğfirullah! Bir qadın camaatın gözü qabağında bu cür donda necə dayana bilər?

– O çimərlik paltarıdır... Don deyil.

– Adı dəyişərsə, donluqdan çıxar? Bu, bir dondur.

– Bizdəki çimərlik paltarları daha qısadır. Sizdəki hələlik diz üstündədir. Amma çox yaxın gələcəkdə bir az da qısalacaq.

– Allahım!! Bu nə rəzalətdir? Ee ... nə yazılıb?

– Bu bir reklamdır. «Qulunc ağrılarını uzaqlaşdırın» – deyir. Dərmanın adını bildirir.

– Eee... Dərmanla bu çılpaq qadının nə əlaqəsi var?

– Məqsəd gözləri çılpaq qadına alışdırmaqdır. Unutmayın, mədəniyyətlər reklamlarla alışdıra-alışdıra yerinə otuzdurulur. Bizdə də belə olmuşdu. Bu xəbər sizin üçün daha maraqlıdır. Baxın, nə deyir.

«Avropa gözəllik müsabiqəsi üçün jüri heyəti rəhbəri Mavrk Valef gəldi» – deyilir... Ayrıca belə bir xəbər də var.

«Ben Rubi müsabiqəmizdə iştirak etmək üçün Parisdən şəhərimizə gəldi».

Burada da «Bu milli bir vəzifədir» yazılıb. Yazıq!! Böyük bir millət olmağınıza baxmayaraq, sizi çox asanlıqla ələ keçiriblər. Özü də çox asan.

Dünən fransızları yurdunuzdan çıxarırdınız. Bu gün Ben Rubi qalxıb Parisdən, sizin qızlarınızı soyundurma planı olan müsabiqə üçün bura gəlir və siz də onun gəlişindən şərəf duyursunuz. Doğrusu, çox yazığım gəldi sizə. Tələyə də çox asan düşmüsünüz. Qarşı tərəfi yormadan öz cəhdinizlə gedirsiniz tələyə. İnanın az qalıb ki, halınıza ağlayım. Atamın toplantısı... Toplantıdan əvvəl gerçəkləşibmiş.

**(Dəyərli oxucularım! Milliyyət Qəzetindən götürülən xəbərləri eyni ilə əslinə sadiq qalaraq veririk, sadəcə tarixləri bir neçə il fərqli olaraq eyni zamanda birləşdirirəm).**

## AX FİKRİYƏ!

Eşitdiklərim məni haldan-hala salırdı.

Beləliklə, altıncı ayım da tamam oldu.

Fikriyə ilə görüşdük. Çankayaya yaxın bir evdə, süd xalasının evində görüşdük. Bir az xəstələnmişdi... «Nə olub?» – deyə səbəbini soruşduqda:

– «Sətəlcəm olmuşam» – dedi.

– Doğrudan? Allah şifa versin. Narahat olma, artıq sətəlcəm xəstəliyinin müalicəsi var. Narahat olma.

– Necə narahat olmayım? Atamın anası Zübeydə Xanım belə getsə məni heç istəməyəcək.

– Atan haradadır, məni onunla tanış etməyəcəksənmi?

– İzmirə getdi. İçimdə qəribə hisslər var. Heç cür özümü ələ ala bilmirəm. Onsuz yaşamağım mümkün deyil. Onu çox sevirəm, Mariya ... Çox...

– Narahat olma. Bir millətin Atası adını alan şəxs, səni tərk etməz. Sənin kimi sevən bir qadını onsuz da heç bir vicdanlı şəxs tərk edə bilməz.

Bu vaxt xalası söhbətə müdaxilə etdi:

– Deyirəm, mən də elə deyirəm. Amma Fikriyəmə söz başa sala bilmirəm.

– Söz başa düşməyən sənin Fikriyən deyil, xalacan. Mənim könlüm, qəlbim söz başa düşmür. Məni nə üçün İzmirə aparmadı? Nə üçün mənsiz xoşbəxt oldu? Mən ki onsuz xoşbəxt deyiləm.

Yavər Müzəffər də mənə artıqlaması ilə təskinlik verir, amma qəlbim bunları duymur. Nə isə məni bir tərəfə qoy. Sən nə edirsən? Mehmeti tapa bildinmi?

– Xeyr. Müəllimlik edir, amma harada olduğunu öyrənə bilmirəm.

– Sən narahat olma. Mənim Çankayada sözüm keçir. Milli Təhsil Nazirliyi yolu ilə onu sənin üçün tapacam.

– Doğrudanmı? Sənin bu yaxşılığını heç vaxt unutmayacam...

O gecə orada qalaraq İstanbula qayıtdım. Bir həftə sonra Fikriyə zəng etdi. «Deyəsən, Mehmeti tapdım» – deyəndə çox sevindim.

– Alo, Fikriyə!

– Bəli, mənəm.

– Sən ağlayırsan?

– Ağlayıram, Mariya. Məni Münhenə sanatoriyaya göndərir Atam.

– Amma ora sənə baha başa gələr.

– Pulunu paşam verəcək. Amma mən getmək istəmirəm. Mən Atamdan ayrıla bilmərəm. Sanki içimdə belə bir hiss var ki, getsəm, onu bir daha görə bilməyəcəm.

– Belə demə, Fikriyə! Get müalicə olun. Paşan səni tərk etməz.

– Amma anası Zübeydə xanım məni istəmir. Mən bunu bilirəm. Paşamın ürəyinə girsələr, necə? Heç düşünürsən? Mən nə edərəm.

Çox keçmədən Münhenə göndərildi. Öz dərdi Fikriyənin başını elə qatdı ki, mənim haqqımda düşünməyə vaxt tapa bilmədi. Bir ay sonra ondan məktub aldım. Məktub deyil, göz yaşı idi, müsibət idi...

«... Canım Mariyam.

Buralar məni darıxdırır, inan canımı sıxır. Yalnız Atama qovuşmaq üçün müalicə olunuram. Onsuzluğa yalnız onun üçün dözürəm. Dünən ondan bir məktub aldım.

«Nə edirsən et, sağal. Səni çox sağlam görmək istəyirəm» – deyir.

Əgər bilsəm ki, axırda ona qovuşa bilməyəcəm, intihar edərəm... Onsuz yaşamaq istəmirəm. İlahi, nə üçün o özünü mənə bu qədər sevdirdi? Nə üçün onu bu qədər sevdim?!

İçim qəribə hisslərlə doludur. Nə olar Ankaraya gedib Atama mənim onsuz yaşaya bilməyəcəyimi söylə...»

Fikriyə əldən gedirdi. Onun dərdinə şərik olub, Mehmeti axtarmağı yadımdan çıxarmışdım.

Aradan tam üç ay keçmişdi.

Yenə Fikriyədən qəm dolu bir məktub aldım. Elə həmin gün Milliyyət qəzetindəki dəhşətli xəbəri oxudum. «... Qazi Mustafa Kamal Paşa Uşakizadə Lətifə Xanımla evləndi». Aman Allahım! Görəsən, Fikriyə indi nə

edəcək? Ona hansı sözlərlə təsəlli verəcəyəm? Yazıq Fikriyə!.. Məhv oldun, gözəl Fikriyəm, məhv oldun! Mən də ən azı sənin qədər kədərləndim bu xəbərə. Saatlarca ağladım. Dərhal xalasına zəng etdim. O da ağlayırdı.

– Fikriyəmə bu xəbəri necə verək, Mariya, qızım? Fikriyəm ölər. Fikriyəm bu xəbərə dözə bilməz... Allah xatirinə, söylə görüm, nə olacaq? Mənim başım işləmir. Mən artıq düşünə də bilmirəm.

– Mənim də... Mənim də başım işləmir. Nə edəcəyimizi bilmirəm.

Oturub Fikriyəyə bir məktub yazdım. Onu bu pis xəbərə hazırlamaq istəyirdim.

20 gün sonra ondan bir məktub gəldi. Məktub deyil, sanki ölüm sənədi idi.

«... Canım Mariya!.. Nə olar, imdadıma çat! Bu gün qəzetdə Atamı gördüm. Arxasında qısa boylu bir qadın, yanında da yavər Müzəffər vardı. Qəzeti aldığım qadından soruşdum ki, «bu qadın kimdir?» Dedi ki, «Arvadıdır. Evləndi, bilmirsənmi?» Mən bu xəbərə inanmadım. Amma yenə də qəlbimdən vuruldum, Mariya! Nə olar, araşdır. Atam vəfasızmı oldu? Mən ona qovuşa bilməyəcəyəmmi? Allah xatirinə, mənə məktub yaz. Mən də tezliklə xəstəxanadan çıxmağa çalışacağam. Bəlkə də, sənin məktubun mənə çatmadan mən gəldim. Atama Parisdən aldığım silahı da götürüb gələcəm. Ona hədiyyə edəcəyəm bu silahı. Bilirəm, o mənim Atamdır. Ellərin ola bilməz. Mən onu heç kimlə bölüşə bilmərəm».

Çox şeylər vardı məktubda ...

O gün axşam Fikriyə zəng elədi. Artıq Türkiyədə idi. Səsi xırıldayırdı, çox çətinliklə danışırdı. Titrəyən səsi ilə bircə kəlmə söylədi:

– Gözümlə görmək üçün sabah Çankayaya gedəcəyəm. İnanmıram, Mariya. Atam məni ata bilməz.

Elə bil ki, o gün mənim üçün ölüm günü idi ... Axşam heç bir xəbər ala bilmədim. Ertəsi gün xalasına zəng etdikdə, elə bil, beynim parçalandı.

– Fikriyəm getdi, getdi, Mariya! Bu gün özünü, Atasına aldığı tapança ilə alnından vurdu, intihar etdi.

* * *

Bu acı xəbəri eşitməkdənsə, kaş öləydim... Ömrüm boyu unutmayacağım acı ilə yığılıb qaldım.

**(Fikriyə ilə əlaqədar bütün məlumatlar arxivdən götürülmüşdür. Bu haqda narahat olanlar bilsinlər ki, hər şeyi sənədlərə əsaslanaraq qələmə almışam. Yenə də həqiqətləri mühakimə etmək istəyənlər üçün hazıram. – Ə.Ş.)**

Ertəsi gün bir qəzet bunu yazırdı.

«Türk qadını müstəqilliyinə qovuşdu!»

## MEHMETİMDƏN XƏBƏR VAR

Fikriyədən sonra bir müddət özümə gələ bilmədim. Fikriyə ölmüşdü. Amma mənim ölümümü istəmədən ölmüşdü. Mehmetin adını Yavər Müzəffərə veribmiş.

Bax, Yavər Müzəffərdən məktub.

«Xanım Mariya... Fikriyə vasitəsi ilə bizə gələn istəyinizi yerinə yetirdik. Mehmet İzmirdə ibtidai tədrisdə müəllim işləyir. Ünvanını sizə verirəm».

Aman Allahım! Bu nə sevincdir? Elə bil uçuram... Dərhal hazırlaşdım. ... Mehmeti görəcəm... Bəli, onu görəcəm.

Dəlilər kimi qaçıb vağzaldan İzmir avtobusuna mindim.

Aman Allahım! Bu avtobus da niyə sürətlə getmir, nə üçün dayanır? Bu yollar məni başa düşmür. Avtobus başa düşmür məni. İki gündən sonra İzmirdə oldum.

Ünvanı və Mehmetin işlədiyi ibtidai məktəbi tapdım. Hələ heç kim gəlməmişdi. Məktəbin bağçasında oturub, gözləməyə başladım. Dərslər saat səkkizdə başlayırmış. Hələ saat yeddi idi. Allahım, bu bir saat nə vaxt keçəcək?!

Gözlədiyim vaxt ağlıma pis-pis şeylər gəldi. Bəlkə, Mehmet evlənib? Bəlkə, evlənib? «Nə edə bilərəm, keçənə güzəşt deyərlər» – deyərsə, necə?

Görəsən, mən də Fikriyə kimi intihar edərəm? Yooox, yooox... Mümkün deyil... Evlənməz. Bəs nə üçün məni bu vaxta qədər axtarmayıb? Heç olmasa, məni görüncə xəcalət çəkəcəkmi? Məni görüncə utanacaqmı? Yerə girəcəkmi?

Nə üçün yerə girsin ki? O, mütləq məni axtarıb. Allah bilir mənim üçün nə qədər ağlayıb.

Mən bunları düşündüyüm halda, məktəbin xadiməsi yanıma gəldi. ...

– Nə istəyirsiniz?

– Bir adamı gözləyirəm.

– Siz... Siz türk deyilsiniz.

– Bəli, türk deyiləm. Bura türk olmayan girə bilməz?

– Niyə ki. Bizim ölkəmizdə qapılar xaricilərin üzünə açıqdır. Haradan gəlmisiniz?
– İstanbuldan. Avtobusdan təzə düşmüşəm.
– Oo!.. O halda sizin qarnınız da acdır. Gəlin mənim xanımım sizə səhər yeməyi hazırlasın.
– Təşəkkür edirəm. Sağ olun.

Özüm özümdən utandım. Bu insanlar mənimlə necə rəftar edirlər? Halbuki mən buralara onlara pislik etmək üçün gəlmişəm. Amma şükürlər olsun ki, etməmişəm. Bu milləti yıxmağa çalışmaq insanlığı inkar etməkdən başqa bir şey deyil.

Getdim... Məni çox gözəl qarşılayan xanımı dərhal səhər yeməyini hazırladı. Kiçik uşaqları vardı. Adı Fadimə idi. «Sən bizdə qalacaqsan? O halda mənə bir kukla düzəldərsən?» – deyincə ürəyim yumşaldı. Bu uşaqlara qarşı guya mədəni olan bizlər, kukla yox, güllə hazırlayırdıq. Qərarımı vermişdim. Müsəlman olub onların sırasında fəaliyyət göstərəcəyəm.

Ev sahibləri mənimlə danışarkən mən hey Mehmeti xəyalıma gətirirdim.

Ona:

– «Mehmet, sən istəsən dərhal müsəlman olaram» deyəcəyəm. O da dərhal sevinəcəkdi. Sanki onun sevincini görürdüm.

Nəhayət, saat səkkiz oldu. Dərhal məktəbin qapısına çıxıb, soruşdum. Hələ gəlməyib.

Bax! Bax o! Gəlir. Aman Allahım, heç dəyişməyib. Birdən o da məni gördü... Dayandı... Sonra qaçaraq mənə doğru gəlməyə başladı. Mənə çatanda dayandı.

– Xoş ... Xoş gəldin, Mariya!
– Xoş gördük ...
– Məni necə tapdın, Mariya?
– Mənə nə üçün Mariyam demirsən?
– Fikir vermə, həyəcanlıyam. Az qaldı ürəyim dayansın.
– Nə oldu, Mehmetim? Məni nə üçün axtarmadın?
– Gəl, burada oturaq, başa salım.
– Nəyi başa salacaqsan?
– Səni nə üçün axtarmadığımı.
– Necə! Sən məni axtarmadın?
– Axtarmadım.
– Nə üçün? Nə üçün axtarmadın? Məni dəlicəsinə sevdiyini söyləyən sən deyildinmi?
– Bəli, mən idim. Amma səninlə mən ailə qura bilmərəm, Mariya. Düşüncələrimiz ayrı-ayrıdır.
– Deməli, buna görə axtarmadın, eləmi? Amma indi eşidəcəyin xəbər səni şoka salacaq.
– Hansı xəbər?
– Sənin gözlədiyin xəbər.
– De, çox həyəcanlandım.
– Mən! Mən!
– Bəli, sən? ...
– Həyəcandan deyə bilmirəm.
– De, məni çox maraqlandırdın.
– Mən də müsəlman oluram. Artıq aramızda heç bir problem olmayacaq.
– Nəəə? Müsəlman olursan?
– Bəli... Bəli... Dərhal istəsən ola bilərəm, özü də çox yaxşı hazırlaşmışam.
– Mariya, mən müsəlman deyiləm.
– Nəəə? Sən müsəlman deyilsən?
– Xeyr, müsəlman deyiləm. Mən ateistəm.
– Sə... Sən... Yəni dinsizsən?
– Bəli. Mən müasir, demokrat bir kamalistəm.
– Xeyr, ola bilməz... Yalan deyirsən!
– Doğru deyirəm.
– Sən... «Bambaşqa bir ölkəm olacaq. Röyalar kimi...» – dediyin sistem ateist bir sistem idi?
– Bəli, amma ...
– Modeliniz nədir? Avropadırmı?
– Bəli... Bəli, Mariya. Bir gün Avropa kimi olacağıq.

– Yəni mənim gəldiyim ölkənin idarə sistemini buraya gətirəcəksiniz? Bu təmiz insanlardan, namus və şərəf duyğusunu atacaq, Hans kimi, sevgilisini bir başqa kişinin qollarına atan, içkini su kimi içən, nikahı məzəmmət edən, məqsədi müsəlman ölkələrini ələ keçirmək olan Avropanı daşıyıb bura gətirəcəksiniz?

– Sən öz ölkəni bəyənmirsənmi?

– Sən öz ölkəni bəyənirsən?

– Mən müasir bir dünya istəyirəm.

– Sənin o müasir dediyin dünyada din yoxdur, bunu bilirsən, elə deyilmi?

– Bilirəm. Din bizim üçün ən böyük maneədir.

– Hansı din?

– Fərqi yoxdur. Bütün dinlər eynidir.

– Xeyr. İslamla digər dinləri qarışdırma.

Özümü itirmişdim.

Mehmet:

– Bəli, Mariya.

– Mənə vəd etdiyin ölkə mənim içində yaşadığım sistem idi?

– Bəli... Özüdür ki, var.

– Mehmet, səni tanıya bilmirəm, doğrudan da, sən mənim aylardır axtardığım, sevdiyim Mehmetsənmi?

– Mən həmişə bir cür olmuşam.

– Dəyməzmiş, Mehmet. Çox heyif göz yaşlarıma! Çox heyif.

– Belə danışma, Mariya. Mən səni sevdim.

– Öz millətinə nifrət edən, öz varlığından, öz dinindən utanan sən, məni necə sevə bilər? Yazıq, çox yazıq! Sənidinmi mənim hər şeyim. Sən heç bir şey olmadığın halda, mən səni göylərə qaldırmışdım. Öz dünyamda səni böyütmüşdüm.

– Məni təhqir etmə, Mariya!

– Təhqirmi? Bu dəqiqə səni öldürsəm belə ürəyim «uf» deməz. Sən təqlidçi adamsan... Mən də axmaq olub, səni ideallaşdırmışdım.

Dərhal ayağa qalxdım.

– Hər şey bu qədərmiş. Hər şey sona çatdı. Sağ ol, Mehmet.

– Mariya, dayan, bir az söhbət edək.

– Səninlə danışılası bir şey qaldığını zənn etmirəm. Mənim ölkəmdə olanları mənə danışacaqsan. Onları eşitməyə ehtiyac duymuram, çünki sənin çox üstün sistem, yüksək bir fikir söylədiyin Qərb mədəniyyətini mən çoxdan yaşamışam. Sən o mədəniyyəti kimə nisbət verirsən, ver. Fikrin milli deyil. Hamısı Avropadan toplanıb. Ələkçi kimi qanun toplayıb, sonra da o yığılma maddələrlə qarşıma keçib öyünürsünüz.

– Yanılırsan.

– Lütfən, kəs səsini. Nədə yanılıram. Laiklik (sekularizm, dünyəvilik) haqqındamı yanılıram? Onu Avropadan götürdünüz. Demokratiyamı? O da oradan gəlib. Geyiminizmi? O da oradandır. Öz təqviminizi belə buraxıb, bizim təqvimimizlə öyünürsünüz. Dünən müharibə etdiyiniz ölkələrlə gözəllik müsabiqəsi adı altında qızlarınızı soyundurub, onlardan mükafat almaq üçün yarışırsınız...

Hanı sənin fikrin, sizə aid olan şeylər? Danış görüm, hanı?

– Kamalizm.

– Özünü aldadırsan. Kamalizm deyilən bir fikir cərəyanı görə bilmirəm bu ölkədə. Gördüyüm hər şey Qərbdən gəlib. Sən özündən utan... Kompleksinə görə İslamı belə tərk etmisən. Zavallı məxluq!

– Necə yəni. Osmanlılar kimi ölkəni düşmənə verməli idim?

– Kimlərdir o düşmən dediklərin? Heyran olduqlarınızı deyirsən? Mən xariciyəm deyə zənn edirsən ki, heç nə bilmirəm? Lozanda verilən torpaqları, sizin xalqınız bilmir, amma mən bilirəm. ... Torpaqdan daha önəmlisi var. Kaş sadəcə torpaq verəydiniz. Siz şərəfinizi də verdiniz. Amma heç vecinizə də deyil.

– Sən nə danışırsan, Mariya? Sən bunları haradan, nə vaxt öyrəndin? Məni təəccübləndirirsən.

– Bəli, sən də məni təəccübləndirdin. Həm də çox çox təəccübləndirdin, Mehmet. Məni məhv etdin.

– Amma sən çox fərqli şeylər danışırsan. Sanki elmli bir müsəlman kimi. Mən nə burada, nə də müsəlmanlar arasında sənin kimi tədqiqatçı, İslamın lehinə danışan bir şəxs görmədim.

– Bu, mənim üçün şərəfdir. Aylardır oxuyuram. İslamdan bir neçə hökm öyrənmişəm. Allahın sözlərindən bir neçə söz öyrənmişəm.

– İslamı mən də bilirəm, Mariya.

– Sənmi? Güldürmə məni. Dayan çantamdan bir məktub çıxarıb oradan sənə bir neçə Quran ayəsi, yəni Allahın sözünü oxuyum:

**«Əgər yerdəki bütün ağaclar qələm, dərya isə mürəkkəb olsaydı və yeddi dərya belə ona qoşulsaydı, yenə də Rəbbimin sözləri (yazılıb) tükənməzdi. Həqiqətən, Allah Əzizdir, Həkimdir!»** («Loğman», 27)

Deyə bilərsənmi, Mehmet! Sən dənizləri bitirəcək qədər çox olan Allahın sözləri və yaratdıqlarından nə qədərini bilirsən?

Sonra bax gör, nə deyir Quran: **«Allah yeganə hökm sahibidir!»**

Amma siz Allahın hökmünə heç əhəmiyyət vermədiniz.

– Amma Osmanlı da ...

– Mən Osmanlı haqqında yox, Quran, yəni Allahın kəlamı haqqında danışıram.

Bəs bu ayə: **«Sizi yaratmaq və diriltmək ancaq bir nəfəri yaratmaq və diriltmək kimidir. Həqiqətən, Allah Səmidir (eşidəndir), Bəsirdir (görəndir)!»**

Lakin sən Allahı tanımadığın üçün belə zənn edirsən ki, O səni yenidən dirildə bilməz. Yazıq!

Mən danışdıqca sanki Mehmetin ağlı başından çıxırdı. Çaşıb qalmışdı. Onu o halda buraxıb İstanbula qayıtdım. Olanların hamısını Süziyə danışdım. Süzi də çox təəccübləndi:

– Sən əməlli-başlı müsəlmansan.

– Xeyr. Hələ tam müsəlman deyiləm. Amma bir gün olacağam... Atam, anam ağlını itirəcək, qoy itirsinlər. Mən əsl dinimi tapdım.

– Bəs Mehmetdən ayrılmaq?

– Artıq onun haqqında danışma.

O bir Mehmetdi qəlbimdə, gəldi, keçdi
Bir az yaralandım, qəlbimi dəldi, keçdi
Amma həyatın özü bir oyuncaq
Bax, beləcə gəldi və o da keçdi.

– Nə qədər gözəl bir şeirdir. Şair olmusan. Səni başa düşürəm. Asan deyil. Lakin səni təbrik edirəm. Dimdik ayaqdasan. Və çox özünə arxayın bir şəxs kimi görürəm səni.

– Haqlısan. Onun Qərbə meyilli olduğunu görüncə ona olan sayqım dərhal bitdi... Mən şəxsiyyətli insanları sevirəm. Beləcə Mehmet fəsli də mənim həyatımda sona çatdı. Amma Əbdülvəhhaba daha çox həsrət qaldım. O məni sevirdi. Bəlkə də, onunla evlənərdim... Onsuz da ona olan marağım tam başqa idi...

Oturub Əbdülvəhhaba bir məktub yazdım... Məktubu yazmamışdan əvvəl qonşumuz olan böyük bacıdan kəlmeyi-şəhadəti öyrəndim. Müsəlman olan insan əvvəl kəlmeyi-şəhadəti bilməli imiş.

La ilahə illəllah demək: Allahdan başqa İlah yoxdur, Ondan başqa heç kim hökm qoya bilməz deməkmiş.

Əşhədu ən la ilahə illəllah və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluhu.

Mən şahidlik edirəm ki, Allahdan başqa, İlah yoxdur. Və şahidlik edirəm ki, Mühəmməd Allahın qulu və elçisidir.

Nə gözəl.

İslama ilk addım atdıqda Allahdan başqa qanunverici tanımamaq öyrədilir. Xristianlar kimi, «Peyğəmbərə Rəbb deyilməsin, fövqəlbəşər görünməsin» – deyə də Mühəmməd bir quldur, amma Allahın qullara göndərdiyi elçidir deyilir...

Qonşu böyük bacı çox sevindi. Boynuma sarılıb ağladı.

– Dinimizə xoş gəldin, canım ... Allah səni Cənnətlə mükafatlandırsın...

– Amin ... Amma bu amin xristianlıqda da var.

– Ola bilər. Xristian dinində, on, ya da on beşə qədər İslami olan maddələr vardır. Yerdə qalan Allahdan gələnlər deyil, dəyişdirilmişdir. Unutma, hər dində, hər ideologiyada, İslama uyğun olan bir neçə yerlər var. Dinsizlikdə belə.

Amma hər hansı bir şəkildə heç bir şey İslamla müqayisə oluna bilməz. İslam sadəcə Allahın dinidir... İnsanlar İslama bəzi xürafatlar daxil etsələr belə Quranın əslini heç kim təhrif edə bilməz. Buna heç kimin gücü çatmaz.

– Çox xoşbəxtəm. Çox... Bu dəqiqə bütün bunlar barədə Əbdülvəhhaba yazacam.

Və bu məktubu yazdım.

«Allahın salamı üzərinə olsun, Əbdülvəhhab!

İslam aləmindən sənə mərhəba. Çox həyəcanlıyam... Sənə çox əhəmiyyətli bir sürprizim var... Dayan, ürəyin yerindən çıxmasın. Mən... Mü... səl... man... ol... duuum!!! Bəli. Mən müsəlman oldum.

– Sevindinmi? Əminəm ki, çox sevindin.

Bir başqa xəbərim də var. Mən Mehmetdən ayrıldım. Hər halda səndə gördüyüm şəxsiyyəti onda görməyincə birdən gözümdən düşdü... Onu dünyamdan silib, atdım. Sonra bilirsənmi nə oldu? Sənin üçün çox darıxdım. Sən demə, mən sənə çox öyrəşmişəm...

Burada çox hadisələr oldu... Fikriyə intihar etdi. Atatürkün evlənməsinə dözə bilmədiyinə görə.

Az qalıb, gəlirəm. Atam deyir ki, gəlmə. Amma mən atamın sözünə qulaq asmayacam. Onsuz da jurnalist olaraq bir şey də yaza bilməmişəm. Burada xalqı dəhşətli şəkildə ayaqüstə yatızdırırlar. Dözmək mümkün deyil.

Əslində nə edəcəyimi tam olaraq bilmirəm. Hər halda bu gedişlə önümdə daha pis günlər var... Amma bunu bil ki, ... Mən tam bir müsəlman kimi yaşayacağam... İslama girmək asandır, İslamda qalmaq cəhd və qeyrət istəyirmiş. Necə və nə etmək lazım olduğunu mənə bildir. Sən mənim xocamsan, bunu unutma.

Yazdım, yazdım, saatlarca yazdım. Ertəsi gün məktubu poçta atdım.

Bir ay sonra, bazardan evə gələndə. Bu nədir?!

Baş keşiş bizdə oturub. Məni görüncə ayağa qalxdı.

– Aaa! «Xoş gəlmişsiniz, müqəddəs ata» – dedim. Mənə verdiyi cavab çox dəşhətli idi.

– Bilirsən ki, mən artıq bir müsəlmanam. Sən də müsəlmansan, bunu da mən bilirəm. Artıq bir-birimizə necə müraciət edəcəyimizi anlamalıyıq.

– Allah xatirinə, deyin siz məni necə tapdınız?

– Ünvanı Əbdülvəhhab verdi.

– Bu ziyarətinizi nəyə borcluyam?

– Səni Allahın əmrinə görə Əbdülvəhhab üçün istəməyə gəlmişəm. Atandan da istədim. Amma əhli-kitabın qızı müsəlman olarsa, qızdan da özü istənilə bilər. Mən istədim ki, atanın da razılığı olsun. Atan: «Mən qarışmıram» – dedi. Anan: «Bir müsəlmanla evlənərsə, onu övladlıqdan çıxardaram» – deyə çox qəzəbləndi.

Mən də birbaşa sənin yanına gəldim. Əbdülvəhhab səni çox sevmişdir. «Əxlaqı çox xoşuma gəlirdi» – dedi. Nə deyirsən?

Çox, amma çox sevinmişdim.

– Qəbul edirəm... Düşünməyimə ehtiyac belə yoxdur.

– Buna çox sevindim.

– Əbdülvəhhab necədir?

– Necə ola bilər ki, fikri-zikri ancaq sənsən. «Özüm özümə əsəbiləşirəm, lap ağını çıxarmışam» – deyir. «Amma nə etmək olar, qəlbim sözümə qulaq asmır» – deyir.

– Bilirdim, xırçın-xırçın «Mənim gözümə görünmə, sən mənim günahımsan» – deməsindən, məni sevdiyini başa düşürdüm. Amma sən demə, mən də onu sevirmişəm. İnanırsanmı, heç ağlımdan çıxmırdı.

– İndi nə edəcəksən?

– Uuf! Hər şey birdən-birə o qədər sürətlə dəyişdi ki, nəyi necə düşünəcəyimi bilmirəm. Amma bir şeyə görə çox xoşbəxtəm. Artıq müsəlman olmuşam.

Mən sənə böyük müsəlman şair olan Nəcib Fazilin bir şeirini oxuyum. Əvvəl türkcəsini oxuyum, sonra sənin üçün tərcümə edərəm... İnan ki, bu şeiri məndən daha yaxşı başa düşəcəksən.

Zəng səsi

Otağımda yanan mumu üflədi bir zəng səsi
Gözlərim halqa-halqa gördü bu uçan səsi.
Önümdən bir hız (sürət) keçdi, axdı atəşdən izlər
Açıldı qıvrım-qıvrım torpaq altı dənizlər.
Şimşəklər yanıb söndü, şimşəklər sönüb yandı
Dərindəki nohurda (hovuz), durğun sular oyandı
Sağa sola sallanıb, «dan-dan» çaldı zənglər
Dayanmadan çaldı zənglər, dayanmadan çaldı zənglər
Sular ürpəşdi, əşya ürpəşdi, tünc ürpəşdi;
Nəhəng zənglər qorxunc-qorxunc ürpəşdi.
Gördüm ki, addım-addım, kölgə-kölgə keşişlər
Əbədi qaranlığın qalasına enmişlər.

(1925)

O qədər gözəl şeirdir ki, sanki mənə xitab edir.

– Xeyr, sənə yox, bizə xitab edir.

– Haqlısan. Doğrudan, siz necə müsəlman oldunuz?

– Bilirsən ki, Əbdülvəhhab çox gözəl başa salırdı. Əgər İslam gözəl başa salınsa, İslamı qəbul etməyən çox az insan qalar. Allaha şükürlər olsun, İsanın bütlərindən də, ateizmin şərindən də xilas oldum. İndi Misirdə ərəb dilini öyrənmək istəyirəm, amma mənə şərait yaradıb-yaratmayacaqlarını bilmirəm.

Nə isə... Sən artıq bizim gəlinimiz oldun. Bu dəqiqə Əbdülvəhhaba bunu yazmalıyıq. Baxmayaraq ki, səndən arxayındı, amma ... Atanla da tez-tez görüşür. ...

* * *

Həyəcandan az qalmışdı ki, ürəyim dayansın.

Onunla söz kəsmişdim.

Aradan günlər keçmiş, elçimiz getmişdi. Mən də bir neçə gün də İstanbulda qalıb, bir az gəzəndən sonra gedəcəkdim.

Məscid-məscid gəzməyə başladım. Bu arada Süziyə də İslamı başa salmağa başladım. Amma mənə qulaq asmırdı...

Qonşumuz-böyük bacının yanına getdim... Artıq İstanbulda darıxırdım. Xalqın müasir olma, modern olma sevdası mənə əzab verirdi. Bir gün dayana bilmədim. Heç olmasa, on beş adama, yadında qalacağı sözlər deməliydim. Bunu böyük bacıya dediyim zaman mənə gözəlcə etiraz etdi.

– Bax, canım bacım. Əsla, İslamın əmrlərini öyrənmədən çox danışmağa, mübahisə etməyə girişmə. İslamı bilmədiyin üçün səni əzərlər. Məntiqli suallar verər və səni məğlub edərlər.

– Yaxşı, İslam məntiq dini deyildir?

– Məntiq dinidir. Amma məntiqdən yaranmamışdır.

– Bu nə deməkdir?

– Yəni İslam vəhy dinidir. Öyrənilmədən öyrədilə bilməz. Hər şey məntiqlə həll oluna bilməz. İslamı qəbul edən bir çox insan yorulmadan İslamı öyrətmək istəmişlər, öyrənmə zəhmətinə qatlaşmayınca da İslamı tanıya bilməmişlər. Şair deyir ki:

Kölgələrdə dincəlib, Cənnəti istəmişlər
Biz tər tökmədən, Cənnət gəlsin demişlər.

Sən hazıra nazir olmayacaqsan. İnanıram ki, çox çalışqan bir müsəlman olacaqsan.

– Mənə ilk olaraq nə tövsiyə edirsən?

– Tez yatmağı, tez oyanmağı özünə vərdiş etdir. Hər gün bir neçə fiqhi (şəri) məsələ öyrən, bir də qissə (hekayə) oxu. Hər gün bir neçə səhifə Quran oxu. İnsanlara sadəcə bildiyin şeyləri öyrət, bilmədiyin bir şey haqqında əsla danışma.

– Fiqh nədir?

– Necə ibadət edildiyini, haram və halalları öyrədən elm sahəsidir.

– Sünnə nədir?

– Peyğəmbərimizin etdiyi və «edin» dediyi və ya etmədiyi, amma «edin» dediyi, yasaq qoyduğu, icazə verdiyi, nəsihət və fikirlərin hamısına Sünnə deyilir.

Bunları bir anda öyrənməyin mümkün deyil. Zaman-zaman İslam elmlərini təhsil alaraq öyrənəcəksən.

– Haqlısan, amma mən bu İstanbul küçələrində gəzişmək istəyirəm. Bildiyim qədər danışacağıma söz verirəm. İstəyirsən, sən də gəl.

– Oldu. Madam ki istəyirsən, oldu.

– Bax Sultan Əhməd Camesindən başlamaq istəyirəm.

İkimiz bərabər getdik.

– Aaa!!! Camenin qapısında nə üçün kilid var?

– Hökumət bağlayıb.

– Nə üçün?

– Səbəbi məlum deyilmi? Amma bir gün açmaq məcburiyyətində qalacaqlar, bundan əminəm, çünki heç bir sistem, zülmlə yaşaya bilməz...

– Gəl bu qəzet satan adamın yanına gedək. Ona bir neçə söz deyək.

Ona yaxınlaşdıqda qəzet satan qışqırırdı:

– Yazır, yazır! Türkiyə gözəlimizin uğurundan yazır.

– Bu gözəlin uğuru nədir?

Qəzet satan bir qədər üzümüzə baxandan sonra dedi:

– Dərəcəyə yüksəldi.

– Nə ilə?

– Qəzeti al, oxu!

– Amma mən səninlə danışmaq istəyirəm... Öz vətəndaşının, öz dinindən olan bir qızın, soyunaraq millətin qarşısına çıxması səni narahat etmirmi? Qərbdə ilk dəfə bu işlər başladıqda bir çox xristian üsyan etdi. Sən xristian qədər də yoxsan?

– Aaa!! Buna bax. Sənsən xristian. Biz müsəlmanıq, bildinmi?
– Bəli... Öz qızlarının soyunmasına utanmaq əvəzinə sevinən bir müsəlman.
Oradan ayrılıb içki satılan dükana girdim.
– Mərhəba!
– Mərhəba, buyurun... Buyurun, madmazel.
– Sizə bir sual verməк istəyirəm. Siz içkinin insan sağlamlığı üçün zərərli olduğunu bilirsinizmi?
– Bilirik.
– Sərxoşların arvadlarına, uşaqlarına zülm etdiyini, minlərlə ailənin içki üzündən dağıldığını, İslamda içkinin günah olduğunu bilirsinizmi?
– Əlbəttə, bilirik.
– O halda nə üçün içki satırsınız?
– Artıq bu ölkə hürr, demokratik bir ölkədir. Hər şey azaddır... Bu içki zavodunu dövlət tikdirib.
– Dövlət vicdansız və dinsiz olsa, siz də olacaqsınız? Yazıq! Həzrət Mühəmmədin üzünə bilmirəm necə baxacaqsınız.
Cavabı gözləmədən dükandan çıxdıq.

* * *

Düz Bəyazit Meydanında iki şapkalı xanımla burun-buruna gəldik.
– Xanımlar, sizinlə bir neçə dəqiqə söhbət edə bilərikmi?
– Əlbəttə, buyurun.
– Hansı dinə mənsubsunuz?
– Əlbəttə, İslam dininə.
– Əminsinizmi?
– Əlbəttə.
– O halda nə üçün dinsiz Qərb qadınlarına oxşamaq istəyirsiniz? Çox maraqlıdır.
– Aaa! Siz xaricisiniz və türkcə gözəl danışırsınız.
– Bəli, atam öyrətmişdi. Türkiyədə dinsizliyi yaymağımı istəyirdi.
– Amma biz əsla dinsiz olmarıq.
– Yaxşı, dininizdən əlinizdə nə qalıb?
Qadınlar çox təəccübləndilər. Cavabları qənaətbəxş deyildi. İslam onları maraqlandırmırdı. İslamın nə vəziyyətdə olduğu onların vecinə belə deyildi. Məsələnin ən ağrılı tərəfi də elə bu idi.

* * *

O gün gördüyüm hər bir şəxsdən soruşdum:
– Siz müsəlmansınızmı?
Hamı «Bəli» – deyirdi. Nə qəribə millətdir, hər şeyləri əllərindən alınmış, İslamı müasirliyə zidd olan bir din gördükləri halda, yenə də özlərinin müsəlman olduqlarını zənn edirdilər.
Gəzərək Sahaflar Bazarına gəldik. Girdiyimiz bir kitab mağazasında daha çox heyrətləndim. Dükanda «Bismillahir-Rəhmanir-Rəhim» yazılmışdı. Lakin sahibi yəhudi idi. Satdığı kitabların çoxunu bilirdim. «Dini öldürdük» – deyən kitablardan idi.
Müsəlmanlar bunu necə görmürdülər? Bu hala necə düşmüşdülər. Bəli, bəli yadıma düşdü, atam nə demişdı, «müsəlmanlara birdən-birə dininiz pisdir» – desək, dinlərinə sahib çıxarlar. Ustalıqla onları dinlərindən uzaqlaşdıraraq dinlərinin əmrlərindən utandıracaqsan. Heç olarmı, atacan, olarmı? Allahla müharibə etmək olarmı? Nəhayətdə qayıdacağın aləm də Allaha aiddir. Allahın əlindən hara qaça bilərsən?
Qarşıma çıxan hər bir şəxsə «Bilirsinizmi, Qərb mədəniyyəti bir gün sizi namussuzlaşdıracaq» – dedim. Bir gənc «Aa, bir xarici gəlib bizə ağıl öyrədir» – deyə mənə qəzəbləndi. Amma yanındakı gənc: «Nə üçün əsəbiləşirsən? Bu gedişimiz onu göstərmirmi? Bax, bu qəzetdə nə yazılıb. «Rusiya kimi bizdə də dini nikah aradan qalxmalıdır» – deyir. Atatürk belə çox sevdiyi qızı, qız dini nikah istədiyi üçün almamışdır. Atatürk kimi «qəhrəman»ı belə təsir altına salmışlar» – dedi.
Həə! Atatürk deyincə yadıma düşdü. Onu gördüm. Bir balda... Mənimlə çox centlmencə davrandı. Heyrətləndim, heykəlləri nə qədər yaraşıqlıdır. Boyunu iki metr göstərmək istəyirlər. Lakin boyu mənim boyumdan belə qısadır. Onu elə böyük göstərən heykəltaraşlara, məncə, çox əsəbiləşməlidir. Lakin çox təəssüflər olsun ki, Atatürk Qərb mədəniyyətini başa düşmür. Lakin mən Qərbi çox gözəl tanıyırdım. Ona görə də bu millətə çox yazığım gəlirdi. Aman Allahım, kaş bu insanlara fəryad edə bilsəydim... Aldanmayın!! Sizi

yıxmaq istəyənlər, sizi yıxmaq üçün ərəbcə, türkcə, farsca nə qədər dil varsa, öyrənib içinizə girirlər. Aldanmayın! Bir az dirilin!

O gün axşam evə gəldim. Böyük bacıdan ayrılarkən «Sənə bir söz desəm əsəbiləşməzsən ki?» – dedi. «Xeyr!» – dedim.

– Çox yaxşısan. İdrakın fövqəladə gözəldir. Amma diqqətindən qaçan bir şey var. Bu milləti, İslama gətirmək üçün gülər üz göstərmək və sadədən başlamaq lazım olduğunu unudur, çox sürətli bir giriş edir, sanki millətə hücum edirsən. İslamın ilk gəldiyi mərhələlərdə Allah hansı bir metodla, İslamın insanlara çatdırılmasını istəmişsə, o metodu çox yaxşı öyrənməliyik. Yoxsa, çox təcavüzkar olsaq, insanları özümüzdən uzaqlaşdırarıq.

– Haqlısan... Amma dayana bilmirəm. Kaş sən mənim bildiklərimi biləydin. Planları bilirsən, onu eşitdin. Amma mən o planların tətbiq olunduğunu görmüşəm. Kaş biləydin ki, mən nələr görmüşəm!

– Doğrudur... Ən əhəmiyyətlisi atamın ipdən sallandığını görmüşəm. Yalnız atam deyil, İslamın dar ağacına asıldığını da gördüm. Amma İslam atam kimi aciz deyildi. Ona görə də ölmədi. Bəli, İslam ölmədi. Dar ağacından asdıqları İslamı öldürə bilmədilər.

## SUZİ

Sən demə, Suzi mənə qəzəblənirmiş. O gecə kinini üzə vurdu.

– Mənə bax, Mari! İllərlə göstərilən fəaliyyətlər nəticəsini verdiyi bir halda, sənin gördüyün iş axmaqlıq deyilmi?

– Hansı fəaliyyəti göstərdik ki?

– Nə etmədik ki! Fəaliyyət göstərdik, çalışdıq. Bax, böyük milləti elə avropalı etdik ki, qadınlarına və kişilərinə öz paltarlarımızı belə geyindirdik. Geyim inqilabı edildi. Bax, məmur qadınların başlarını örtmələri belə yasaqdır. Avropadan da önə keçirlər. Bizim ölkəmizdə örtülü rahibə qadın işləyə bilir. Amma bu axmaqlar sürüsü o qədər örtüyə bürünə bilmədiklərini başa düşə bilmirlər. İqtisadiyyatlarına da biz əl qoyduq. Daha nə istəyirsən, Mariya? Allahdan bəlanımı istəyirsən?

Bu ölkədə də şərab zavodu açıldı. Qumar, fahişəxanalar yasaq deyil. İslami nikah yasaqdır.

– Amma məşuqə yasaq deyil. Bir subayın on sevgilisi olarsa, yasaq deyil.

– Axmaq olma, Mari, axmaq olma! Bax bu teatrlara, bax bu kinoteatrlara. Hamısında bizim əsərlərimiz oynanılır. Bu, bizim üçün məgər bir zəfər deyil? Texnologiyada daima biz irəlidəyik və ən əsası da budur ki, bu millətə, texnologiyada bizsiz inkişaf edə bilməyəcəklərini inandırmışıq. Bu qədər zəfərdən sonra sən təəccüb etdinmi, Mari? Əvvəllər səsimi çıxartmırdım. Amma sən bu gün küçəyə çıxıb, dəlilər kimi İslamı təbliğ etmisən. Sonra da gəlib, utanmadan mənə danışırsan. İslamı dünən qəbul etmisən, sanki İslamı bilən adam kimi danışırsan. Qurtar görüm, qurtar! Artıq sənin bu əməllərinə dözə bilmirəm.

– Mənə bax, Suzi! Mən İslamı yox, Qərbin istismarçı olduğunu təbliğ edirəm. Onları qəsb etməyə çalışan bir millət olduğumuzu başa salıram, başa düşdünmü? Sən deyə bilərsənmi, Benrubi, ta Avropadan bura niyə gəldi? Gözəllik müsabiqəsinə münsif olmaq üçünmü? Səncə, məqsədi yalnız budurmu? Bu millətin qızı soyununca gələn Ben Rubi bu millətin qızı geyinmiş olsaydı, heç gələrdimi? Bu milləti uzun bir zamandır dinindən ayırmağa çalışmağın harasında insanlıq və mədəniyyət var? Xristianlar bu millətin bağrında əsrlərcə yaşadı. Amma bunlar xristianları aldadaraq dinlərindən ayırmadılar.

– Yox, canım! Müsəlmanlaşdırmaq üçün az çalışdılar məgər?

– Amma xristianların qızlarını, oğlanlarını fahişə etməyə çalışmadılar. Onların bütün varlıqlarına göz dikmədilər. ... İslama dəvət etmələri çox normaldır, çünki insanların əsl dində olmalarını istəyirdilər. Amma Qərb mədəniyyəti bu milləti dinsizləşdirməyə çalışır. Gizlində düşmənçilik edib üzdə daima dost görünürlər. Əsl məqsədini demir. Amma onlar nə vaxt müharibə etsələr, nə vaxt nə düşündülərsə, həmişə şəffaf oldular və məqsədlərini açıq söylədilər.

– Bəsdiiiir!!! Bəsdir, Mariya, bəsdir! Səni müsəlmanların vəkili görmək istəmirəm... Sən nə axmaq adammışsan! Baxan da elə bilir ki, sən zəkalı insansan.

– Düz də edir, çünki zəkalıyam.

Bu vaxt qapı döyüldü. «Böyük bacıdır» deyib, qapını mən açdım. Aaa! Kim gəlsə yaxşıdır?

– Mehmet.

Birdən beynim döndü.

– Aa, xeyir ola, Mehmet?!

– Səninlə danışmağa gəldim.

– Nə haqqında?

– Bilirsənmi... İkimiz haqqında.

– İkimizmi? Artıq ikimiz yoxuq, dünyada çox insan var. İkimizin də bir dəyəri yoxdur, yalnız ayrı-ayrı olsaq, dəyərlərimiz ortaya çıxar.
– Bax, Mariya! Mən sənin müsəlman olduğuna çox kədərləndim. Amma buna baxmayaraq, səninlə evlənməyi qəbul edirəm.
– Yoo... Sən hələ soruş görüm, mən səninlə evlənirəm, ya yox?
Əslində onu narahat edən mənim müsəlman olmağım idi. Məni passivləşdirmək üçün mənimlə evlənməyə belə razı idi. Bir xristian qızın müsəlman olmasına dözə bilmirdi. Amma minlərlə müsəlmanın dinsiz olmasına sevinirdi.
Onu başa düşürdüm. Özümü bilməməzliyə vurub soruşdum:
– Bəs sən deyirdin ki, mən dindarla evlənmərəm?
– Amma sən başqasan.
– Xristian ikən mənimlə evlənmək istəməyən sən, müsəlman olandan sonra mənimlə evlənmək istəyirsən? Həm də özünü təkrarolunmaz bir adam sayıb, təkəbbürlənir, sanki mənə lütf edirsənmiş kimi özündən razı danışırsan. Sən mənimlə evlənsən belə mən səninlə evlənə bilmərəm. Onsuz da adaxlanmışam.
– Yalan danışırsan, bu doğru ola bilməz.
– And içirəm ki, belədir.
– O da dindardır?
– Bəli. Həm də əsl dindardır. Sən onu tanıyırsan.
– Kimdir o? Mən elə bir şəxs tanımıram.
– Əbdülvəhhab.
– Ola bilməz. Onun nişanlısı vardı.
– Nişanlısı ölüb.
– Səni necə tapdı?
– Mən ona məktub yazdım. Onsuz da ondan xoşum gəlirdi.
– Deməli, o halda mənə olan sevgin yalandı.
– Xeyr, yalan deyildi, lakin mənasız imiş. O qədər göz yaşları, o qədər həsrət. Artıq mənə tay olanı tapdığıma inanıram.
– Ay namussuz! Deməli, mənim sevdiyim qıza sahib çıxmaq istəyir?
– Xeyir ola. Sən o qızı alıb öz halalın etmişdinmi? Sənin sevdiklərin və rəğbət duyduqların camaatın evli qadınlarını tovlayıb yataqlarına salırlar. Sən heç onlara namussuzlar dedinmi? Həm də sənin almadığın, sənin tərk etdiyin qızı istəmək heç bir dində haram deyildir. Biz artıq ayrılmışıq... Xahiş edirəm çıx get, Mehmet!
– Amma sənin etdiyin insanlığa sığmayan bir şeydir.
– İnsanlığı səndən öyrənmək istəmirəm. İkimizin gözündəki insanlıq bir-birinə heç bənzəmir.
– Belə danışma, Mariya! Səhvim varsa, üzr istəyirəm.
– Üzr istəməyin gözəl bir şeydir. Amma mən sən deyiləm... Söz verdimsə, sözümdən dönə bilmərəm. Həm də səninlə evlənməyim mümkün deyil. Sən də pərəstiş etdiyin adamlar kimi, dini nikahı istəməzsən, amma həmişə başqa bir sevgili tapar, sonra o qadını özünə məftun etdikdən sonra, başqa bir məşuqənin yanına qaçarsan. Necə olsa, qanunlarınız sizin xeyrinizədir, birdən artıq evlilik yolu ilə ikinci həyat yoldaşı yasaqdır, iyirminci sevgili isə yasaq deyil. Sizin heç bir ölçünüz yoxdur.
Mehmet, islami qanunların hamısına yox, günahların hamısına bəli. Beləcə, bir fikri olmayan, Allahdan uzaq şəxslərlə mən yaxın ola bilmərəm. Dostcasına başladığımız işi dostyanə də qurtardıq. Gülə-gülə, Mehmet. Arzu edirəm ki, bütlərdən, Tanrı bilib ibadət etdiklərindən Allaha doğru dönəsən.
Mehmet getdi. Heyrət... Nə kədərləndim, nə də ağladım, heyrət! «Mən ölsəm də, başqasını sevə bilmərəm» – dediyim halda, əcəba, Mehmetdən necə ayrıldım. Deməli:

İnsan öyünür, insan ağlar, üzülür.
Könül bükülür, könül çağlar dönür.
Hadisələrə görədir insanın ruhu.
Bir gün sevdiyini, bir gün öldürür.

Suzi yenə də dəli kimi mənə həmlə edir, mənim müsəlman olmağımı qəbul edə bilmirdi.
Artıq mübahisə etmək istəmirdim. Səhər yeməyi vaxtı süfrə başında da ağzını saxlamayınca qalxıb var gücümlə qışqırdım:
– Bəsdiiir. Bəsdir, Suzi! Qatilləri müdafiə etməkdən artıq vaz keç. Məni də rahat burax.
– Kimə qatil deyirsən, diqqət et.
– Onlara, yəni sizinkilərə. Əlbəttə, qatildirlər. Atamın «Nə olursa-olsun, müsəlman ölkələrini bir-biri ilə müharibəyə sürükləyib, onları bir-birinə qırdırmalıyıq» – sözünü qulaqlarımla eşitmişəm. Müsəlmanlar belə bir xa-

inlik etdilərmi? Bir xristianı başqasına öldürtdülərmi? Həm də bunu daha çox silah satmaq üçün edirlər... Bir düşün, İslam ölkələrini silah düzəltməyə qoymayan Amerika və Qərb bu qədər silahı kimin üçün düzəldir? Oyan, Suzi, oyan! Əllərində milyardlarla insanı bir dəqiqədə öldürəcək silahlar var. Dünyanı dəfələrlə öldürə biləcək bomba var əllərində... O bombalar kimin üçündür? Nə üçün? İnsanları öldürmək üçün düzəltdikləri bombalarla, «biz qabaqcıllarıq» – deyə öyünürlər? Gözünü aç, Suzi.

Dediyim sözlərin heç birinin faydası yox idi.

Ayağa qalxıb böyük bacının yanına getdim. ... Çox elmli və şüurlu bir müsəlman idi. Lakin onun kimisini heç görə bilmirdim. Sadəcə o vardı. Lakin bu işlər yalnız onunla ola bilməzdi. Milyonlarla böyük bacı, milyonlarla qardaş lazımdı.

Böyük bacının qapısının zəngini basarkən içəridən Quran səsi gəlirdi. Nə müdhiş bir Kitab! İnsan mənasını başa düşməsə də, yenə ruhuna təsir edir.

Gəlib qapını açdı. Üzündə hüznlü bir ifadə vardı. «Gəl, canım bacım, gəl» – dedi. İçəri girdim.

– Oxuduğun Quran sənə nə deyirdi?

– Maraqlanırsansa, gəl başa salım.

Səccadənin üzərində qarşı-qarşıya oturduq. Oxuduğu Quran ayələrinin mənasını izah etməyə başladı.

– «Əraəytəlləzi» ilə başlayan surədə bax gör Allah nə buyurur: **«Dini yalan hesab edəni gördünmü? O elə adamdır ki, yetimi itələyib qovar. Və yoxsulu yedirtməyə rəğbətləndirməz. Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər; onlar riyakarlıq edər və zəkat verməyi qadağan edərlər»** («Maun» surəsi). Bax, Allah bu surədə yetimin haqqını yeyən, fəqirlərin fəqirlikdən xilas olması üçün təşviqedici olmayan müsəlman görkəmindəki münafiqlərin namazlarının qəbul olmadığını açıqlayır.

– Həqiqətən, çox maraqlıdır. Ac insanları doyuzdurmayan müsəlmanlar bu ayələri bilirlərmi?

– Xeyr. Onlar Quranla maraqlanmırlar.

Böyük bacı mənə çox şeylər anlatdı... Onun söhbətlərindən doymaq olmur... Amma mən müsafirəm. Kaş ki Almaniyada da belə gözəl danışan bir müsəlman tapa biləydim. Nə isə artıq Əbdülvəhhabla evlənirəm, ondan öyrənərəm... Həm müəllimim, həm də ərim olar.

* * *

Üzgün və çaşqın bir halda İstanbulu tərk edərkən Heydər Paşa Vağzalına gəldim. Böyük bacı, Suzi və bir neçə dost məni yola salmağa gəldi. Əvvəl Ankaraya, oradan da Almaniyaya gedəcəkdim.

Hey dünya... Düşmənlik üçün göndərildiyim İstanbuldan dost olaraq geri dönürəm.

Suzi çox üzgün idi. Getməyimə görə yox, müsəlman olduğuma görə kədərli idi...

– Mən bilirəm, Mari, sən Almaniyada İslamı buraxacaqsan.

Birdən diksindim;

– Allah eləməsin. Mən əsl müsəlman olacam.

Böyük bacı birdən-birə neçə gündür demədiyi sözü dedi:

– Həm də saçlarını örtəcək, adını da dəyişdirəcək.

– Lakin mən gəncəm. Gənc qızlar da saçlarını örtməlidirlər?

– Əlbəttə, qızım. Müsəlman qadın istər yaşlı, istər gənc olsun, örtünmək məcburiyyətindədir. Hətta gənclərin daha çox örtünməsi, çox yaşlıların, qadağan olunmuş zinət yerlərini göstərmədən üst paltarlarını çıxarmalarının günah olmadığı haqqında islami hökmlər vardır. («Nur» surəsi 60-cı ayəyə bax)

– Yaxşı, nə üçün mən İstanbulda sənin kimi örtülü gənc qız görmədim?

– Bilirsən niyə? Çünki gənc qadınlara «Gənclər açıq-saçıq olarlarsa, daha modern olarlar» – fikri təlqin edildi. Müsəlman qaldı ki, örtü qalsın? Sən hələ də bizim ölkəmizi tanıya bilmədin? Bu ölkədə fahişəxanalara belə icazə verildi. Qızlarımız satılır. Kişilərimiz özləri pul verərək o qadınların yanına gedirlər. Özləri də fahişə olub evə qayıdırlar. Sonra da o qadına fahişə, özlərinə namuslu deyirlər. Canım bacım, belə sürətlə pozğunlaşan ölkədə hicab qalar?

– Nə üçün bu vaxta qədər mənə «Örtün!» – demədin?

– Fikirləşdim ki, nəfsinə ağır gələr. Qızlara örtünmək çətin gəlir. Ətraf mühit çevrəsindəki insanlar onlara təsir göstərməyə çalışır.

– Qoy təsir göstərsin, çətin gəlsin. Çevrə nədir? Madam ki bunu Allahım istəyir, nə üçün örtünməyim? Qatar da on dəqiqədən sonra qalxacaq. Ayy, indi nə edək, görəsən? Yadıma düşdü, sənin çarşabının altında, deyəsən, örpəyin vardı. Onu mənə verərsənmi?

– Niyə ki? Al canım, yetər ki, sən başını ört, mən sənə bütün varlığımı verərəm.

Böyük bacı örpəyini mənə verdi. Başımı örtdüm. İndi müsəlman olduğuma daha çox inandım. Artıq müsəlmana oxşayıram... Mühit təsir göstərirmişdir. Məgər mən çevrəmə görə yaşamalıyam? O halda mənim şəxsiyyətim harada qaldı???

Suzi haldan-hala düşdü, böyük bacı eşitsin deyə yarı türkcə ilə qışqırırdı:

– Sən oxşayırsan indi qoca qarıya!! Sən oldun indi yaşlı qaadın!!!

– Məni mənə baxan yox, özüm maraqlandırıram.

Yaşlı görünsəm nə olar ki? Elə sən də o qədər boyanın altından olduğun kimi görünmürsən, görünən budur ki, ortada sən yoxsan. Səndən əvvəl gözə çarpan boyaların var.

Ah! Qatar getməyə hazırlaşır. Hamısını qucaqladım. Qatarda öz yerimdə oturdum. İstanbula gələrkən sol tərəfdə oturmuşdum. Fikriyə də qarşımda oturmuşdu.

Qatar yerindən tərpəndi. Böyük bacı kədərindən, Suzi də məni əlindən çıxardığına görə ağlayırdı... Mən də dünyanın maraqlı hallarına və bu ölkənin insanlarına ağlayırdım.

Yazıqlar!!! Elə bir tələyə düşmüşdülər ki, bu gedişlə bu tələləri görmələri mümkün deyildi... Özlərini dinsizləşdirən idarə sistemini özləri gətirir, özlərini sərxoş edəcək içkini özləri istehsal edir, öz vətən övladlarına fahişəlik sənədini ölkələrinin adına özləri imzalayıb verir, imamları (axundları) asıb, Benrubiləri ayaq üstündə qarşılayırdılar. Amma bütün bunlar olarkən xalqın beyni elə yatmışdı ki, hətta «əcəba, bu bir səhvdirmi?» – deyə düşünə bilmirdilər.

Bax, bu acı tabloya ağlanırdı.
Son dəfə baxırdım İstanbula.
Ruhumu əridib qəlibdə dondurmuşlar;
Onu «İstanbul» deyə torpağa basdırmışlar.

Çiçəyi altında ulduz, suyu telli, pulludur.
Ay və Günəş əzəldən, iki İstanbulludur...
Ey ulu Şair! Görürsənmi o İstanbulu nə hala salıblar?
İndi Ay da, Günəş də İstanbul üçün ağlayır. Bu ölkə üçün ağlayırlar.

## SƏNƏ GƏLDİM, ALMANİYA

Qatardan düşər-düşməz bir taksi tutub əvvəl Əbdülvəhhabın yanına getdim.

Məni görüncə çox sevindi.

– Xoş gəldin... Həm İslama, həm də buraya xoş gəldin, Mariya. Səni görmək nə xoşdur.

– Amma artıq mən Mariya deyiləm. Adımı dəyişdirmişəm.

– Elə sənə yaraşan da budur. Nə qoydun adını?

– Səlva.

– Nəə! Doğru deyirsən?

– Bəli. Doğru deyirəm. Mənim o qıza sayqım vardı... Sən də sevirdin, adımla onu, ruhumla da özümü sənə hədiyyə etməyi düşündüm.

– Amma onu qısqanarsan.

– Xeyr, qısqanmayacam. Məndən sonra olsaydı qısqanardım. Amma o varkən mən yoxdum sənin dünyanda.

İlk dəfə gözlərimə belə sevinclə baxaraq danışırdı Əbdülvəhhab.

– Necəsən, Mariya... Bağışla, Səlva?

– Yaxşıyam. Bəs sən?

– Mən də yaxşıyam... Həyəcanla səni gözləyirdim. İnan ki, bu halıma mən də təəccüblənirəm. Gəl gedək atanın yanına.

– Aranız yaxşıdırmı?

– Dayanmadan mübahisə edirik.

Getdik. Anamla-atamla bir-birimizi qucaqladıq. Anam hıçqıra-hıçqıra ağlayırdı.

– Mariyam, başını nə üçün müsəlmanlar kimi örtmüsən? Yoxsa, onlara meyillisən?

– Bəli, meyil etdim, ana.

– Gördünmü, bəy? Onu müsəlman ölkəyə göndərməməliydik. Vay mənim Mariyam, vay! Onlara oxşamağa çalışır.

– Xeyr, ana. Getdiyim ölkədə də çox müsəlman yoxdu. Sadəcə bir neçə müsəlman gördüm.

– Elə şey olmaz. O qədər böyük bir ölkənin donuzlarına nə olub ki?!

– Ana, onlar donuz deyil, danışığına diqqət et! Həm də onlara nə olduğunu atamdan soruşmaq lazımdır. Onlara nə olduğunu atam daha yaxşı bilir.

Gözlərimi atama dikərək soruşdum:
– Elə deyil, ata? O müsəlmanlara nə olduğunu sən daha yaxşı bilirsən, elə deyilmi?
– Mübahisəni qurtar, Mariya, gəl otur görüm. Nə etdin? Ayların necə keçdi?
– Sadəcə düşünərək keçirdim aylarımı.
– Mehmet nə oldu?
– Mehmet deyilən biri yoxdur artıq. Onun haqqında danışmayaq.
Anamın əlinə fürsət keçmişdi.
– Bax, bu da müsəlmanlar.
– Guya müsəlman olmayan yaxşıdır, ana? Həm də, o, müsəlman deyildi. Allahın dinini kiçik sayan, insanları allahlaşdıran bir bədbəxt idi, o!
– Nə!.. Nə dedin, sən Allahın dini dedin?
– Bəli, ana, Allahın dini.
– Allahın «İncil»dən başqa da dini var?
– Sənin dediklərin, Matta, Mark, Luka və Yəhyanın dinidir, Allahın dini deyil, ana!
– Mariya... Allah eşqinə sən nə danışırsan? Nə demək istəyirsən?
– Mən İslamı qəbul etdim, ana!
– Olaa... Ola bilməz! Ola bilməz!!! Südümü sənə halal etmərəm.
– Nə üçün ola bilməz ki, ana? Sən, atam və hamınız məgər demirdiniz ki, hər bir kəs istədiyi kimi düşünə bilər. Bax, mən indi istədiyim kimi düşünürəm. Nə üçün qəzəblənirsiniz? Südünə gəlincə onsuz da döşündəki südü mənim üçün sənə verən Allahdır. Mən Allahın yolu ilə getməsəm, o süd mənə haram olar.
– Nə üçün Allahınmış? O süd mənim döşlərimdən çıxmışdı.
– Bu nə deməkdir. Döşlərini yaradan sənsənmi? Onun içinə südü, süd fabrikini sən yerləşdirdinmi? Vitaminlərini, istiliyini verən, əmə bilməyim üçün döşlərinə dəlikləri sən açdın? Mənim üçün süd düzəldən göy-göyərtini, meyvə kimi maddələri sən yaratdın? Sən verdin? Mən Allahın yolu ilə getdiyim müddət ərzində o süd mənə halaldır. Allahın yolu ilə getməsəm, o zaman haram olar. Yenə də mənə süd verdiyin üçün sənə təşəkkür edirəm, ana! Əgər plastik analar kimi döşlərinin quruluşu pozulmasın deyə mənə heç süd verməsəydin, nə edərdim?
Sağ ol, anacan. O südün borcundan çıxacam.
– Aman Allahım! Aman!! Mən bu dərdə dözə bilmərəm!
Anam özündən gedib kresloya yıxıldı. Axşam məni namaz qılarkən görüncə birdən çılğınlaşıb məni namazda döyməyə başladı. Dəlicəsinə vururdu.
– Al, bu İsa üçün. Bu Məryəm üçün, bu rahibə Tereza üçün... Bu... Bu da kilsə üçün.
Mən bu zərbələrə əhəmiyyət vermirdim. Əbdülvəhhab demişdi, Bilal Həbəşilər, Həzrət Süməyyələr dayanmadan zülm görmüşlər. Bir az da mən zülm görsəm, nə olar ki?
Qardaşım Bill də anamla birləşib birlikdə mənə zülm edir və «Evimizdən get!» – deyirdilər.
Artıq təngnəfəs olmağa başladım, gedib Əbdülvəhhaba dərdimi açıb dedim. Bir ay sonra kəbin kəsdirib evlənəcəyik. Nə üçün tez bir zamanda evlənib, bu evdən ayrılmayım ki?
– Nə deyirsən, Əbdülvəhhab? Onsuz da bir aydan sonra evlənəcəyik. Tez məni xilas et. Amma sən ağlayırsan. Nə üçün bu qədər pərişansan? Nə olub, Vəhhab? De görüm, nə olub?
– Soruşma, Səlva, soruşma. Sevincmi, bir tərəfi atəşmi, bilmirəm... Məni təəccübləndirən bir məktub aldım.
– Nə yazılıb məktubda?
– Hər şey var.
– Danış. Bu məktubda sənə nə yazılıb?
– Səlva yaşayırmış, Səlva...
– Nəə! Səlva yaşayır?
– Bəli... Yaşayırmış. Allahım, bu necə işdir?
Çıxılmaz vəziyyətə düşdüm. Bilmirəm Səlvanın sağ olduğu xəbərinə sevinim, yoxsa kədərlənim. Oturduğum yerdə qaldım. Dizlərim, məni aparacaq qədər güclü deyildi. Yerimdəcə donub qalmışdım. Güc-bəla ilə soruşa bildim:
– Bu iş necə olub? Nə üçün əvvəl öldüyünü xəbər veriblər?
– Misir zindanlarından aylarla xəbər gəlməyib. Sonra da «Sizin məhkumunuz öldü!» – deyiblər. Amma keçən həftə biri çıxıb gəlib... Çox yorğunmuş. Aylarla işgəncə görübmüş.
– İndi nə edəcəyəm, Əbdülvəhhab.
– Bilmirəm... Bilmirəm. Mən sözün əsl mənasında çaşıb qalmışam.
Birdən özümü toparlamağa çalışdım.

– Çaşdırıcı bir şey yoxdur. Sən onun haqqısan. Gedib onunla evlənməlisən. Onsuz da məzun olmağına da bir ay qaldı.

– Sən... Sən...

– Mənə görə narahat olma. Dinim səninlə sona çatmayacaq. Əlbəttə, bu dünyanın dərdi bir gün bitəcək. Bəlkə, evlənməyəcəyəm də... Amma sığınmaq üçün bir yer tapmalıyam. Bəlkə, İstanbula böyük bacımın yanına getdim. Sən get, Vəhhab. Get!!

– Mən başqa bir şey deyəcəkdim...

– Heç bir şey demə. Onsuz da o qız yetərincə əzab çəkib. O mənim din bacımdır. Onun bundan sonra xoşbəxt olmasını istəyirəm.

Ağlayaraq geri döndüm... Maşınımda tək qalıb için-için ağlamağa davam etdim.

– Əbdülvəhhab, nədir bu işlər, bu necə sevgidir? Sənsiz buralar bu dəfə, həqiqətən, dar olacaq, qaranlıq olacaq... Allahım! Bu böyük şəhərdə mən indi nə edəcəyəm? Yandım!!! Yandım, Allahım! Sən Özün mənə səbir ver... Sən Özün mənim qəlbimə sevinc bəxş et...

Qaza necə basdığımı bilmirdim. Evə gələndə gözlərim şişmiş, sifətim dəyişmişdi.

Anam məni görən kimi deyinməyə başladı.

– Pis, Müsəlman donuzu! Sən niyə gəldin bu evə? Nə oldu? Səni yenə ağlatdılar? Ağla, ağla. Sənə İsa qənim oldu(!) İsa!! Sən bundan sonra heç vaxt gülə bilməyəcəksən.

– Nə üçün sapqın homoseksualist kişilərə və qadınlara, dinsizlərə və qatillərə qənim olmur İsa? Elə bir xüsusiyyəti olsaydı, öncə onlara qənim olardı. Mənim yaxamdan əl çək. Allahın yoluna qayıt, ana!

– Mənə bax, Mariya. Bir də məni İslama dəvət etsən, Məryəmə and olsun səni öldürərəm. Mənə «Müsəlman ol!» – deyə təklif edildikdə, sanki şərəfimə güllə sıxılır. Qətiyyən bir daha söyləmə!

– Bravo, ana... Özlərinə günah, dinsizlik təklif edilərkən, bu təklifdən şərəf duyan müsəlmanlardan daha çox şəxsiyyətlisən!!!

## HƏR AN DƏYİŞƏN DÜNYAM

Atam gəlir... Orta salona girdi. Qaçaraq yanına getdim!

– Salam, ata! Necəsən?

– Çox yaxşıyam, Səlva. Çox.

Anam və Bill atamın «Səlva» – dediyini eşitdilər. Anam çılğınca atamın üstünə atıldı:

– Bir də Mariyaya Səlva deməyəcəksən, oldumu? Yoxsa, pis olar. Gedib lazım olan yerlərə xəbər verərəm.

– Nəyi xəbər verərsən?

Bill cavab verdi:

– İllərdir müsəlmanlara nifrət edən deyə fəaliyyət göstərən sən. İndi Mariyaya «Səlva» – deyə bilməzsən. O, Mariyadır. Həmişə də Mariya olaraq qalacaq, ya da bu evdən çıxıb gedəcək.

Atam heç düşünmədən cavab verdi:

– Niyə sən çıxıb getmirsən, Bill?

– Ata!

– Eşidirəm, Bill.

– Sən özündə olduğuna əminsənmi?

– Bəli. Həm də heç özümdə olmadığım qədər.

Sevincdən gözlərimdən yaşlar axırdı. Tək qaldığım dünyada atam məni müdafiə edirdi... Ağlaya-ağlaya onun boynuna sarıldım.

– Atam, Allah sənə hidayət versin, atam. Bu təkliyimdə mənə dost, mənə arxadaş oldun. Bu yaxşılığını heç bir zaman unutmayacam.

– Bir az əvvəl Əbdülvəhhabın yanında idim. Sabah Misirə gedəcək. Gəl bir az çölə çıxaq, onunla bir az danışaq, kefin açılsın... Burax bunları.

– Ata, səni başa düşə bilmirəm. Sanki bir müsəlman olmuş bir şəxs kimi danışırsan.

– Ola bilərəm. Burada təəccüblü nə var ki!

Anam fəryad edə-edə bağırmağa başladı:

– Aman Allahım... Mən, deyəsən, dəli olacağam. Oğlum Bill. Övladım, mənə bax. Məndə dəlilik əlamətləri görürsənmi?

– Boş-boş danışma, ana! Bəs mənə kim baxsın, mən də dəli oluram. Bax, bax... Manyak-manyak baxmağa başladım.

Anam və Bill ağıllarını itirirdilər. Mən də haradasa ağlımı itirəcəkdim. Atama nə olub. Görəsən, rola girib?!

Axşam Əbdülvəhhabın yanına getdik. Çox pərişan bir halı vardı. İlk gəldiyim gündəki üz ifadəsi getmiş, yerinə öldürücü bir ifadə gəlmişdi.

İlk dəfə otağına dəvət etdi bizi. Bir çay dəmləyib, qonaq etdi.

– Səlva, bilirsənmi, atan İslamı araşdırır.

– Ola bilməz. Aman Allahım. Doğrudanmı? Bu necə oldu?

– Bilmirəm, düşünüb mənim yanıma gəldi...

– Nə qədər sevindim... Bu dərdli günlərimdə bir xoş xəbərə ehtiyacım vardı... Sən nə xoşbəxt adamsan, Əbdülvəhhab. İki il keçməmiş üç şəxsin müsəlman olmasına səbəb oldun. Atam araşdırmağa başladısa, deməli, hər şey yaxşı olacaq.

Əbdülvəhhabın üzünə baxdım... Dərdli, amma çox acı bir ifadə ilə gülməyə çalışıb cavab verdi:

– Bəli, atanız müsəlman olarsa, üç şəxs müsəlman olmuş olacaq. İki ildə, ya da bir ildə. Mən bir şəxsəm, bura gəldikdən bəri iki xristianı müsəlman etdim, yəni səbəb oldum. Bizim ölkəmizdəki bəzi şəxslərin neçə ildə, neçə milyon müsəlmanı dinsizləşdirdiyini bilirsinizmi? Bir dinsiz və müasir adam, bir ildə minlərlə «müsəlman»ı dinsizləşdirdi...

Baxmayaraq ki, sənin, atanın və Rahibin müsəlman olması o minlərlə insana dəyər, amma nəticə yenə bizim əleyhimizədir.

Xeyli danışdıqdan sonra soyuq baxışlarla Əbdülvəhhaba baxdım. O da özündən asılı olmayaraq acı-acı mənə baxırdı... Ağlamamaq üçün özümü güclə saxlamışdım... Soruşdum:

– Əbdülvəhhab, mənə İslam yolunda düzgün addımlaya bilmək üçün bir proqram verərsənmi? Elə bir proqram olsun ki, xoca və bir dost tapa bilmədiyim zaman, o proqram mənim xocam və dostum olsun.

– Çox haqlısan, Səlva... Adamın başına nə gələcəyi bilinmir... Dur, bir dəftər gətirib siyahı tərtib edək.

Gözəl bir dəftər gətirib, dəftərin ikinci səhifəsinə ciddiyyətlə «Həyat proqramı» yazdı. Sonra:

– Yoo, səhv yazdım. Həyatın proqramı heç kimin əlində deyil. Həyatı proqramlayan başqasıdır. Biz yaşadığımız və imkan tapdığımız zamanda, zamanımızı dəyərləndirmə proqramı yazaq...

Səhifənin başına «Proqramlı həyat tərzinin tərifi» yazdı.

Mənə nəyi məsləhət görürsə, onları sıra ilə yazmağa başladı:

– Əvvəl sənə on əhəmiyyətli tövsiyəm var. Həm də çox-çox əhəmiyyətlidir.

1. Nə qədər əzab çəkirsən çək, qətiyyən İslamı qəbul etdiyinə görə peşmançılıq çəkmə, çəksən tövbə et.

2. Dünyanın harasında olursa-olsun, yozum və anlayış fərqinə görə ayrı-ayrı olan islami qrupların heç birinə arxa çevirmə, onlardan uzaq olma. Onlar sənə arxa çevirsələr belə. Həmişə, hər qrupun yaxşı və faydalı gördüyün cəhətlərini dəstəklə. Quru bir təəssüb əhli olanlar, başqa bir qrupu, yaxşı işlər görsələr belə təbrik etməz. Müvəffəqiyyətlər arzulamazlar. Sən qətiyyən belə olma.

3. Hər gün ən azı iki saat, islami baxımdan maariflənmək üçün kitab oxu. Bunu özün üçün qanun kimi qəbul et, qərar ver. Mütləq ən azı iki saat oxumağı unutma. Oxuduğun kitablardan ən çox xoşuna gələn yerləri, xülasə şəklində qeyd kitabçana yaz.

4. Bilmədiyin şeylər haqqında qətiyyən danışma.

5. İbadətlərini, içindən gəlməsə belə mütləq yerinə yetir.

6. Zikr etməyi qətiyyən unutma. Bax gör, Allah nə buyurur. Bu uca fərmana çox yaxşı qulaq as. Sən də qulaq as, ey oxucu! Qəlblərdə əqidənin möhkəmlənməsi üçün Allah buyurur: **«... De ki: «Allah istədiyini azdırır. Tövbə edən şəxsi Öz hidayətinə qovuşdurur. O kəslər ki, iman gətiriblər və Allahı zikr etməklə ürəkləri rahat olur. Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapar!»** («Rəd», 27– 28)

Ayədəki qəlblərin aram tapması məsələsi çox geniş bir mövzudur. Qəlbin əqidəsi yalnız zikrlə düz yola düşə bilər. Əqidə yalnız zikrlə möhkəmlənər. Yalnız zikrlə qəlb hüzurla dolar.

Unutma! Hər gün ən azı yarım saat bir küncə çəkil və «Allah Allah» – deyə zikr et. İstər səsli de, istərsə də səssiz. Amma səssizcə, qəlbən söyləmək daha yaxşı olar. Əgər bu yarım saatı bir saat etsən, daha yaxşı bir iş görmüş olarsan. Əgər zikrlə məşğul olsan, dünyanın bir ucuna getsən də, əsla tək qalmazsan... Allah qula hər zaman yaxındır, amma ən gözəl yaxınlıq qulun özünü Allaha yaxın hiss etdiyi zamandır.

Yalnız zikr etdikdə müsəlmanın qəlbi oyaq olur... mənəvi dəryada təmizlənir. Əks təqdirdə, bu pərişan yönü ilə müsəlmanı əldən salan dünyanın problemlərinə qəlbimiz dözə bilməz.

Səlva... Qətiyyən hər gün zikr etməyi yaddan çıxarma. Allah deyir ki, qəlbin əqidəsi zikrlə möhkəmlənir. Əks təqdirdə tez-tez imani şübhələrə düşə bilərsən. Qəflət səni yaxalayar... Özünə nəzarət edə bilməzsən... Özünü az görmə. Azğın, günahlara meyilli və üsyana hazır bir nəfsin var. Bu nəfsə nəzarət edə bilməsən, iç dünyada anarxiya meydana gətirər. Sonra o anarxiyanın qarşısını ala bilməzsən... Hər gün, bəli hər gün... Mütləq Allahla təkbətək qal... Qul həmişə Allahladır. Amma qul, məcazi mənada Allaha, yalnız Allaha, vaxt ayıraraq

Onunla təkbətək olduğunu hiss etməyə çalışarsa, feyz alar, Allaha yaxınlaşdığını hiss edər, dincələr, qəlbindəki bir çox məşəqqətdən, dərddən təmizlənər.

7. Allahı sevənlərdən uzaq dayanma. Bu gün Allahı sevənlərə rast gəlməyə bilərsən, amma bunu bil ki, bir gün Allahı sevənlər artacaqdır.

8. Bu dünyanın fani, o dünyanın isə baqi olduğunu bil.

9. Ağlına gələn bir sual, başa düşmədiyin bir ayə ilə rastlaşsan, bil ki, başa düşə bilməməyinin səbəbi o ayənin batinini bilmədiyin üçündür. Bunu unutma. Ayələr üç-dörd cəhətdən baxıla bilər. Onlara baxa bilmək üçün mütəxəssis olmaq lazımdır. İslam asan bir dindir, amma çox ucuz bir din deyil. Bir az tər tökmək lazımdır. Cəhd və səmimiyyət lazımdır.

10. Dünya İslama gəlməyə məcburdur. Ölənə qədər insanlığa bunu başa sal.

Başa salarkən yorulduğun zaman istirahət et. Unutma, əshabələr tez yatar, tez oyanardılar. Peyğəmbər metodu ilə çalışmayanlarsa, gec yatar, gec oyanar. Sabaha qədər oturub din haqqında danışarlar. Amma dinin prinsiplərinə sadiq deyillər, bunu görə bilmirlər.

Sən qətiyyən elə olma.

Gələk proqrama:

1. Sübh namazından sonra zikr desən, çox yaxşı olar. Günəş çıxıncaya qədər. Yaxud daha sonraya qədər.

2. Quran oxumağı öyrən.

3. Əqidə dərsləri al. Bu gün bunların nə demək olduğunu bilməyə bilərsən, amma sabah mütləq öyrənəcəksən.

4. Fiqh elmini oxu. Təqvalı və elmli bir müəllim axtar. Tapa bilməsən, fiqh kitabı (risalə) ilə keçinməyə çalış. Unutma, qul, məlumat tutumuna görə məsuldur.

5. İslam tarixini oxu.

6. Özünə üç-beş dənə yazıçı seç. Gücün üç-beşə çatmırsa, bir-iki yazıçı seç və onun bütün kitablarını oxu. Beləcə, o yazıçının biliyinin bir hissəsinə sahib olacaqsan. Tapa bilsən, hər ay ən azı iki islami jurnala abunə ol. Oxuya bilməsən də, başlıqlarına göz yetirməyin sənə fayda verər.

7. Sağlamlığına çox diqqət et. Üç halal ağın artığından çəkin. Bunların hamısının artığı beynin funksiyası və bədən üçün zərərlidir. Bunu yadından çıxartma ki, sağlamlığa diqqət etmək ibadətdir.

Üç ağ yeyinti məhsulu bunlardır:

a) Un

b) Qənd

v) Duz.

8. Həmişə qaşqabaqlı dayanıb özünə sevincli olmağı haram görmə. Unutma ki, hər zaman ağlayanlar da, hər zaman gülənlər də yaxşı bir mübəlliğ ola bilməzlər. Allah Quran-kərimdə «Hər şeydə orta ol!» buyurmaqdadır. Yəni nə çox qarşıya get, nə də geri qal, «orta ol».

9. İmkanın varsa, yayda çöl kimi yerlərə get, dincəl. Oksigeni bol olan yerlərdə heç olmasa bir-iki ay qalaraq, beyin hüceyrələrinin inkişafını təmin et.

10. İnsanlardan zərbə görüb, qətiyyən İslamdan küsmə və hər zamanını məlumatlı bir şəkildə özün tənzimlə. İstirahət etmə, boş gəzmənin belə vaxtını əvvəlcədən tənzimlə və edəcəyin hər hansı bir işin yaxşı olduğuna inanırsansa, kim nə deyirsə-desin ondan vaz keçmə... Yorul, amma qorxma, geri addım atma. Yorulmaq təbiidir və istirahət etməklə aradan qalxar. Amma qorxmaq istirahət etməklə keçməz.

– Hələlik bu qədər kifayət edərmi, Mariya. Bağışla, Səlva?

– Sən bilən yaxşıdır. Verdiyin tövsiyələr çox əhəmiyyətlidir. Sənə nə qədər təşəkkür etsəm də, azdır...

Birdən gözüm atama sataşdı. Görəsən, atam Əbdülvəhhabın iç dünyasını anlamaq, onu yoxlamaq üçün rola girib? Bu adam necə belə dəyişə bilər?

Həyəcanla soruşdum:

– Vəhhab, atamı dəyişdirmək üçün nə etdin?

– Dəyişdirmək üçün bir iş görmədim. Sadəcə vəzifəmi yerinə yetirmək üçün çalışdım. Əgər bir insan haqqında əvvəlcədən çox zənn edilərsə, ya da «bu böyük insan İslamı qəbul etməz» kimi fikir yaranarsa, heç kim vəzifəsini yerinə yetirməz. Və heç kim də İslamdan böyük deyil.

Bu gözəl məlumatlardan sonra evə qayıtdıq. O da ertəsi gün Misirə getdi.

Dalınca çox ağladım... Özümə sahib çıxa bilmədim... Yuxularım, həyatım sarsıldı. Amma bu əzaba dözməliydim... Bu nə həyatdır, bir gün gələcək, bu həyatımı Əminə Şənlikoğluna danışacaqdım.

* * *

Hazırlıq gördüm. Artıq İstanbula böyük bacının yanına gedirəm. Görəsən, evimi tərk etməklə düz iş görürəm? Yoo, xeyr, «Müsəlman qıza yaraşan yer ya ata, ya da böyük qardaşın evidir» – demişdi böyük bacı. Amma mən evi tərk etmirəm ki, məni bu evdə istəmirlər...

İstəmədikləri azmış kimi anam hey «rədd ol, səni görmək istəmirəm» – deyir.

* * *

Dayanmadan ağlayıram, dünyanın halı nə qəribədir, gözlənilmədən bir ildə bir ömür qədər günlər yaşadım.

Anam qəzəbli-qəzəbli soruşdu:

– Əbdülvəhhab neçə gündür ki, görünmür. Yenə nə olub?

– O, Misirə getdi, ana, bir də gəlməyəcək.

– Bəs evlənməyiniz?

– Baş tutmadı... Belə məsləhət bildik.

– Sən elə başa düş. Onu İsa atdı Misirə...

– Ana, sənin İsa dediyinlə o müsəlmanların inandıqları İsa (ə) eyni şəxs deyilmiş. Onların inandıqları İsa (ə) belə günahkarlara cəza vermə səlahiyyətinə sahib deyilmiş. Ona görə də onu Misirə İsanın atdığına inanmaq çox səhvdir.

– Sillə vurdu... Onu Misirə İsanın silləsi atdı.

– Boş sözdür... Sillə gələcəksə, yalnız Allahdan gələ bilər. Rica edirəm, bəsdir, ana. Onsuz da getdiyi bir həftə oldu, dərhal teleqram vurmalı idi. Vurmadı... Ürəyim sıxılır. Sıxılma deyil, deyəsən, canım çıxır.

Düz bu vaxt qapı döyüldü:

– Poçtalyondur, ana, baxaram...

Qapını açanda gözlərimə inanmadım.

– Aaa, Vəhhab! Sənin burada nə işin var?

– Səlva, Səlva çoxdan ölüb. Dostum Feyzullah ailəmə bir alman qızı ilə evlənəcəyimi deyincə onlar da belə bir yalana baş vurublar. İnsan nə hallara düşür. Bəzən bir insanın ölməsinə belə sevinə bilir. Amma nə edə bilərik?

Bu vaxt anamın səsi gəldi qulağıma.

– Kimdir o, Mariya?

– Anacan, gələn Əbdülvəhhabdır. İsanız ona elə bir zərbə vurub ki, düz Misirdən bura yollayıb.

**– SON –**

**Tərcümə etdi: XƏYYAM QURBANZADƏ**